Xalqın qəzeti!

# Xalq qəzeti

№ 257 (30951) 5 dekabr 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Qarşılıqlı etimad Azərbaycan–Britaniya əməkdaşlığına geniş meydan açır

## Prezident İlham Əliyev Birləşmiş Krallığın müdafiə üzrə dövlət nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakeri qəbul edib.**

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu bildirən qonaq, ilk növbədə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Kir Starmerin salamlarını dövlətimizin başçısına çatdırdı.

Lord Vernon Koaker ölkələrimiz arasında dostluq və etimada əsaslanan münasibətləri qeyd edərək əlaqələrimizin strateji tərəfdaşlıq müstəvisində inkişaf etdirilməsində maraqlı olduqlarını vurğuladı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinə çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev Kir Starmerin COP29-da iştirakını və onunla görüşünü məmnunluqla xatırladı.

İkitərəfli münasibətlərimizin zəngin tarixinin olduğunu deyən dövlətimizin başçısı ölkələrimiz arasında əməkdaşlığın enerji sektorundan başladığını və daha sonra bir çox sahələri əhatə etdiyini vurğuladı. Prezident İlham Əliyev ticarət, investisiya və digər sahələrdə əməkdaşlığı daha da genişləndirmək üçün yaxşı imkanların olduğunu dedi. Dövlətimizin başçısı hazırda ölkələrimiz arasında müdafiə sənayesi sahəsində əməkdaşlıqla bağlı yeni səhifənin açılmasına toxunaraq, bunu qarşılıqlı etimadın göstəricisi kimi qiymətləndirdi.

Qonaq Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyinin irəli aparılması istiqamətində bu ilin avqustunda Vaşinqtonda əldə edilmiş nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirərək, bütün bunların tarixi əhəmiyyət daşıdığını vurğuladı və bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi roluna toxundu. Dövlətimizin başçısı sülh gündəliyinin təşəbbüskarının məhz Azərbaycan olduğunu dedi və onun irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

## Almaniya Cənubi Qafqazda sülh və sabitliyi dəstəkləyir



**Dekabrın 4-də Almaniya Federativ Respublikasının Kansleri Fridrix Merts Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Fridrix Merts, ilk növbədə, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini çatdırıb. Kansler Almaniyanın regionda sabitliyi dəstəklədiyini vurğulayıb.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Azərbaycanın regional sülh təşəbbüslərinin müəllifi olduğunu qeyd edib.

Prezident İlham Əliyev ölkəmizin regionda davamlı sülhün təmin olunması və möhkəmləndirilməsi istiqamətində səylərini bundan sonra da davam etdirəcəyini bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Almaniya arasında ikitərəfli münasibətlərin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Kansler Fridrix Merts dövlətimizin başçısını Almaniyaya səfərə dəvət edib. Dəvəti məmnunluqla qəbul edən Prezident İlham Əliyev öz növbəsində Almaniya Kanslerini Azərbaycana səfərə dəvət edib. Fridrix Merts də dəvəti məmnunluqla qəbul edib.

***Prezidentin Mətbuat Xidməti***

## Bölgədə sülh və ədalətli nizam quruculuğu

***Bakı və Ankara İrəvanın mötəbər tərəfdaşlarına çevrilə bilər***



**Son illər beynəlxalq münasibətlər sistemində baş verən dərin struktur dəyişiklikləri fonunda region ölkələrinin xarici siyasətində hər bir görüşün çəkisi nəzərəçarpacaq dərəcədə artıb. Artıq dövlətlərin diplomatik addımları gələcək siyasi proseslərin istiqamətini müəyyənləşdirən strateji siqnallar kimi dəyərləndirilir. Məhz buna görə Azərbaycan ilə Türkiyə arasında təşkil olunan hər yüksək səviyyəli təmas həm regionda formalaşmaqda olan yeni güc balansını nümayiş etdirir, həm də qarşıdakı mərhələdə baş verə biləcək proseslər barədə mühüm ipucları verir.**

*(ardı 4-cü səhifədə)*




Səhifə ⇨ 8

## Ortaqlıq ittifaqından korrupsiya yuvasına

*Brüsseldə tender saxtakarlıqları və qeyri-rəsmi əlaqələr şəffaflığı necə bulandırır?*



**“Qoca qitə”də Avropa İttifaqı haqqında illərdir belə bir fikir dolaşır: “Əgər Brüsseldə bir qapı bağlıdırsa, bilin ki, orada lobbiçilər toplantı keçirir”. İlk baxışdan zarafat kimi səslənən bu fikirlər, əslində, mövcud real durumu təsvir edir. Bəli, qurumun alt strukturlarında yüzlərlə məsləhətçi, lobbiçi, qeyri-rəsmi əlaqələr şəbəkəsi fəaliyyət göstərir. Həmin şəbəkələr bəzən qərarları yönləndirəcək gücə malik olurlar. Düşündürücü məqam odur ki, Brüssel salonlarında qəbul edilən qərarlar normalda qlobal dəyərlər sisteminin daşıyıcısı kimi dəyərləndirilir. Halbuki yalnız sözdə qalan insan haqları, şəffaflıq, düzgün idarəetmə məhz Aİ-nin özünü legitimləşdirmə mexanizmlərinin əsas sütunları hesab olunur və onlar son illər ard-arda baş verən korrupsiya qalmaqalları ilə çökmək üzrədir desək, yanılmarıq.**

*(ardı 4-cü səhifədə)*

## Sovetlərin Naxçıvana yubiley hədiyyəsinin tarixçəsi



Səhifə ⇨ 6

## “Qarabağ sənədləri” və “günah keçisi”



Səhifə ⇨ 5

## Katolikosun Avropada Azərbaycan əleyhinə istinad axtarışı



Səhifə ⇨ 5

## Regionun iqtisadi lideri



Səhifə ⇨ 7

## Ukraynada sülhə ABŞ və Avropanın baxışları



Səhifə ⇨ 11

# “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2515 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 180 (Cild I) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1** “Vüqar Məcidli – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin” sözləri “Mehman İsmayılov – Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturunun” sözləri ilə əvəz edilsin.

**2.** “Rəşad İsmayılov – Azərbaycan İnvestisiya Holdinqinin Aktivlərin idarə olunması departamentinin Hasilat sənayesi və energetika şöbəsinin müdiri” sözləri “Əli Cəfərov – Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 dekabr 2025-ci il**

# Azərbaycan–İraq hökumətlərarası komissiyanın 4-cü iclası



**Bakı şəhərində Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclası keçirilib.**

İclasda iştirak məqsədilə Birgə Komissiyanın İraq Respublikası tərəfindən həmsədri, bu ölkənin rabitə naziri Hayam Al-Yasirinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.

Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, sıx tarixi, dini və mədəni əlaqələrə malik iki dost ölkə olan Azərbaycan və İraq arasında müxtəlif sahələr üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük potensial mövcuddur.

R.Nəbiyev ölkəmizin ötənilki makroiqtisadi göstəriciləri və iki ölkə arasında ticarət dövriyyəsinin həcmi barədə məlumat verib.

İclasda iqtisadiyyat, sənaye, ticarət, qarşılıqlı investisiyalar, neft və qaz, rəqəmsal inkişaf, elm və təhsil, mədəniyyət, turizm, gənclər və idman sahələrində əməkdaşlıq imkanlarına dair geniş müzakirələr aparılıb.

Sonda Azərbaycan Hökuməti və İraq Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın 4-cü iclasının Protokolu imzalanıb.

***XQ***

# ABŞ Etnik Fondunun rəhbərləri Qafqaz Müsəlmanları İdarəsində

**Dekabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüşdə Şeyxülislam A.Paşazadə Azərbaycanda mövcud unikal multikultural həyat tərzi haqqında, ölkə rəhbərinin səy və təşəbbüsləri sayəsində dövlətimizin beynəlxalq dinlərarası dialoq müstəvisində qabaqcıl rolu, dini mərkəz olaraq Qafqaz Müsəlmanları İdarəsinin dünya miqyasında dinlərarası əməkdaşlıq istiqamətində fəaliyyəti barədə danışıb.

QMİ sədri bu yaxınlarda ABŞ-da səfərdə olarkən keçirdiyi yüksəksəviyyəli görüşlər, din xadimləri və ictimai liderlərlə ünsiyyətləri zamanı Azərbaycana münasibətdə müsbət tendensiyaların artdığından məmnunluğunu ifadə edib.

Şeyxülislam yarım əsrə yaxın davam edən dostluq və əməkdaşlıq münasibətlərinə malik olduğu Vicdana çağırış Fondunun prezidenti Ravvin Artur Şnayerin adını və Azərbaycana xoş münasibətini xüsusi dəyərləndirərək, onunla ötən aylarda Nyu-Yorkda şəxsən görüşündən bəhs edib. Şeyxülislam A.Paşazadə Ravvin A.Şnayerin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə keçirdiyi görüşləri böyük rəğbətlə yada salıb. Bildirib ki, Artur Şnayerin oğlu Mark Şnayerin də ölkəmizin dostu olmasını yüksək qiymətləndirir.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer Azərbaycan dövlətinin və dini liderinin dünya miqyasında mədəniyyətlərarası dialoqun inkişafına verdiyi töhfələrdən danışıb. Azərbaycanın evsahibliyi etdiyi və dünyanın nüfuzlu dini liderlərini mütəmadi bir araya gətirdiyi beynəlxalq forumların əhəmiyyətini vurğulayıb.

***XQ***

# Azərbaycan–Böyük Britaniya müdafiə sənayesi əməkdaşlığı genişlənəcək

**Dekabrın 4-də Azərbaycanın müdafiə sənayesi naziri Vüqar Mustafayev ölkəmizdə rəsmi səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının müdafiə üzrə dövlət naziri Lord Vernon Koakerin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazir V.Mustafayev V.Koakerin Azərbaycana səfərinin iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. O, Azərbaycanın müdafiə sənayesi sektorunun dayanıqlı inkişaf mərhələsində olduğunu və beynəlxalq tərəfdaşlıqların bu inkişafda mühüm rol oynadığını vurğulayıb.

V.Mustafayev, həmçinin Birləşmiş Krallıqla müdafiə sənayesi sahəsində əlaqələrin inkişafının qarşılıqlı fayda gətirəcəyinə inandığını diqqətə çatdırıb.

V.Koaker Azərbaycanın regional sabitlik və təhlükəsizlik sahəsində oynadığı rolu yüksək qiymətləndirib və Birləşmiş Krallığın müdafiə sənayesi də daxil olmaqla müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu vurğulayıb.

***XQ***

# Mərkəzi Bankın Xızıda səyyar görüşü

**Maliyyə xidmətləri sahəsində vətəndaşların hüquqlarının qorunması, habelə onlara göstərilən xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində Azərbaycan Mərkəzi Bankı tərəfindən görülən mütəmadi tədbirlərin davamı olaraq Xızı rayonunda vətəndaşların səyyar görüşü keçirilib.**

Vətəndaşların müraciətləri əsasən kredit istəyi və kredit müqaviləsi üzrə qoyulmuş öhdəliklərə güzəştlərin tətbiqi, fəaliyyəti dayandırılmış filialın yenidən bərpası ilə bağlı təklif və sorğular ilə bağlı olub. Görüş zamanı Mərkəzi Bankın nümayəndələri tərəfindən vətəndaşların müraciətlərinə fərdi qaydada baxılıb və qanunvericiliyə uyğun atıla biləcək addımlar onlara izah olunub.

***XQ***

# Ceyhun Bayramov ATƏT tədbirində

**Azərbaycan özünün prinsipial və praqmatik xarici siyasətinə əsaslanaraq ATƏT çərçivəsində də konstruktiv əməkdaşlığa sadiqdir.**




Bu barədə Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Vyanada ATƏT Xarici İşlər Nazirləri Şurasının 32-ci iclasında çıxışı zamanı bildirib. O qeyd edib ki, əhəmiyyətli nəticələrin əldə olunması üçün birgə həll yolları və konstruktiv əməkdaşlıq vacibdir.

Nazir bildirib: “Bütün çatışmazlıqlara baxmayaraq, biz hərtərəfli təhlükəsizlik konsepsiyası və əhatəli üzvlük xüsusiyyətlərinə görə ATƏT-in roluna inanmaqda davam edirik. Bununla belə, aktual qalmaq üçün təşkilat adaptasiya etməyi bacarmalı və nəzərəçarpacaq nəticələr əldə etməlidir. Yalnız birgə həll yolları nəticə verə bilər. Konsensus prinsipi həmişə bizim kollektiv səylərimizin əsas xüsusiyyəti və qərarların qəbulu prosesinin təməli olaraq qalmalıdır. Bu anlayışla ATƏT-in funksionallığı və səmərəliliyi ilə bağlı çağırışların aradan qaldırılması naminə bütün ATƏT üzv dövlətləri ilə konstruktiv əməkdaşlığa hazırıq”.

Azərbaycan və Ermənistan arasındakı münasibətlərdən danışarkən Ceyhun Bayramov bildirib ki, bu gün qeyri-sabit ATƏT regionundan fərqli olaraq, Azərbaycan və Ermənistan ən dinc və sabit dövrü yaşayır. Hər iki tərəf hökumət, parlament və vətəndaş cəmiyyəti səviyyələrində müxtəlif ölçülər üzrə konkret tədbirlərin həyata keçirilməsi istiqamətində irəliləyir.

Onun sözlərinə görə, sülh prosesinə əlavə təkan vermək məqsədilə, Azərbaycan xoşməramlı jest olaraq, Ermənistana münasibətdə məhsulların tranzit məhdudiyyətini birtərəfli qaydada aradan qaldırıb.

XİN rəhbəri deyib: “Azərbaycan tərəfindən uzun illər ərzində təşviq olunduğu kimi, bu nailiyyətlər aydın şəkildə nümayiş etdirir ki, birbaşa ikitərəfli danışıqlar irəliyə aparan ən yaxşı yoldur. Azərbaycan sülh gündəliyinin təşəbbüskarı kimi bu yola sadiqdir və Ermənistan tərəfindən də qarşılıqlı siyasi iradə və məsuliyyəti gözləyir. Biz bu çərçivədə, normallaşma prosesinin yekunlaşdırılması naminə xoş niyyətin və bütün öhdəliklərin zamanında icrasının həlledici əhəmiyyətini vurğulayırıq”.

Ceyhun Bayramov daha sonra vurğulayıb ki, Ermənistan Konstitusiyasında hələ də qalmaqda davam edən ərazi iddialarının çıxarılması paraflanmış ikitərəfli sazişin imzalanmasına və onun sonrakı ratifikasiyasına, birdəfəlik sülhün təmin olunmasına imkan yaradacaq.

Onun sözlərinə görə, bununla yanaşı, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun zamanında həyata keçirilməsi sülhün dayanıqlı olmasında böyük əhəmiyyət kəsb edir: “Bu multimodal bağlantılar marşrutu dəmir yolu, avtomobil yolu və digər kommunikasiyaları əhatə etməli və Ermənistan üçün qarşılıqlı bağlantı faydaları ilə birlikdə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməlidir. Dəfələrlə bəyan edildiyi kimi, kommunikasiyaların açılmasının əhəmiyyəti təkcə Ermənistan və Azərbaycan arasında sülhün dayanıqlı olmasına təsir göstərmir, daha geniş miqyasda böyük faydalar gətirir”.

*

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyanada keçirilən ATƏT-in 32-ci Nazirlər Şurası iclası çərçivəsində ATƏT-in Baş katibi Feridun Sinirlioğlu ilə görüşüb.**



Görüşdə tərəflər Azərbaycan-ATƏT ikitərəfli əməkdaşlığının mövcud gündəliyi və perspektivləri, ATƏT-in hazırda üzləşdiyi çağırışlar, regional və beynəlxalq təhlükəsizlik məsələləri, geniş regiondakı vəziyyət, eləcə də Azərbaycan–Ermənistan sülh prosesi barədə fikir mübadiləsi aparıblar.

*

**Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Nazirlər Şurasının 32-ci iclası çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb.**



Görüşdə Azərbaycanla Türkiyə arasında möhkəm dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlər üzrə inkişafı məsələləri, habelə bölgədə mövcud təhlükəsizlik vəziyyəti, regional sülh və sabitliyin təmin olunması istiqamətində görülən tədbirlər müzakirə olunub.

Tərəflər iqtisadiyyat və ticarət, energetika və nəqliyyat-kommunikasiya layihələri, o cümlədən regional bağlantı təşəbbüslərinin reallaşdırılması ilə bağlı perspektivləri nəzərdən keçiriblər.

*

**Xarici işlər naziri Ceyhun Bayramov iclas çərçivəsində Norveç xarici işlər naziri Espen Bart Eyde ilə də görüşüb.**

Nazirlər iki ölkə arasında münasibətlərinin mövcud vəziyyətini nəzərdən keçirib, siyasi dialoqun və əməkdaşlığın genişləndirilməsi məsələlərini müzakirə ediblər.

Nazir Bayramov həmkarına Cənubi Qafqazda yaranmış yeni regional reallıqlar barədə də məlumat verib.

*

**Xarici işlər naziri Ceyhun Bayramov iclas çərçivəsində NATO Baş katibinin müavini Radmila Şekerinska ilə görüşüb.**

Görüş zamanı Azərbaycan ilə NATO arasında əməkdaşlıq gündəminə daxil olan müdafiə, enerji təhlükəsizliyi, kritik infrastruktur obyektlərinin mühafizəsi, təhsil və digər məsələlər, eləcə də regional və beynəlxalq təhlükəsizliklə bağlı mövzular müzakirə olunub.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 360** **1 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı ilə təsdiq edilmiş "Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 avqust tarixli 116 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 669 (Cild I); 2024, № 2, maddə 208, № 5 (II kitab), maddə 612) ilə təsdiq edilmiş "Bal arısı cinslərinin və populyasiyalarının rayonlaşdırılması Qaydası"nın 2.3-cü bəndində cədvəlin "Rayonların adları" sütununun adında "Rayonların" sözü "Rayonların (şəhərlərin)" sözləri ilə əvəz edilsin və cədvəlin sonuna aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| Karnika | Peşeç | Qusar, Quba, Xaçmaz, Şabran, Xızı, Siyəzən, Abşeron, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | Quba, Qusar, Xızı, Qobustan, Şamaxı, İsmayıllı, Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən, Xaçmaz, Şabran, Siyəzən, Abşeron, Laçın, Kəlbəcər |
| | Troyzek | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı, Cəlilabad | Astara, Lənkəran, Masallı, Lerik, Yardımlı, Cəlilabad |
| | Perner | Ordubad, Culfa, Babək, Kəngərli, Şərur, Sədərək, Şahbuz | Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək, Şahbuz |
| Karpat | Dağ karpatı və Qaydar | Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Bərdə, Tərtər, Füzuli, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Ağdam, Şuşa, Xocalı, Kəlbəcər | Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Ağdam, Şuşa, Xocalı, Füzuli, Kəlbəcər, Samux, Qazax, Ağstafa, Tovuz, Bərdə, Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli |
| İtalyan | Bütün populyasiyalar | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Ucar, Zərdab, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Füzuli, Şirvan, Ağdam, Xocavənd, Ordubad, Culfa, Babək, Kəngərli, Şərur, Sədərək, Şahbuz | Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Mingəçevir, Şirvan, Ağdam, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Şuşa, Xocalı, Füzuli, Xocavənd, Kəlbəcər, Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək, Şahbuz |
| Bakfast (hibrid cins) | Bütün populyasiyalar | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Ucar, Zərdab, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Füzuli, Şirvan, Ağdam, Xocavənd | Yevlax, Ağdaş, Göyçay, Kürdəmir, Ağcabədi, Beyləqan, Saatlı, Sabirabad, İmişli, Neftçala, Salyan, Biləsuvar, Hacıqabul, Mingəçevir, Şirvan, Ağdam, Gədəbəy, Daşkəsən, Göygöl, Goranboy, Şəmkir, Qubadlı, Zəngilan, Laçın, Cəbrayıl, Kəlbəcər, Tərtər, Şuşa, Xocalı, Füzuli, Xocavənd |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 371** **3 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin 3 nömrəli cədvəli – "Vətəndaşların sağlamlıq vəziyyətinə dair əlavə tələblər"in "c) Təlim (xidmət) üçün seçilən hərbi qulluqçular, bəzi hərbi uçot ixtisasları üzrə təlim üçün seçilən və hərbi xidmət keçən hərbi qulluqçular" yarımbəndinin "Dərin sularda işləyən dalğıc, akvanavt, komando təməl və komando ixtisas (snayper, paraşütdən tullanma, axtarış-xilasetmə, minaaxtaran və s.) göndərilən hərbi qulluqçular" sütununun "Boy (sm-lə)" sətrinin 17-ci qrafasında "170" rəqəmləri "160" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 367** **2 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının icrasının təmin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 111-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 277 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I); 2024, № 9, maddə 1061, № 12 (II kitab), maddə 1463; 2025, № 2, maddə 181) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən Əsas Müddəalar"ın 11-ci hissəsinə "qurumlarına" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; № 12 (II kitab), maddələr 1439, 1463; 2025, № 1, maddə 86, № 2, maddələr 181, 187) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 1.17-ci bəndinə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 5 yanvar tarixli 1 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 35 (Cild I); 2024, № 10, maddə 1167) ilə təsdiq edilmiş "Dövlət hakimiyyəti orqanlarında, yerli özünüidarə orqanlarında və təşkilatlarda işləyən hərbi vəzifəlilərin səfərbərlik zamanı və müharibə dövründə bron edilməsi işinin təşkil olunması Qaydaları"na aşağıdakı məzmunda 2.3-1-ci bənd əlavə edilsin:

"2.3-1. Səfərbərlik üzrə hərbi xidmətə çağırışdan möhlət verilməsi bu Qaydaların 2.3-cü bəndində qeyd olunan sənədlər Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən əldə edildikdən sonra təmin olunur. Bu zaman səfərbərlik üzrə hərbi xidmətə çağırışa möhlət verilməsi haqqında qərar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemində "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada elektron sənəd formasında formalaşdırılır və Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəzifəli şəxslərinin təkmil sertifikatlı gücləndirilmiş elektron imzası ilə təsdiqlənir. Həmin elektron qərar real vaxt rejimində Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vahid elektron informasiya sistemindən Elektron Hökumət İnformasiya Sisteminə göndərilərək vətəndaşın həmin informasiya sistemində elektron qərarla tanış olması və elektron sənəd formasında əldə etməsi imkanı təmin olunur. Eyni zamanda, Elektron Hökumət İnformasiya Sistemi tərəfindən vətəndaşa real vaxt rejimində qeyd olunan sənədin elektron kabinetdə yerləşdirilməsi, elektron kabinetin internet ünvanı və daxilolma qaydası barədə ödənişsiz SMS məlumat göndərilir.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134 (Cild I); 2024, № 1, maddə 81, № 5 (II kitab), maddə 594, № 9, maddə 1067, № 11, maddə 1246; 2025, № 5, maddə 504) ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.2-ci bənddə "sülh" sözü "dinc" sözü ilə əvəz edilsin;

4.2. 1.13-cü bəndə "sisteminin" sözündən sonra "(bundan sonra – MEİS)" sözləri, "altsisteminə" sözündən sonra "(bundan sonra – altsistem)" sözləri əlavə edilsin;

4.3. aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

"2.3-1. Çağırışaqədər yaş həddində olan vətəndaşlar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində ilkin hərbi qeydiyyata alınarkən onların tibbi şəhadətləndirilməsi məqsədilə tibbi müayinəyə, habelə hərbi xidmət müddətində daha məqsədəuyğun istifadə edilməsini müəyyənləşdirmək üçün psixoloji müayinəyə cəlb olunurlar.

Müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan vətəndaşlar çağırışa 2 ay qalmış müddətdə mütləq tibbi müayinədən keçirilirlər.

2.3-2. MEİS-də əlilliyi müəyyən olunmuş ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların və çağırışçıların tibbi müayinəsi ilə bağlı müvafiq qərar onların əyani tibbi müayinəsi aparılmadan həmin elektron informasiya sistemində mövcud olan məlumatlar əsasında qəbul edilir. İlkin hərbi qeydiyyata alınmalı olan əlilliyi müəyyən edilmiş vətəndaşlar və çağırışçılar barəsində qərarların düzgünlüyünü şübhə altına alan əsaslı sübutlar təqdim edildiyi hallarda həmin şəxslər əyani müayinəyə cəlb edildikdən sonra şəhadətləndirilirlər.";

4.4. 2.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.7. Tibbi müayinəyə cəlb olunan çağırışaqədər yaş həddində olanların qanuni nümayəndələri (valideynləri, övladlığa götürənlər və ya himayəçi) və çağırışçılar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən onların hansı müddətdə tibbi müayinədən keçməsi və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə gəlməli olması barədə çağırış vərəqəsi vasitəsilə məlumatlandırılırlar. Çağırışaqədər yaş həddində olan vətəndaşlar və çağırışçılar çağırış vərəqəsində qeyd olunan müddətdə müvafiq tibb müəssisəsinə gəlməlidirlər. Çağırış vərəqəsi elektron formada vətəndaşın elektron kabinetinə yerləşdirildiyi və bu barədə SMS məlumat çatdırıldığı və ya şəxs digər vasitələrlə məlumatlandırıldığı andan etibarən tibbi müayinəyə cəlb olunan çağırışaqədər yaş həddində olanların qanuni nümayəndələri və çağırışçılar məlumatlandırılmış hesab olunurlar.";

4.5. 2.9-cu bəndə "nümayəndəsinə" sözündən sonra "(valideynlərinə, övladlığa götürənlərə və ya himayəçiyə)" sözləri əlavə edilsin;

4.6. 2.10-cu bəndin üçüncü cümləsindən "onların elektron kabinetləri vasitəsilə" sözləri çıxarılsın;

4.7. 2.13-cü bəndin üçüncü abzasına "nümayəndələrinin" sözündən sonra "(valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin)" sözləri əlavə edilsin və həmin abzasdan "onların elektron kabinetləri vasitəsilə" sözləri çıxarılsın;

4.8. 2.14-cü bəndin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"2.14. Çağırışaqədər yaş həddində olanlar və çağırışçılar bu Əsasnamənin 2.10-cu bəndində qeyd olunan tibbi müayinə nəticələrinə əsasən ilkin hərbi qeydiyyata alma komissiyalarının, rayon, şəhər, şəhərdə rayon çağırış komissiyalarının və Mərkəzi Çağırış Komissiyasının qərarı ilə diaqnozun dəqiqləşdirilməsi məqsədilə tibb müəssisələrinə əlavə ambulator və ya stasionar tibbi müayinələrin keçirilməsinə, hərbi xidmətə müvəqqəti yararsız hesab edildiyinə görə isə dövlət büdcəsinin vəsaiti hesabına ("Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq xidmətlər zərfində nəzərdə tutulduğu halda isə icbari tibbi sığorta vəsaitləri hesabına) tibb müəssisələrində mütləq qaydada müalicəyə göndərilirlər.";

4.9. 2.17-ci bəndin ikinci abzasına "edilir" sözündən sonra "və yekun tibbi müayinənin aparılması məqsədilə zəruri məlumatlarla birlikdə altsistemə ötürülür" sözləri əlavə edilsin;

4.10. 2.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.20. Çağırışçı barəsində rayon, şəhər, şəhərdə rayon çağırış komissiyasının qəbul etdiyi qərar Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 3 gün ərzində onun elektron kabinetinə yerləşdirilir, bu mümkün olmadıqda isə digər vasitələrlə göndərilir.";

4.11. 2.21-ci bəndin ikinci abzasının üçüncü cümləsindən "onun elektron kabineti vasitəsilə" sözləri çıxarılsın;

4.12. aşağıdakı məzmunda 2.21-1-ci bənd əlavə edilsin:

"2.21-1. Sağlamlıq vəziyyətinə görə 1 il müddətinədək möhlət verilmiş çağırışçılar möhlət müddəti bitdikdən sonra dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar isə 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçirilirlər.";

4.13. 2.26-cı bənddən "elektron kabineti vasitəsilə" sözləri çıxarılsın;

4.14. 2-1.1-ci bəndin birinci abzasında "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (bundan sonra – MEİS)" sözləri "MEİS" akronimi ilə əvəz edilsin;

4.15. 2-1.2-ci və 2-1.17-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2-1.2. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların yekun tibbi müayinəsinin aparılması üçün tibbi müayinənin nəticələrinə dair sənədləri onların rəsmiləşdirildiyi gün altsistemə daxil edir. Agentlik çağırışçının yekun tibbi müayinəsini altsistemə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ötürülmüş tibbi müayinə nəticələri və çağırışçıların əyani tibbi müayinəsi əsasında həyata keçirir.";

"2-1.17. Agentlik tərəfindən bu Əsasnamənin 2-1.16-cı bəndinə əsasən qəbul edilən, MEİS-də elektron sənəd formasında formalaşdırılan və Tibbi qiymətləndirmə komissiyasının sədri və üzvləri tərəfindən onların elektron imzası ilə təsdiq olunan müvafiq qərar və yekun tibbi müayinəyə dair digər sənədlər üzrə məlumatlar rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən çağırışçının şəhadətləndirilməsi üzrə qərarın qəbul edilməsi üçün onların rəsmiləşdirildiyi gün altsistemə daxil edilir.";

4.16. 3.3-cü bənddə və 5.1-ci bəndin üçüncü abzasında "2.6-cı" sözləri "2.15-ci" sözləri ilə əvəz edilsin;

4.17. 3.3-cü bəndin üçüncü abzasında, 5.1-ci bəndin beşinci və altıncı abzaslarında, 6.2-ci bəndin ikinci abzasında, 7.2-ci bəndin a) abzasında və 8.3-cü bəndin dördüncü abzasında "sülh dövründə" sözləri "dinc dövrdə" sözləri ilə əvəz edilsin;

4.18. 5.3-cü bəndin ikinci abzasında və 5.4-cü bəndin birinci abzasında "Sülh dövründə" sözləri "Dinc dövrdə" sözləri ilə əvəz edilsin;

4.19. 6.2-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"6.2. Dinc dövr üçün hərbi xidmətə yararsız, müharibə dövrü üçün məhdud yararlı hesab edilərək ehtiyata keçirilən vətəndaşlar 30 yaşına çatana qədər hər 3 ildən bir təkrar tibbi müayinədən keçirilirlər.".

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 79 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 5, maddə 451 (Cild I); 2024, № 1, maddə 124) ilə təsdiq edilmiş "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.8-ci və 6.21-ci bəndlərə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

5.2. 6.9.6-cı yarımbənddə "vəsiqənin" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 29 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə – "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 6.7.1.12-1-ci yarımbəndinə "çağırılan" sözündən sonra ", habelə müddətli həqiqi hərbi xidmətə və səfərbərlik üzrə hərbi xidmətə çağırışdan boyun qaçıran" sözləri əlavə edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 939 (Cild I) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatının aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Çağırışçıların və hərbi vəzifəlilərin (bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) hərbi vəzifələrinin icrası ilə bağlı elektron xidmətlər Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra – SHXÇDX) vahid elektron informasiya sistemi vasitəsilə həyata keçirilir. Çağırışçılar və hərbi vəzifəlilər tərəfindən (bu Qaydanın 1.7-ci bəndində nəzərdə tutulmuş hərbi vəzifəlilər istisna olmaqla) hərbi vəzifələrinin icrası ilə əlaqədar elektron kabinet yaradılır.";

7.2. 1.4-cü bənddə "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (bundan sonra – SHXÇDX)" sözləri "SHXÇDX-nin" sözləri ilə əvəz edilsin;

7.3. 2.3-cü bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Elektron kabinet vasitəsilə verilən məlumat çağırışçıların və hərbi vəzifəlilərin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində SHXÇDX-nin vahid elektron informasiya sisteminə göndərilir.";

7.4. 3.2 - 3.5-ci bəndələrə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

7.5. 4.1-ci bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri əlavə edilsin;

7.6. 4.2-ci bənddə "Çağırışçılar və hərbi vəzifəlilər ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəni və ya" sözləri "Hərbi vəzifəlilər" sözləri ilə əvəz edilsin və həmin bəndə "bölmələrinə" sözündən sonra "elektron kabinet vasitəsilə, bu mümkün olmadıqda isə digər vasitələrlə" sözləri əlavə edilsin;

7.7. 4.3-cü bənddən "şəxsi" sözü və "ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqəsi və ya" sözləri çıxarılsın.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 8 may tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 565 (Cild I) ilə təsdiq edilmiş "Çağırışçıların və hərbi vəzifəlilərin hərbi uçotunun aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

8.1. 2.1.1-ci yarımbənddə "vəsiqə" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin;

8.2. 3.1.1-ci yarımbəndin birinci cümləsində "vəsiqələrdə" sözü "Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlarla" sözləri ilə əvəz edilsin;

8.3. 3.1.2-3.1.5-ci yarımbəndlərə "müddətində" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

8.4. 3.1.7-ci yarımbənddə "sentyabrın" sözü "oktyabrın" sözü ilə əvəz edilsin və həmin yarımbəndə "bölmələrinə" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin;

8.5. 3.1.10-cu və 3.1.11-ci yarımbəndlərə "bölməsinə" sözündən sonra "elektron formada, elektron formada mümkün olmadıqda digər vasitələrlə" sözləri əlavə edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 292 (Cild I); 2024, № 5 (II kitab), maddə 611; 2025, № 5, maddə 495) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"nın 2.1.4-cü yarımbəndində "çağırışçı şəhadətnaməsini" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatları" sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 15 mart tarixli 102 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 536 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 611; 2025, № 9, maddə 861) ilə təsdiq edilmiş "Peşə təhsili müəssisələrinə qəbul Qaydası"nın 5.1.5-ci yarımbəndində "çağırışçı şəhadətnaməsi" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 16 aprel tarixli 173 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 766 (Cild I); 2024, № 3, maddə 352, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Peşə təhsili pilləsinin bir səviyyəsindən növbəti səviyyəsinə keçid Qaydası"nın 4.6.5-ci yarımbəndində "çağırışçı şəhadətnaməsi" sözləri "ilkin hərbi qeydiyyata alınma haqqında Elektron Hökumət İnformasiya Sistemindən əldə edilmiş məlumatlar" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bölgədə sülh və ədalətli nizam quruculuğu



*(əvvəli 1-ci səhifədə)*

ATƏT-in Xarici İşlər Nazirləri Şurasının 32-ci iclası ötən gün öz işinə başlayıb. Tədbirə təşkilatın 57 iştirakçı dövləti, həmçinin əməkdaşlıq üzrə 11 tərəfdaş ölkənin xarici işlər nazirləri qatılıb. Belə geniş formatlı toplantı region diplomatiyasında əsas istiqamətlərin müəyyənləşdiyi platformaya çevrildiyindən, iclas çərçivəsində Azərbaycan və Türkiyənin XİN başçıları Ceyhun Bayramov və Hakan Fidan arasında reallaşan görüş xüsusilə ön plana çıxır. Məhz bu çərçivədəki təmas iki ölkənin strateji əməkdaşlığının davamlılığını nümayiş etdirməklə yanaşı, Cənubi Qafqazda qarşıdakı aylarda formalaşa biləcək siyasi proseslərin konturlarını da müəyyənləşdirir. Nəzərə alaq ki, nazirlərin müzakirə etdikləri mövzular həm Azərbaycan–Türkiyə münasibətlərinin hazırkı mərhələsini daha aydın göstərir, həm də regional siyasətdə Bakı və Ankaranın paralel mövqelərinin hansı istiqamətdə inkişaf etdiyini ortaya qoyur.

Görüşün fonunu daha dolğun anlamaq üçün paralel proseslərə də diqqət yetirmək lazımdır. Belə ki, xüsusilə bu ilin ikinci rübündən etibarən Cənubi Qafqazda həm siyasi, həm də infrastruktur səviyyəsində yeni mərhələyə keçidi göstərən dinamiklik müşahidə olunur. Avqust ayında Vaşinqtonda sülh sazişi üzrə razılaşdırılmış mətnin praktiki həyata keçirilməsi istiqamətində tərəflər sərhəd komissiyalarının işini aktivləşdirib. Son olaraq noyabrın 28-də Qəbələdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə iki ölkə arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 12-ci görüşü keçirildi. Görüş paraflama mərhələsindən sonrakı dövrdə reallaşdığı üçün ümumi tonun daha konstruktiv və müsbət olması ilə yadda qaldı. Bu baxımdan növbəti toplantılar, heç şübhəsiz, bölgədəki qeyri-müəyyənliklərin azalmasına xidmət edən amillərdən birinə çevriləcək. Eləcə də TRIPP marşrutu üzrə əldə olunmuş anlaşma nəqliyyat infrastrukturunda tamamilə yeni xəritə formalaşdırmağa başlayıb.

Mövcud fonda Ankara İrəvan üçün həlledici aktor kimi çıxış edir. Çünki sülh prosesindən sonrakı mərhələdə Ermənistanın gələcək siyasi və iqtisadi trayektoriyası dolayısı ilə Türkiyənin atacağı addımlardan asılı olacaq. Həftənin əvvəlində Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas Brüsseldə Ermənistan xarici işlər naziri Ararat Mirzoyanla birgə keçirilən brifinqdə Avropa İttifaqının sülh və dayanıqlıq təşəbbüsləri çərçivəsində Ermənistana 15 milyon dollar ayırdığını açıqladı. Elə həmin gün qurumun genişlənmə siyasəti üzrə komissarı Marta Kos da bildirdi ki, Avropa İttifaqı Ermənistanın enerji təhlükəsizliyini və diversifikasiyasını gücləndirmək məqsədilə 500 milyon avroluq investisiya ayıracaq. İrəvana vəd edilən bu maliyyə paketləri ilk baxışdan ölkənin inkişafına ciddi stimul kimi görünür. Lakin Ermənistanın yerləşdiyi geosiyasi mühit Aİ–Ermənistan əməkdaşlığının dərinləşməsi üçün həm siyasi, həm təhlükəsizlik, həm də tranzit baxımından ciddi risklər yaradır. Bundan başqa, avrozonada Ermənistanla münasibətlərin genişləndirilməsini tam dəstəkləməyən ölkələrin mövcudluğu da bu prosesin kompleksliyini daha da artırır.

Bu siyahıda ilk olaraq Macarıstanın adını çəkmək olar. Budapeşt bir neçə dəfə Aİ-nin Ermənistana maliyyə yardımının ayrılmasını bloklamaq üçün veto tətbiq edib və bu vəsaitin yalnız eyni mexanizmdən Azərbaycana da müvafiq həcmdə dəstək ayrıldığı halda açılacağını bəyan edib. Macarıstan rəsmiləri bildiriblər ki, təkcə Ermənistanı silahlandıran, Azərbaycanı isə kənarda qoyan hər hansı paket regiondakı sabitliyi poza bilər və bu arqument praqmatik yanaşma kimi qiymətləndirilir. Bundan başqa, bir sıra alman siyasətçiləri də Ermənistan naminə Azərbaycanın strateji əhəmiyyətini zəiflədə biləcək balans dəyişikliklərinin məqsədəuyğun olmadığını vurğulayıblar. Bütün bu faktlar göstərir ki, avrozonada İrəvana münasibət heç də birmənalı deyil. Bu isə gələcəkdə Aİ-nin Ermənistanla əməkdaşlıq strategiyasını, o cümlədən mümkün üzvlük perspektivlərini və maliyyə dəstək paketlərini yenidən nəzərdən keçirməsinə səbəb ola bilər.

Bütün bu qeyri-müəyyənlik fonunda aydın görünən bir həqiqət var. Ermənistan üçün ən etibarlı və real inkişaf tərəfdaşları elə Azərbaycan və Türkiyədir. Çünki İrəvanın iqtisadi dirçəlişi, regional nəqliyyat şəbəkələrinə qoşulması, enerji təhlükəsizliyinin təminatı və sabit siyasi mühit əldə etməsi yalnız regiondaxili rasional əməkdaşlıq modeli ilə mümkündür. Aİ və digər aktorlar müxtəlif siyasi şərtlər, balans hesablamaları və geosiyasi risklər üzərindən hərəkət etdiyi halda, Bakı və Ankara bölgənin real təhlükəsizlik arxitekturasını müəyyənləşdirən iki əsas qüvvədir və onların konstruktiv mövqeyi Ermənistan üçün ən qısa və etibarlı inkişaf yolunu açır. Gələcək dövrdə sülh sazişinin icrası, TRIPP xəttinin tam aktivləşməsi və sərhədlərin mərhələli açılması göstərəcək ki, Ermənistanın rifahı məhz regionda stabilliyi təmin edən bu iki aktordan asılıdır və onların yaratdığı əməkdaşlıq mexanizmləri İrəvan üçün ən dayanıqlı perspektivi təqdim edir.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Tural İSMAYILOV,**
**politoloq**

Azərbaycan–Türkiyə koordinasiyasının regiondakı yeni siyasi nizamlanmanın aparıcı mexanizminə çevrilməsi prosesi bir neçə paralel dinamikanın qarşılıqlı təsiri ilə formalaşır. ATƏT-in 32-ci Nazirlər Şurası çərçivəsində Ceyhun Bayramov və Hakan Fidan arasında keçirilmiş görüş bu baxımdan mühüm əlamətdir. Görüşdə tərəflərin koordinasiyalı mövqeyi yalnız sülh prosesinə deyil, həm də tranzit və nəqliyyat xətlərinin yenidən qurulmasına, həmçinin regional aktorların rolu və davranış strategiyalarına təsir göstərir.

Paraflama mərhələsindən sonrakı konstruktiv delimitasiya görüşləri və TRIPP marşrutunun aktivləşməsi bölgədə qeyri-müəyyənlikləri azaltmaqla yanaşı, konkret iqtisadi və logistika həlləri də təqdim edir. TRIPP marşrutu, xüsusən Azərbaycan–Türkiyə koordinasiyasını regional nəqliyyat və ticarət xəritəsinin mərkəzi elementi kimi möhkəmləndirir.

İran–Rusiya faktorunda isə dəyişikliklər ola bilir. Tehran və Moskvanın davranışının dəyişməsi Azərbaycan–Türkiyə koordinasiyasının daha proaktiv və sərbəst hərəkət etməsinə imkan yaradır və iki ölkə həmrəyliyinin gücü də ortadadır. Bu isə diplomatik manevr sahəsini genişləndirir, prosesin sürətlənməsinə və sülh gündəliyinin konkret nəticələrə çevrilməsinə şərait yaradır.

Nəticə olaraq, Azərbaycan–Türkiyə tandeminin aparıcı mexanizmə çevrilməsində əsas olan qardaşlıq və onun nəticələrinin konkret iqtisadi-logistika layihələrinə – xüsusən TRIPP marşrutuna – bağlanmasıdır. İran və Rusiya faktorunda yaranan dəyişikliklər prosesin sürətini və riskləri tənzimləyir, lakin koordinasiyanın strateji rolunu müəyyən edən əsas səbəb Azərbaycanın diplomatik təşəbbüsü və Ankara ilə sistemli koordinasiyasıdır. Bu tandem həm regional liderliyin, həm də uzunmüddətli stabilliyin təmin olunmasında həlledici aktor kimi özünü göstərir.

Əlavə olaraq, prosesin davamlılığı üçün Bakı–Ankara koordinasiyası həm hüquqi, həm də icra mexanizmlərinə söykənmir, qardaşlıq ən üst səviyyədədir. Bu, regional siyasi nizamlanmanın möhkəmliyini təmin edən və tərəflərin qarşılıqlı öhdəliklərini real nəticələrlə təsdiqləyən mexanizmdir.

# Ortaqlıq ittifaqından korrupsiya yuvasına

*(əvvəli 1-ci səhifədə)*

### Diplomatik elitanın ifşası

Üç gün əvvəl Federika Mogerini və Stefano Sannino ətrafında başlayan istintaq, Avropa diplomatiyasının nüfuzlu fiqurlarının korrupsiya, maliyyə pozuntuları və tender saxtakarlıqları ilə ittiham olunmaları Aİ-nin reputasiyasını yenidən dərin böhranla üz-üzə qoydu. Xüsusilə Mogerininin polis müşayiəti ilə saxlanılıb, daha sonra "qaçış riski olmadığı üçün" məhkəməyə təqdim olunaraq azadlığa buraxılması Avropanın illərlə yaratdığı "şəffaflıq" mifini alt-üst etdi. Bu baxımdan, onun istər həbsi, istərsə də sərbəst buraxılması cəmiyyətdə suallar yaratdı ki, nüfuzlu şəxslər üçün qanun doğrudanmı eyni şəkildə işləyir?

Mogerininin "korrupsiya səhnəsindən" endirilməsi kontinentin diplomatiyasının arxasında hakimiyyətin də dayandığını göstərdi. Bu məqamlardan biri də Jozep Borel amilidir. Yada salaq ki, Borelin siyasi yüksəlişi məhz Mogerini Avropa Xarici Fəaliyyət Xidmətinin siması olduğu müddətdə baş vermişdi. Mogerini ilə bağlı bu qədər korrupsiya faktının üzə çıxdığını nəzərə alsaq, Borelin bu mexanizmlərlə əlaqəsi də suallar yaradır. Yəni onun proseslərdən xəbərsiz olması o qədər də inandırıcı gəlmir. Avropa mediasında yayımlanan xəbərləri təhlil etsək, kontinentin də bunu gizlətmək istəmədiyi aydın görünür. Sözsüz ki, Mogerini təkbaşına bu qədər güc sahibi ola bilməzdi. Ehtimal ki, onun yaxın çevrəsində baş verənlərin böyük qismindən diplomatik aparatın ən yüksək pillələri xəbərdardır. Mogerininin saxlanıldığı gün Sanninonun da istintaqa cəlb edilməsi bunu bir daha təsdiqləyir.





### Metsola dövrü və dəyişməyən reallıq

Avropa İttifaqının son onillikdə yaşadığı ən böyük sarsıntılardan biri, şübhəsiz, "QətərGate" idi. Avropa Parlamentinin sabiq sədr müavini Eva Kaylinin evindən tapılan çamadan-çamadan nağd pullar qurumun təsir agenturası ilə üzləşdiyini ortaya qoydu. Kaylinin Avropa siyasətində "gənc lider", "modern sima" kimi təqdim edildiyi təqdirdə, Qətər lobbisinin maliyyələşdirdiyi kölgəli strukturların mərkəzində dayanması "qoca qitə"nin etik iddialarını növbəti dəfə məhv etdi. Hadisə Qərbin illərlə dünyaya təbliğ etdiyi "şəffaf idarəetmə modelinin" yalnız boş sözlərdən ibarət olduğunu göstərdi.

Parlamentin hazırkı sədri Roberta Metsola Kayli qalmaqalından sonra siyasi təmizlənmə vəd etsə də, onun özünün bəzi səyahətləri və lobbi dairələri ilə əlaqələrinin qeyri-şəffaflığı Brüsselin daxilindəki çirkli mexanizmlərin, sadəcə, yer dəyişdirdiyinin təzahürü idi. Metsola birbaşa ittiham olunmasa da, onun fəaliyyətindəki gizli nüanslar Aİ institutlarında "etimad böhranını" daha da dərinləşdirdi. Sannino hadisəsi də təsdiqlədi ki, Avropanın diplomatik aparatında korrupsiya adi hala çevrilib. Tenderlərin yönləndirilməsi, yüksək maaşlı vəzifələrin şəxsi münasibətlər əsasında paylanması, Aİ maliyyəsinin qaranlıq kanallarla idarə edilməsi artıq sistemli xarakter alıb. Bu hal uzun illər boyu üçüncü ölkələri korrupsiyada ittiham edən Avropanın özünün eyni bataqlığın içində olduğunu ifşa etdi.

### Pərdəarxası güc mərkəzləri

Onu da bildirək ki, Avropa Komissiyasının qapalı görüşləri, qeyri-rəsmi əlaqələri, lobbi qrupları ilə sıx inteqrasiya olunmuş qərarvermə mexanizmləri illərdir tənqid olunur. Lehinə qərar verilən şirkətlər, qeyri-şəffaf iqtisadi paketlər və ayrı-ayrı komissarların şəxsi əlaqələri ilə üst-üstə düşən proseslər Brüsseli qlobal lobbi mərkəzinə çevirib. Əslində, Avropa İttifaqının niyə bu həddə çürüdüyünü anlamaq üçün onun strukturuna baxmaq kifayətdir. Seçilməyən komissiya, zəif parlament nəzarəti və bürokratik sistemin qeyri-məsuliyyətli strukturu korrupsiyanın təməlini qoyur. Şəxsi münasibət şəbəkələrinin lobbiçilərin geniş imkanları ilə birlikdə yaratdığı bu mühit istər Mogerini, istər Kayli, istərsə də digər fiqurlar üçün ideal şərait formalaşdırıb.

Bütün bunların fonunda Avropanın özünü dünyaya "etik güc" kimi təqdim etməsi artıq siyasi ironiya təsiri bağışlayır. Mogerininin həbsi, istintaqla üzləşməsi və sonra sərbəst buraxılması, Kaylinin rüşvət qalmaqalı, Metsolanın üzərində dolaşan kölgələr, Borelin fəaliyyəti ətrafında yaranmış suallar Aİ-nin öz daxilində korrupsiya girdabında boğulduğunu göstərən reallıqlardır.

Bu gün Avropa İttifaqı nə Komissiyanın daxili strukturu, nə parlamentin siyasi iradəsi, nə də diplomatik aparatın durumu ilə özünü təsdiqləyə bilir. Hətta Brüssel institutlarının daxilindəki çürümə elə bir həddə çatıb ki, artıq Aİ haqqında danışarkən qeyri-leqal əlaqələr, korrupsiya şəbəkələri, vəzifə ticarəti kimi anlayışlar ön plana çıxır. Ona görə də sonda deyə bilərik ki, Federika Mogerininin işi Avropanın özünə güzgü tutdu. Güzgüdə görünən mənzərə isə hamının qorxduğu həqiqəti göstərdi.

Avropa İttifaqı illərdir dünyaya dərs keçən qurumun əksinə, korrupsiya girdabında çırpınan, özünü içdən yeyən, dəyərlərini itirmiş bürokratik mexanizmdən başqa bir şey deyil. Mogerininin həbsi ilə başlayan və azadlığa buraxılması ilə daha da qaranlıqlaşan proses sübut etdi ki, Avropa İttifaqında korrupsiya elə bütöv bir sistemin xəstəliyinə çevrilib. Bir zamanlar "dəyərlər" ittifaqı adlanan qurum artıq korrupsiyanı birləşdirən birlikdir.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilərin qanlı əməlləri ədalət tərəzisində

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 4-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclası təqsirləndirilən şəxslərin müdafiəçilərinin çıxışları ilə davam etdirilib.

Təqsirləndirilən Davit İşxanyanın müdafiəçisi Aqşin Məmmədli çıxışında deyib ki, məhkəmənin vəzifəsi yalnız ittiham aktında göstərilən məsələləri yoxlamaq deyil, həm də ədalət prinsipini, qanunların aliliyini və təqsirsizlik prezumpsiyasını təmin etməkdir. Mövcud qanunvericiliyin, eyni zamanda, Cinayət Məcəlləsinin tələbinə əsasən hökm yalnız şübhəsiz və qəti sübutlar əsasında çıxarılmalıdır. O, D.İşxanyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. D.İşxanyanın digər vəkili Elçin Əmirov da müdafiəçisi olduğu şəxs barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Balayanın müdafiəçisi Vəfa Mehdiyeva çıxışında vəkili olduğu şəxsin ifadəsinə istinadla deyib ki, o, 1995-1998-ci illərdə Şuşada, Xankəndidə və Xocalıda yerləşən nömrələrini xatırlamadığı hərbi hissələrdə əsgər kimi xidmət edib. Bu müddətdə ona "AKS 74" konstruksiyalı avtomat silah təhkim olunub. Vəkil hüquqlarını qoruduğu şəxsin əməllərində cinayət tərkibinin əlamətlərinin olmadığını deyib və barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. L.Balayanın digər vəkili Saqi Məmmədov da hüquqlarını müdafiə etdiyi şəxslə bağlı bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Davit Allahverdiyanın müdafiəçisi Nizami Əliyev deyib ki, hüquqlarını qoruduğu şəxs özünü elan olunan ittihamlarda təqsirli bilmir. O bildirib ki, D.Allahverdiyana qarşı irəli sürülmüş sübutlar əsassızdır və mötəbər deyil. Müdafiəçi D.Allahverdiyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib. Onun digər vəkili Elməddin Məmmədov da özündən əvvəl çıxış etmiş müdafiəçinin çıxışında göstərilən xüsusatlarla razılaşdığını deyib.

Təqsirləndirilən Erik Qazaryanın müdafiəçisi Natiq Mustafayev çıxışında hüquqlarını qoruduğu şəxsin özünü təqsirli bilmədiyini, silahını təhvil verərək Azərbaycan Silahlı Qüvvələrinin hərbçilərinə könüllü təslim olduğunu bildirib. O, E.Qazaryan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Melikset Paşayanın müdafiəçisi Elnaz Səmədova hüquqlarını qoruduğu şəxsin heç bir aktiv döyüşdə iştirak etmədiyini söyləyib. Vəkil deyib ki, M.Paşayana elan edilmiş ittihamlar öz təsdiqini tapmır, bu səbəbdən də ona bəraət verilməlidir. O, M.Paşayan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən Levon Mnatsakanyanın müdafiəçiləri Oqtay Mədətov və Xəyyam Əsgərov hüquqlarını qoruduqları şəxsin özünü təqsirli bilmədiyini deyərək, onun barəsində ədalətli hökm çıxarılmasını məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisi Nigar Mirbabayeva deyib ki, hüquqlarını qoruduğu şəxs arxa cəbhədə xidmət edib, mülki şəxs kimi çalışıb və onun vəzifələrinə ərzaq və geyimin paylanması, dərmanların təminatının təşkili daxil olub. Onun sözlərinə görə, təqsirləndirildiyi cinayətlərin törədilməsinə aidiyyəti olmaması sübut edildiyindən bəraət hökmünün çıxarılması yeganə ədalətli və hüquqa uyğun qərar olardı. B.Sahakyanın digər vəkili Gülarə İsmayılova müdafiə etdiyi şəxsə bəraət verilməsini məhkəmədən xahiş edib.

Təqsirləndirilən Qarik Martirosyanın müdafiəçisi Rəşadət Axundov deyib ki, hüquqlarını qoruduğu şəxs ifadəsində özünü təqsirli bilməyib. Vəkil bildirib ki, Q.Martirosyanı cinayətkar birliklə bağlayan dəlillər müəyyən edilməyib. Müdafiəçi onun barəsində ədalətli



hökm çıxarmağı məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyanın müdafiəçisi Cavid Rzazadə çıxışında hüquqlarını qoruduğu şəxsə qarşı irəli sürülmüş ittihamlarla razılaşmayıb. Digər vəkil Anar Məmmədov çıxışında deyib ki, müdafiə etdiyi şəxsə qarşı elan olunan ittihamlar sübut olunmayıb. O, A.Harutyunyanın əməlində cinayət tərkibi olmadığını deyərək bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Məhkəmə prosesi dekabrın 11-də davam etdiriləcək.

***XQ***

# “Qarabağ sənədləri” və “günah keçisi”

## Erməni iqtidarı öz gələcəyi üçün keçmişə baxırsa...

**Məlum olduğu kimi, Ermənistan hökuməti “Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesi sənədləri” deyilən toplunu dərc edib. Həmin sənədlərin məhz indiki məqamda geniş ictimaiyyətə açıqlanmasının səbəbi bəllidir. Baş nazir Nikol Paşinyan administrasiyası 2026-cı ilin parlament seçkilərinə hazırlığa start verib. Yazımızda bununla bağlı əlaqəni tapmağa, məntiqi qanunauyğunluğu müəyyənləşdirməyə çalışacağıq.**

Nikol və tərəfdarları Qarabağ kartı üzərinə oyun qururlar. Daha dəqiq desək, onlar mövzunun erməni ictimaiyyəti üçün həssaslığını anlayır və çalışırlar ki, cəmiyyətdə bölgənin Azərbaycana təslim edilməsinə dair ritorikanı sıradan çıxarsınlar. Axı sözügedən ritorika hay müxalifətinin iqtidara qarşı ən böyük anti-təbliğat vasitəsidir.

Bəli, sənədlər də göstərir ki, Ermənistan Qarabağı 2020-ci ilin 44 günlük müharibəsinədək diplomatik müstəvidə əldən vermişdi. 2016-cı ilin Aprel müharibəsindən sonra o zamankı Serj Sarkisyan rejimi durumu daha yaxşı anladı. Yəni anladı ki, diplomatik platformalarda Qarabağa sahiblənməyi bacaran Azərbaycanın məsələnin hərbi yolla həlli üçün kifayət qədər, böyük potensialı var. Ona görə də Sarkisyan Rusiya Prezidenti Vladimir Putinə Aprel müharibəsindən sonrakı məktubunda, az qala, yalvarır.

Qeyd edək ki, Ermənistanın eks-prezidenti S.Sarkisyanın yalvarışı bir neçə məqamı ortaya qoyur. Birincisi, aydın olur ki, onun başçılıq etdiyi xunta rejimi üçün Qarabağ kartı yalnız vasitə olub. Yəni hakimiyyətdə qalmaq vasitəsi. Sarkisyan bölgəyə dair erməni milli identikliyi xüsusundakı uydurulmuş mifologiyaya inanmayıb. Amma dəqiq bilib ki, bu mifologiya erməni cəmiyyətinin şüurunda kök salmış xəstəlikdir və Qarabağı əldən verən hakimiyyətin yaşama haqqı yoxdur. Bu səbəbdən onun Putinə yalvarışı daha çox hakimiyyəti əldə saxlamağa kömək dilənmək mahiyyətlidir.

İkincisi, Sarkisyanın yalvarışı bir sıra dairələrdə səslənmiş və Qarabağın guya Rusiya tərəfindən Azərbaycana güzəştə gedildiyinə dair fikirlərin də yanlışlığını göstərir. Çünki Sarkisyan Rusiyadan hərbi yardım istəyirdi ki, 2016-cı il məğlubiyyətini doğurmuş boşluğu doldursun. Heç şübhəsiz, ona yardım oldu. Amma görünür, Serjik praqmatik davranıb və anlayıb ki, heç bir yardımın Ermənistana xeyri yoxdur.



Üçüncü məqamı vurğulayarkən, hadisələrin növbəti axarına diqqət yetirmək lazımdır. 2016-cı ilin aprelindən cəmi iki il bir ay keçməmiş Ermənistanda inqilab oldu. Adına “məxməri inqilab” dedilər. O inqilab ki, Paşinyanın hakimiyyətə gəlməsi ilə nəticələndi. Açığı, Ermənistanda belə dinc hakimiyyət dəyişikliyinin olması bir qədər təəccüblü qarşılandı. Axı həmin Sarkisyan idi ki, 2008-ci ildə qan tölükməsi ilə iqtidar postuna əyləşmişdi və onun asanlıqla kreslonu əldən verəcəyi ağlabatan sayıla bilməzdi. Baxmayaraq ki, 2018-ci ildə Qərb institutları da siyasi texnologiyaların tətbiqi baxımından Ermənistanda xeyli iş aparmış və kütlələri iqtidara qarşı birləşdirməyi bacarmışdılar...

Əlqərəz, indi açıqlanan Qarabağ danışıqları materiallarından belə görünür ki, əslində, Sarkisyanın Paşinyana hakimiyyət kürsüsünü güzəştə getməsinin səbəbi məhz Qarabağ amili imiş. Yəni birinci Azərbaycanla danışıqlarda bıçağın sümüyə dirəndiyini görüb və ehtimal böyükdür ki, özü yumşaq davranıb və bununla “məxməri inqilab”ın gerçəkləşməsinə qəsdən şərait yaradıb.

Maraqlı məqam yaranır. 2016-cı ildə Putinə yalvarıb Rusiyadan hərbi yardım istəyən Sarkisyan sonda yardımın heç nəyə yaramadığını gördüyündən Paşinyan tərəfdarlarına qarşı yumşaq davranaraq kreslosunu əldən verirsə, deməli, həm də Moskvanın nəzərində xəyanətkara çevrilir. Hər halda, Kreml istəməzdi ki, Ermənistana rəhbərlik kürsüsündə özünün yox, Qərbin adamı əyləşsin. Yəqin elə buna görədir ki, Sarkisyan və ümumilikdə xunta rejimi ötən müddətdə Rusiyadan bəraət ala bilmir.

Fikrimizin sübutu kimi, 2020-ci ildən sonrakı zamana nəzər salaq. Görürük ki, Moskva anti-Paşinyan dalğasında Sarkisyanı və ondan əvvəlki prezident Robert Koçaryanı yox, başqalarını dəstəkləmiş, bir vaxt indi Bakıda həbsxana həyatı yaşayan Ruben Vardanyanı ortaya atmış, sonra Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyana siyasi sərmayə yatırmışdı. Adlarını çəkdiyimiz şəxslərdən bir nəticə olmadı. İndi isə iş adamı Samvel Karapetyan gündəmdədir. Erməni kilsəsi üzərində oyun oynamaq cəhdləri də həmçinin.

Bəs, Sarkisyan o zaman nə düşünmüşdü? Hər halda, o, hakimiyyət iddiasından asanlıqla əl çəkən tip deyildi. Bu durumda dövriyyəyə belə bir ehtimal girir ki, Serjik Qarabağ kartı ilə yarıtmaz davranışı kiminsə boynuna qoymağa, bir növ, “günah keçisi” axtarmağa girişmişdi. “Keçi” Paşinyan oldu. Təkcə Sarkisyan yox, bütövlükdə xunta rejiminin təmsilçiləri düşünürdülər ki, balaca uşaq saydıqları Nikol işi əl-üzünə bulaşdıracaq və tezliklə hərəkətə keçib onu xain kimi çarmıxa çəkəcəklər. Ancaq onlar iki məqamı hesablamadılar: Birincisi, Rusiyanın Azərbaycanı dayandıra bilməməsi, ikincisi, Paşinyan iqtidarının güclü çıxması. Daha bir məqam da var idi ki, o da erməni xalqının “eks”lərə hədsiz nifrəti idi.

Bəli, “eks”lərə hədsiz nifrət amili 44 günlük müharibədə rüsvayçı məğlubiyyətlə üzləşən ölkənin liderinin 7 ay sonrakı parlament seçkilərində üstünlüyə yiyələnməsinə imkan və şərait verdi. Nikol qalib gəldi və tədricən mövqelərini gücləndirdi. Başlıca məqam isə Paşinyanın “günah keçisi”nə çevrilmək üçün hazırlandığını anlamasıdır.

Ümumən, Paşinyan iqtidarı Qarabağ amilinin Ermənistan üçün nə demək olduğunun yaxşı fərqində idi. Yada salaq ki, Sarkisyan komandasının üzvləri lap başlanğıcdan Nikol və tərəfdarlarını “torpaq təhvil verməkdə” ittiham etmək yönümlü ritorikaya baş vurdular. Halbuki, həmin vaxt ortada heç nə yox idi. Amma birincilər təfərrüatları, yəni bıçağın sümüyə dirəndiyini, ən başlıcası, Azərbaycanın gücünü bilirdilər. Bilməyən, yaxud özünü anlamazlığa qoymaq məcburiyyətində qalan isə Paşinyan oldu. Hesab edək ki, vaxtı olmamışdı...

Deməli, Sarkisyan və tərəfdarları istəyirdilər ki, ölkəmiz müharibədə üstünlük qazandıqdan sonra Ermənistanda yaşanacaq qarışıqlıq fonunda Paşinyanı devirsinlər, yenidən heç nə olmamış kimi hakimiyyətlərini sürdürsünlər, Azərbaycana qarşı nifrət ritorikasını diri saxlasınlar və Rusiyanın daha böyük qüvvə ilə Ermənistana dəstək verəcəyi anı gözləsinlər. Bu “ssenarinin” mövcudluğundan xəbər tutan Nikol isə, necə deyərlər, barıtı bol eləmək qərarına gəldi. O, hakimiyyətə gələr-gəlməz ölkəmizin rəhbərliyinə danışıqlarla bağlı müəyyən pozitiv siqnallar versə də, sonra Prezident İlham Əliyevlə görüşdə Qarabağ güzəştinin onun həyatı bahasına başa gələcəyini vurğuladı.

Paşinyan, eyni zamanda, Sarkisyanın tərəfdarlarına əsəbiləşərək, özünü onlardan daha pis erməni kimi aparmağa girişdi. Beləcə, 2019-cu ildə Xankəndidə “Qarabağ Ermənistandır, nöqtə” deyərək sərsəmlədi. Erməni hakim komandasının üzvləri isə “yeni ərazilər uğrunda yeni müharibə” şüarını irəli sürdülər. Belə boş xülyaların yekunda nəyə, hansı acınacaqlı duruma gətirdiyini isə hamı gördü. 44 günlük müharibə yalnız Ermənistana və havadarlarına deyil, bütövlükdə dünya erməniliyinə sarsıdıcı zərbə oldu.

Sonda ümumiləşdirmə apararaq belə qənaətə gələ bilərik ki, Paşinyan administrasiyasının “Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesi sənədləri”ni açıqlaması cəmiyyətin Qarabağ itkisini dərd edən kəsiminə mesajdır. Nikol və tərəfdarları düşünürlər ki, həmin kəsimin nümayəndələri reallığı görəcək və itkiyə görə onları qınamaqdan uzaq duracaqlar.

Əlbəttə, ikincilərin daha böyük reallığı görmələri və bu reallıqla barışmaları mütləqdir. Söhbət Azərbaycanla ziddiyyətlərdən kənar durmağın vacibliyini anlamaqdan gedir. Hakimiyyətlər bu gün var, sabah yoxdur. Dövlət isə qalmalıdır. Nəzərə alaq ki, rəhbərliyində kimin, hansı qüvvələrin təmsil olunmasından asılı olmayaraq, bir daha ölkəmizə qarşı ərazi iddiası ilə çıxış etməsi Ermənistan adlı dövlətin yer üzündən silinməsi deməkdir. Əslində, “Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlar prosesi sənədləri”ni açıqlayan Paşinyan iqtidarı həm də bunun mesajını verir. Qalır, erməni xalqının mesajdan nəticə çıxarması. Nəticə çıxarması və sülhü dəstəkləməsi.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Katolikosun Avropada Azərbaycan əleyhinə istinad axtarışı

**Erməni Apostol Kilsəsinin rəhbəri, bütün ermənilərin patriarxı II Qaregin dekabrın 3-də İsveçrəyə səfər edib. Oradan isə Fransaya gedəcək. Məlumata görə, katolikosun İsveçrə səfəri bir gün, Fransa səfəri isə iki gün davam edəcək. Maraqlıdır ki, II Qaregin Fransanın paytaxtında deyil, erməni diasporunun çoxluq təşkil etdiyi Marsel şəhərində olacaq. Katolikosu səfərdə Eçmiədzini təmsil edən 4 din xadimi müşayiət edir.**

Qeyd etmək lazımdır ki, II Qaregin bu il mayın sonunda da İsveçrəyə səfər etmişdi. Həmin vaxt, bir qədər də konkretləşdirsək mayın 31-də Eçmiədzin ana taxtının təşəbbüsü və bütün ermənilərin katolikosunun təklifi əsasında Ümumdünya Kilsələr Şurası və İsveçrə protestant kilsəsinin birgə təşkilatçılığı ilə Berndə “Dini etiqad azadlığı: Artsaxda erməni dini, mədəni və tarixi irsinin (?) qorunması” adlı beynəlxalq konfrans təşkil olunmuşdu. Konfransın açılışında çıxış edən II Qaregin ölkəmizin ünvanına böhtanlar yağdırmışdı. İddia etmişdi ki, “Azərbaycan Türkiyənin hərbi dəstəyi ilə nəinki “Artsax”ı tamamilə erməniləşdirib, həm də sülh prosesində yeni tələblər irəli sürməyə” (?) davam edir.

Katolikos Bakı Hərbi Məhkəməsində mühakimə olunan keçmiş qondarma separatçı rejimin “qlavarları”nı “siyasi liderlər, mülki şəxslər və hərbi əsirlər” adlandırmış, onların ədalət mühakiməsi önünə çıxarılmalarını “beynəlxalq hüququn pozulması ilə müşayiət olunan uydurma, nümayişkaranə məhkəmə prosesləri” adlandırmışdı. II Qaregin xislətinə sadiq qalaraq, baş verənləri etnik mənsubiyyət və dini motivlərlə əlaqələndirmiş, bunun “erməni xalqının dini və mədəni irsini məhv etməyə yönəlmiş antierməni siyasəti ilə motivasiya olunduğunu” iddia etmişdi. Güman etmək olar ki, onun İsveçrəyə budəfəki səfəri də oxşar böhtanlardan xali olmayacaq.

Digər tərəfdən, nəzərə almaq lazımdır ki, II Qareginin səfəri Ermənistan hakimiyyəti ilə qarşıdurmanın gərgin vaxtına təsadüf edir. Bu səfər hakimiyyətlə açıq qarşıdurma fonunda II Qareginin kilsənin beynəlxalq dairələrlə təmaslarını artırmaq cəhdi kimi görünür. Katolikosun bu səfərləri həm də xarici dəstək axtarışının elementi kimi nəzərdən keçirilə bilər. Ümumiyyətlə, kilsə rəhbərinin növbəti dəfə İsveçrəyə səfər etməsi, ardınca isə Marselə yollanması təsadüfi addım təsiri bağışlamır. Xüsusilə də səfər marşrutu diqqət çəkir: katolikos Paris kimi siyasi mərkəzi deyil, erməni diasporunun ən təşkilatlanmış, lobbi imkanlarının güclü olduğu Marseli seçir. Qeyd etdiyimiz kimi, bu, Eçmiədzinin son aylarda ölkədaxili təzyiqlər fonunda xarici dayaqlara artan ehtiyacının göstəricisidir.

II Qareginin fəaliyyəti son dövrlər, sadəcə, dini rəhbər davranışından çıxaraq siyasi ritorika ilə yüklənib. Mayın 31-də Berndə təşkil etdiyi konfransda Azərbaycanın ünvanına səsləndirdiyi iddialar, keçmiş separatçı rejimin başçılarını “siyasi lider” kimi təqdim etməsi və ölkəmizin gördüyü tədbirləri “uydurma məhkəmələr” kimi qələmə verməsi katolikosun açıq şəkildə anti-Azərbaycan kampaniyasının simasına çevrildiyini bir daha göstərmişdi. İndi isə İsveçrəyə ikinci səfər böyük ehtimalla həmin xəttin davamıdır.

Reallıq budur ki, Paşinyan hökuməti ilə Eçmiədzin arasındakı çəkişmə, sadəcə, kilsədaxili idarəetmə məsələsi deyil. Bu, Ermənistanın siyasi sistemində uzun illər formalaşmış ikili güc mərkəzlərinin toqquşmasıdır. Bir tərəfdə özünü islahatçı kimi təqdim edən hakimiyyət, digər tərəfdə isə həm ölkədəki mühafizəkar qüvvələrə, həm də xaricdəki diaspor dairələrinə söykənən kilsə rəhbərliyi dayanır.

II Qareginin ölkədən kənara tez-tez səfər etməsi, necə deyərlər, dini diplomatiyanı genişləndirməsi, beynəlxalq protestant və katolik qurumları ilə yaxınlaşmaq cəhdləri bu fonu daha da aydınlaşdırır. Kilsə rəhbərinin beynəlxalq təşkilatlar vasitəsilə siyasi gündəm yaratmağa çalışması, ələlxüsus Qarabağ məsələsini dini-mədəni irsin “təhlükədə olması” kimi təqdim etməsi həm Ermənistan daxilində dayaqlarını gücləndirmək, həm də hökumətin ona qarşı sərt xəttini neytrallaşdırmaq niyyətini əks etdirir. Marseldə diaspor strukturları ilə görüşlər də, şübhəsiz ki, bu çərçivədə qiymətləndirilməlidir.

Gözləmək olar ki, II Qaregin İsveçrə və Fransada yenə də Azərbaycanın əleyhinə eyni ittihamları səsləndirəcək. Lakin bu səfərin əsas hədəfi Azərbaycan deyil, Ermənistan hakimiyyətinin özüdür. Çünki Eçmiədzin daxili dayaqlarını itirdikcə, xaricdən gələn siyasi, ideoloji və ictimai dəstəyi daha çox önə çıxarır. Bu mənada, katolikosun hər səfəri ölkənin dini-siyasi landşaftında gedən mübarizənin növbəti epizodu kimi görünür.




Onu da bildirək ki, Qarabağdan Ermənistana getmiş vəkil Roman Yeritsyan bir neçə gün öncə iddia etmişdi ki, Paşinyan katolikosa qarşı kampaniyanı sonuncunun İsveçrədə “artsaxlıların və hərbi əsirlərin” qaytarılması məsələsini qaldırmasından sonra başlayıb. Yeritsyanın bu iddiası Paşinyan hökuməti ilə Eçmiədzin arasında gedən mübarizənin yalnız daxili deyil, həm də xarici amillərlə qidalandığını göstərir. Katolikosun İsveçrədə qaldırdığı məsələlərin hakimiyyət tərəfindən siyasi təzyiq kimi qəbul edilməsi mümkündür. Bu isə kilsə-hakimiyyət qarşıdurmasının daha da dərinləşdiyini göstərən əlavə siqnaldır.

*

Elə dünən Milli Assambleyada hökumət saatı zamanı baş nazir Nikol Paşinyan yenidən kilsə ilə münasibətlər barədə danışıb. Radikal müxalifəti təmsil edən “Hayastan” fraksiyasının deputatı Anna Qriqoryanın baş nazirin kilsəni özünə tabe etmək istədiyi ilə bağlı ittihamlarına münasibət bildirən Paşinyan deyib: “Mənə tabe olan katolikosa ehtiyacım yoxdur. Mənə xarici xüsusi xidmət orqanının baş leytenantına tabe olmayan və xarici xüsusi xidmət orqanının leytenantına gündəlik hesabat verməyən katolikos lazımdır. Mənim belə bir arzum tamamilə yoxdur”.

Baş nazir arxiyepiskop Navasard Kçoyanın balansında olan aktivlərin hesabatını təqdim edib-etməməsi ilə bağlı suala cavab olaraq bildirib ki, nə Kçoyan, nə də digər ruhanilər ona hesabat vermək məcburiyyətində deyillər. Bütün ruhanilər öz icmaları qarşısında şəffaf olmalıdırlar: “Ktriç Nersisyanın rəhbərliyi altında Erməni Apostol Kilsəsi xarabalığa çevrilib. Erməni kilsəsinə Nersisyanın mövcudluğundan daha böyük zərər verən heç nə yoxdur. Mənim onunla çoxsaylı görüşlərim olub və bu söhbətlərdən gəldiyim qənaətlər məni inandırır ki, onun müqəddəs Eçmiədzində olması kilsəyə dağıdıcı zərər vurur. Kilsələrimizdə xor yoxdur, bu da liturgiyaların həyata keçirilməməsi deməkdir”.

Paşinyan daha sonra deyib: “Siz elə bir vəziyyətlə qarşılaşmırsınız ki, dar çevrədən olan elita milyonerlərdir, lakin din xadimlərinin böyük bir qismi bu gün səfalət həddində yaşayır. Siz o reallıqla rastlaşmırsınız ki, keşişlər şəxsi tanışlıqlar əsasında “gəlirli, yağlı” vəzifələrə təyin olunur, digərlərini isə heç kimin getmədiyi ucqar bölgələrə göndərilirlər. Erməni kilsələri viranəyə çevrilir, lazımi ayinlər keçirilmir, keşişlər səfalətin astanasında yaşayır, ruhani həyat isə tamamilə yox dərəcəsindədir. Siz kompromatlar barədə danışırsınız. Ktriç Nersisyan və onun qardaşı canlı kompromatlardır. Nersisyanın qardaşı KQB agentidir, bundan böyük kompromat istəyirsiniz?”

Müxalifətə müraciət edən Ermənistan baş naziri katolikosun və onun bütün müdafiəçilərinin Erməni Apostol Kilsəsinə qarşı fəaliyyət göstərdiklərini vurğulayıb. Deyib ki, çünki onların gözündə kilsə həmişə və bu gün də sadəcə, intriqa alətidir: “Onlar kilsəni elə də saxlamaq istəyirlər. Biz buna imkan verməyəcəyik. Ktriç Nersisyan getməlidir – başqa variant yoxdur. Biz ən az ağrılı yolu seçəcəyik, amma o, mütləq getməlidir, onun başqa çıxış yolu qalmayıb və xarici xüsusi xidmət orqanlarının kiçik və baş leytenantları, kapitanları, mayorları, hətta generalları və general-polkovnikləri də onu xilas edə bilməyəcək”.

Bu arada Erməni Apostol Kilsəsinin 27 yepiskop və arxiyepiskopu birgə bəyanat yayaraq katolikosa dəstəyini bildirib. Din xadimləri bəyanatda kilsədaxili məsələləri siyasi müdaxilə yolu ilə həll etmək üçün edilən istənilən cəhdi qəbuledilməz və təhlükəli hesab etdiklərini bildiriblər. Onlar qeyd ediblər ki, kilsənin idarəçiliyi və daxili həyatı ilə bağlı bütün məsələlər, istisnasız olaraq kilsə-şura orqanları vasitəsilə kilsənin mövcud kanonik prosedurlarına uyğun olaraq həll edilməlidir.



**Politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında bildirdi ki, II Qareginin ardıcıl xarici səfərləri təkcə diplomatik gündəmin genişlənməsi deyil, həm də Ermənistan daxilində kilsə ilə hökumət arasında yaranmış ziddiyyətlərin miqyasını göstərən indikator kimi çıxış edir. Onun sözlərinə görə, Paşinyanın kilsə rəhbərliyinə qarşı sərt ritorikası artıq şəxsi narazılıq səviyyəsini aşaraq siyasi qarşıdurma komponentinə çevrilib: “Baş nazirin kilsənin idarəçiliyində korrupsiya, qeyri-şəffaflıq və xarici təsirlərlə bağlı səsləndirdiyi arqumentlər hakimiyyətin Eçmiədzini nəzarətdənkənar güc mərkəzi kimi gördüyünü təsdiqləyir”.

Ekspert qeyd etdi ki, eyni zamanda, kilsə rəhbərliyinin Paşinyanın çıxışlarına kəskin reaksiya verməsi, 27 din xadiminin katolikos ətrafında birləşməsi kilsənin geri çəkilmək niyyətində olmadığını göstərir: “Bu qarşıdurmanın maraqlı tərəfi ondadır ki, tərəflərin hər biri öz mövqeyini dövlət-mənəvi nizamın sabitliyi kontekstində əsaslandırır: hökumət kilsəni siyasi manipulyasiya mərkəzi kimi təqdim edir, kilsə isə hakimiyyəti dini strukturlara müdaxilədə günahlandırır.

Beləliklə, məsələ sırf dini müstəvidən çıxaraq Ermənistanın güc balansının yenidən formalaşması prosesinə çevrilib. Bu gərginliyin yaxın perspektivdə yumşalacağı gözlənilmir”.

***Səxavət HƏMİD***
***XQ***

# Sovetlərin Naxçıvana yubiley hədiyyəsinin tarixçəsi

## *Ulu öndərin illər öncə maraqla baxdığı həmin traktor indi haradadır?*



**Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Ulu öndərin həyatı və fəaliyyəti ilə bağlı bir çox tarixi foto sərgilənir. Hər şəkilin də öz tarixi, öz hekayəsi var. Muzeydəki bir foto isə ziyarətçilərin diqqətini daha çox cəlb edir. Burada Heydər Əliyev və ətrafındakı rəhbər heyət maraqlı nəzərləri ilə dəmir təkərli, üstüaçıq bir traktora baxırlar.**

Görəsən, ilk sovet əkin texnikası modellərindən olan bu traktor (söhbət o texnikadan gedir ki, bolşevik lideri Vladimir Lenin 100 min belə traktorla SSRİ-də kommunizm qurmaqdan danışmışdı) Naxçıvana nə zaman gətirilib? Ulu öndər ona niyə belə maraqla baxıb? İndi o traktor haradadır? Bu suallara uzun müddət cavab tapa bilmədim. Öyrənə bildiyim bu idi ki, foto Ümummilli liderin Azərbaycana rəhbərliyinin birinci dövründə Naxçıvanda – elə Heydər Əliyev Muzeyinin yerləşdiyi həmin binada, muxtar respublikanın 50 illik yubileyinə həsr olunmuş sərgidə çəkilib.

Suallarıma ipucunu, nəhayət, tapa bildim. Şərur rayonunun Yengicə kəndində yaşayan 73 yaşlı Mirmusa Seyidov bildirdi: "Babam təhsilli, dünyagörüşlü bir kişi olub. Sovet hakimiyyətinin ilk illərində Şərurun Ərəbyengicə kəndindən gedib uzaq Peterburqda ali təhsil alıb aqronom olmuşdu. Naxçıvana qayıdandan sonra o vaxtkı təsərrüfat məktəbində müəllim, sonra direktor işləmişdi. Sonra tale onunla elə bir oyun oynamışdı ki, bəy nəslindən olduğuna görə yurdundan didərgin düşmüşdü".

Müsahibimizlə söhbətimiz uzun çəkdi, babası Əmiş bəyin şəkilinin olub-olmamasını soruşduq. Dedi ki, bir fotosu var idi, indi tapa bilmirəm, axtararam.

Soruşdum ki, bəs babanızın dostu Hüseyn Azəri kim olub? Dedi: "Əmiş bəyin bacanağı olub. Əgər o olmasaydı, babamın öldü-qaldısından xəbərimiz olmayacaqdı. Əslində, onu da burada babamın qohumu kimi çox incidiblər, ancaq Hüseyn Azəri uzun müddət Türkiyədə yaşamalı olsa da, sonra min bir əziyyətlə Naxçıvana qayıda bildi, elə burada da dünyasını dəyişdi".

Qayıdaq başıbəlalı 30-cu illərə. O illər Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvanda da kolxozlaşmanın yayılması və buna qarşı çıxanların təqib edilməsi, xalqın ziyalı təbəqəsinin və xan-bəy nəslindən olanların repressiyaya məruz qalması ölkə tarixinin ən agır dövrlərindən biri olub. Bu, elə bir dövr idi ki, yeri gəldi-gəlmədi, günahın oldu, ya olmadı, ən kiçik səhv belə rejim tərəfindən bağışlanmırdı. Elə Əmiş bəy də belə haqsızlıqların birinin qurbanı olmuşdu.

…28 iyul 1930-cu il. Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasının 10-cu ildönümü əsl bayram kimi qeyd edilir. Naxçıvan şəhərinin mərkəzi meydanı proletariatın dahi rəhbərinin portretləri ilə bəzədilir, hər tərəfdə sovetləşməni təbliğ edən plakatlar asılır. Ayrı-ayrı təşkilatların əmək kollektivləri əllərində qırmızı bayraqlar tribuna önündən keçirlər. Tədbirin ən maraqlı hissəsi isə Rusiya Federasiyası maşınqayıranlarının Naxçıvan əməkçilərinə bayram hədiyyəsi kimi göndərdiyi Xarkov Traktor Zavodunun (XTZ) istehsalı olan üçtəkərli traktor olur. Bu, Naxçıvana gətirilən ilk traktor idi.

Naxçıvan Təsərrüfat Məktəbinin balansına verilən bu traktoru elə həmin məktəbin direktoru Əmiş bəy Əfəndizadə işə salaraq tribuna önündə dayanmış rəhbər işçilərin qarşısından təntənə ilə keçir. Alqış sədaları hər tərəfə yayılır. Amma bir həftə sonra məktəbin təcrübə sahəsində traktor, nədənsə işə düşmür. Tezliklə Naxçıvan Fövqəladə Komissarlığı bundan xəbər tutur və Əmiş bəyi ciddi sorğu-suala tutur. "Sovet hədiyyəsinə biganə münasibətin" nəticəsinə görə onu "xalq düşməni" kimi hədələyirlər.

Az sonra isə Fövqəladə Komissarlıq Əmiş bəyin Şərurun Dərvişlər kəndi ərazisində rəhbərliyin iradəsinə zidd olaraq pambıq əvəzinə, bugda əkini aparılması barədə araşdımalara başlayır. Əmiş bəy gündən-günə vəziyyətin xoşagəlməz olduğunu görüb Ərəbyeycəyə (el arasında belə deyilir) gəlir və qohumları ilə halallaşaraq təqiblərdən yaxa qurtarmaq üçün gecə ikən Arazı adlayıb İğdıra qaçır. Ancaq gedərkən hər ehtimala görə, həyat yoldaşı Münəvvər xanımdan boşanmağa da vaxt tapır.

Münəvvər xanım isə iki balaca qızı Zino və Tacirə ilə bu amansız həyatın çətinlikləri ilə barışmağa məcbur olur. Zino tez dünyasını dəyişir, Tacirə xanım isə Şərurun Yengicə kəndinə ərə gedir. Mirmusa Seyidov da elə Tacirə xanımın (el arasında hamı onu Tacı xala kimi çağırıb) oğludur.

Əmiş bəyin buradan getməsi bacanağı Hüseyn Fərəcova da təsir edir. Əmiş bəylə çox yaxın münasibətdə, həm də qohum olduğuna görə, dövlət qurumlarının nümayəndələri onu da sıxışdırır, sorğu-suala tuturlar. Nəticədə, o da kənddən çıxmağa məcbur qalır və gizli şəkildə Türkiyəyə keçir, soraqlaşa-soraqlaşa Əmiş bəyi gedib Ərzurumda tapır.

Ərəbyengicənin ziyalı, yaşlı sakinlərindən olan Cavad Abdullayev deyir ki, Əmiş bəy ali təhsilli, bacarıqlı aqronom olduğuna görə uzun müddət Ərzurumda kənd təsərrüfatı sahəsində çalışır. Elə Hüseyn Fərəcov da onun yanında işləyir. Amma sovetlərin təqibi burada da onları rahat buraxmır. Əmiş bəyin Ərzurumda olduğunu bildikdən sonra Çomaxtur kəndindən sovetlərin ələ aldığı bir nəfəri Əmiş bəyi aradan götürmək məqsədi ilə Ərzuruma göndərirlər. Əmiş bəy isə ayıq və dünyagörüşlü insan olduğundan məsələni tez anlayıb onu buradan uzaqlaşdırmağı bacarır. Deyilənlərə görə, gətirib sərhəd yaxınlığından yola da salır və söyləyir: "Rus qalayı türk qazanını parıldatmaz! Kimsə özünə əziyyət verib dalımca gəlməsin".

Bir müddət sonra artıq Vətənə dönə bilməyəcəyini anlayan Əmiş bəy Nemanzadə (Türkiyədə bu soyadla yaşayır) və Hüseyn Fərəcov (onu isə hər kəs Hüseyn Azəri olaraq tanıyır) taleyin qismətinə boyun əyib elə buradaca ailə həyatı qurub yaşamalı olurlar. Hətta Əmiş bəyin İmran və Pərihan adında iki qızı da olur. İmran xanımın həyat yoldaşı Ziya Alkan uzun müddət Ərzurum Universitetinin kənd təsərrüfatı fakültəsində müəllim işləyir. Hüseyn Fərəcovun isə Türkiyədə ailə həyatı qurduğu Nuriyyə xanımdan övladı olmur. Amma tale onun başqa cür üzünə gülür.




1966-cı ildə Hüseyn arvadı Nuriyyə xanımla birgə Naxçıvana qonaq gələ bilir. Qohumlarının dediyinə görə, rəsmi qurumların icazəsinə baxmayaraq, Türkiyədən Ermənistana, oradan isə Naxçıvana gələn Hüseyn Azəri yolboyu bir çox ciddi yoxlamalara məruz qalır. Nəhayət ki, Ərəbyengicədə onları həyat yoldaşı Səkinə xanım, oğlanları Adil, Rəşid, Kamil, qızları Rübabə, Şeyda və Zərri qarşılayırlar. Bütün kənd camaatı, qohum-tanışlar yenidən onların başına yığışır. Hər kəs sevinir, oturub onlarla dərdləşir.

Söhbət Əmiş bəyə gəldikdə isə Hüseyn Azəri onun bir müddət əvvəl vəfat etdiyini söyləyir. Dəfnində Ərzurumun xeyli elm və dövlət adamlarının iştirak etdiyini bildirir. Elə özü ilə gətirdiyi Əmiş bəyin qızlarının şəkillərini də çıxarıb qohumlarına verir. Bir ay qaldıqdan sonra Hüseyn Azəri Türkiyəyə geri dönməyə məcbur olur. Gedərkən özü ilə bir az kənd torpağı götürür. Deyir ki, Əmiş bəy Nemanzadənin Ərzurum–Xorasan yolunun kənarındakı qəbiristanlıqda yerləşən məzarının üstünə səpəcəyəm.

Lakin tale Hüseyn Azəriyə başqa bir "sürpriz" də hazırlamışdı. Ərzuruma qayıtdıqdan bir müddət sonra Nuriyyə xanım dünyasını dəyişir. Əmiş bəyin və həyat yoldaşının vəfatından sonra heç yerdə özünə yer tapa bilməyən və artıq yaşlaşmış Hüseyn Fərəcov yenidən Naxçıvana dönmək üçün Türkiyədəki rəsmi qurumlara, sovet səfirliyinə məktublar yazır. Və nəhayət, müsbət cavab ala bilir. Lakin Ərəbyengicəyə qayıtdıqdan qısa müddət sonra burada dünyasını dəyişir. Başdaşının üzərinə isə yazılır: "Fərəcov Hüseyn Azəri 1890-1972".

Naxçıvana gətirilən ilk traktorun "taleyi" də ürəkaçan olmur. Bir müddət təsərrüfat işlərində istifadə olunduqdan sonra traktor uzun illər Naxçıvan Elmi Bazasının yardımçı təsərrüfat sahəsində açıq havada qalır. Sonrakı illərdə isə MTS-in darvazası qarşısına qoyulur. Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyi qeyd olunanda isə həmin traktoru təmizləyib, rəngləyib muzeyə (indiki Heydər Əliyev Muzeyinin binasına) gətirirlər.

Ötən əsrin 90-cı illərinədək traktor Naxçıvan Dövlət Tarix-Diyarşünaslıq Muzeyinin əvvəllər yerləşdiyi köhnə binasının həyətində açıq havada saxlanılır. Sonra isə bu başıbəlalı traktor oradan birdəfəlik yoxa çıxır. Naxçıvanlı ziyalı, "Tarixin yaddaşı" kitabının müəllifi mərhum Feyruz Bağırovun yazdığına görə, elə həmin illərdə traktor işbazlar tərəfindən "qara metal" adı ilə İrana satılır.

Müəllif bu qara metalın sonrakı aqibəti barə bildirir: "Hazırda həmin traktor İranın Məşhəd şəhərinə gedən turistləri Gülab zavodu darvazası yanında "salamlayır". Bizə isə sovetlərin bu ilk hədiyyəsinə yalnız şəkillərdə baxmaq qalır. Ulu öndər Heydər Əliyevin də illər öncə maraqla baxdığı həmin traktordur.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Nikol Paşinyan parlament seçkilərinə hazırlaşır



**Ermənistanın Baş naziri Nikol Paşinyan parlament seçkilərinə hazırlıq çərçivəsində həm siyasi komandasında, həm də ölkədəki ictimai və təhlükəsizlik sahələrində ciddi dəyişikliklər həyata keçirir. Hazırkı deputatların böyük hissəsinin yeni siyahıya daxil edilməyəcəyi gözlənilir, parlamentdəki "Mülki müqavilə" fraksiyasının təxminən 80 faizi yenilənəcək. Yeni siyahı "Real Ermənistan" adı altında təqdim olunacaq və seçicilərə köhnələrin həll edə bilmədiyi problemlərin yeni kadrlar tərəfindən həll ediləcəyi mesajı verilir. Bu, Paşinyanın həm seçici auditoriyasına, həm də siyasi rəqiblərinə yönəlmiş açıq mesajdır.**

Paşinyan həmçinin hakim komandası üçün yeni etik kodeks tətbiq edib. Sosial şəbəkələrdə və ictimai müzakirələrdə aqressiv ritorikadan çəkinmək tövsiyə olunur. Bildirilir ki, bu addım həm siyasi mədəniyyətin yüksəldilməsinə xidmət edir, həm də seçkiqabağı imici yaxşılaşdırmaq məqsədi daşıyır. Etik standartların tətbiqi, stabil idarəetmə və qanunçuluq görüntüsü yaratmaq baxımından vacib hesab olunur. Paşinyan bu təşəbbüslə həm də komandasının davranışını nəzarət altında saxlayır, ictimaiyyət qarşısında məsuliyyətli və səmərəli idarəçilik nümunəsi göstərir.

Eyni zamanda, Paşinyan ölkədə "təsir agentləri" adlandırdığı şəbəkələrin fəaliyyətinə diqqət çəkir. Onun fikrincə, bu qruplar yalnız siyasi sahədə deyil, dini strukturlar və müxtəlif ictimai institutlarda da təsir göstərib. Onun sözlərinə görə, aparılan araşdırmalar onların yenidən təşkilatlanmaq cəhdlərini ortaya çıxarıb və hüquq-mühafizə orqanları tərəfindən qarşısı alınıb. Buna uyğun olaraq bir sıra cinayət işləri açılıb, maliyyə mənbələri və əlaqə kanalları məhkəmə mərhələsinə çatdırılıb. Paşinyan xüsusilə sovet dövründə xüsusi xidmət orqanları ilə əməkdaşlıq etmiş bəzi din xadimlərinin varislərinin neytrallaşdırıldığını vurğulayaraq, təhlükəsizlik baxımından ciddi addımlar atıldığını açıqlayıb.

Bu açıqlamalar Erməni Apostol Kilsəsindəki daxili münasibətləri və dövlət–kilsə əlaqələrini də gündəmə gətirib. Rusiya və Novo-Naxçıvan yeparxiyasının rəhbəri, arxiyepiskop Yezras Nersisyanın "KQB" agenti olmaqda ittiham edilməsi ölkədə geniş rezonans yaradıb. Hökumət tərəfdarları hesab edir ki, təsir şəbəkələrinin aşkarlanması və onların neytrallaşdırılması ölkənin suverenliyini qorumaq baxımından vacibdir. Siyasi fonu daha da gərginləşdirən digər bir məsələ isə "Müqəddəs mübarizə" hərəkatının üzvlərinə qarşı irəli sürülən ittihamlardır. Hərəkatın 18 üzvü "terror aktına hazırlıq və hakimiyyəti ələ keçirmə cəhdi" ittihamı ilə məhkəmə qarşısındadır, arxiyepiskop Baqrat Qalstanyanın həbs qətimkan tədbiri bir neçə dəfə uzadılıb. Radikal dini və siyasi qrupların neytrallaşdırılması isə daxili qeyri-sabitliyi azaldır, ölkədə ictimai təhlükəsizliyi gücləndirir və regiondakı riskləri aşağı salır. Bütün bu tədbirlər Paşinyanın daxili siyasi mövqelərini möhkəmləndirməklə yanaşı, onu qanun və nizamı qoruyan lider kimi göstərir. Həm də seçici auditoriyasına güclü və təhlükəsiz idarəçilik imici verir.

Eyni zamanda, Ermənistanda konstitusiya dəyişiklikləri və parlament seçkilərinin yeni qaydada keçirilməsi də diqqət mərkəzindədir. Qeyd edək ki, Ermənistanda konstitusiya referendumu 2026-cı il parlament seçkilərindən sonra keçirilməlidir. Qarabağla bağlı bəndi ehtiva edən Müstəqillik Bəyannaməsinə istinad çıxarıldıqdan sonra sülh müqaviləsini imzalanması gözlənilir.

Ermənistanın yeni konstitusiyasında qalib partiyanın parlamentdə çoxluq təşkil edə bilməyəcəyi təqdirdə təkrar seçki keçirilməsi barədə müddəanın təsbit olunması planlaşdırılır. Yeni layihəyə görə, parlamentdə qalib gəlmiş partiya çoxluq əldə edə bilməsə, təkrar seçkilər keçiriləcək. Əgər ikinci cəhdlərdən sonra da çoxluq formalaşmasa, ikinci tur mexanizmi işə düşəcək. Bu addım siyasi stabilliyi qorumaq və hökumət formalaşdırmaqda problemin qarşısını almaq məqsədi daşıyır.

Layihə həmçinin parlamentin funksionallığını artırmaq üçün bir sıra struktur dəyişikliklərini nəzərdə tutur. Komissiyaların səlahiyyətləri genişləndiriləcək, parlamentin özünü buraxma proseduru sadələşdiriləcək və etik komissiya yaradılacaq. Bu komissiya parlament üzvlərinin davranış standartlarını izləyəcək və etik normaların qorunmasını təmin edəcək.

Ümumiyyətlə, Paşinyanın parlament seçkisinə hazırlığı yalnız siyasi rəqabətdə üstün mövqe qazanmaqla məhdudlaşdırmır. Onun tədbirləri həm də regionda təhlükəsizliyi və siyasi stabilliyi qorumağa yönəlmiş strateji təşəbbüslərin bir hissəsi kimi görünür. Yeni kadrlar, etik standartlar və idarəetmə islahatları seçicilərin inamını artırır, təsir agentlərinin neytrallaşdırılması və radikal qrupların zəiflədilməsi isə Paşinyanın geosiyasi mövqeyini gücləndirir. Bu addımlar sərhəd təhlükəsizliyini təmin edir, diplomatik mövqeləri möhkəmləndirir və regionda riskləri azaldır.

Beləliklə, Ermənistan daxilində həm siyasi ritorikanın yumşaldılması, həm "təsir agentləri" ilə mübarizə, həm də konstitusiya islahatları ciddi transformasiya görüntüsü yaradır. Lakin Azərbaycan üçün əsas məsələ bu proseslərin real nəticələrinin regiondakı güc balansına, sərhəd təhlükəsizliyinə və sülh gündəliyinə necə təsir edəcəyidir. Ermənistanın daxili parçalanması və siyasi qütbləşməsi Azərbaycanın mövqelərini gücləndirir, hüquqi dəyişikliklərin gündəmə gətirilməsi və revanşist dairələrin zəifləməsi isə Bakı üçün strateji üstünlük təmin edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**Mətbuat Şurası İdarə Heyətinin üzvü,**
**politoloq**

Paşinyanın parlament seçkiləri ərəfəsində apardığı genişmiqyaslı kadr yenilikləri, yeni siyasi komandanın formalaşdırılması, etik kodeksin tətbiqi onun seçkiyə daha nizamlı, mərkəzçi və "yenilənmiş hökumət" obrazı ilə getmək strategiyasının bir hissəsidir. Bu addımlar daxili narazılıqları yumşaltmaq və siyasi sistem üzərində nəzarəti gücləndirmək məqsədi daşıyır.

Eyni zamanda, Paşinyan "təsir agentləri" və radikal dini-siyasi qruplara qarşı hüquqi tədbirləri çərçivəsində seçkiqabağı təhlükəsizlik ritorikası ilə önə çıxır. O, ictimaiyyətə "təhlükəsizliyi təmin edən lider" mesajı verir. Bu, Paşinyanın seçkiqabağı nüfuzunu artırmağa və seçicilərin etimadını qazanmağa xidmət edir.

Kilsə daxilindəki mübahisələr, Yezras Nersisyan və "Müqəddəs mübarizə" hərəkatı ilə bağlı ittihamlar hökumətin suverenliyi qoruyan aktor kimi təqdim olunmasına xidmət edir. "Təsir agentləri" və radikal qrupların istər siyasi, istər dini institutlar daxilində hökumətin nüfuzuna təsirini azaldır. Bunu bir cümlədə kilsə–dövlət münasibətlərində yeni balans yaratmağa yönəlmiş addımlar kimi də ifadə edə bilərik. Onlara qarşı tədbirlər Paşinyana daxili siyasi rəqabətdə üstün mövqe qazandırır və daxili sabitlik üçün potensial təhdidləri azaldır. Bununla Paşinyan istər daxili auditoriyaya, istərsə də xarici tərəfdaşlara Ermənistanın sərt, amma nəzarət altında olan siyasət yürütməsini nümayiş etdirir.

Konstitusiya dəyişikliklərində nəzərdə tutulan ikinci tur mexanizmi, parlament komissiyalarını gücləndirilməsi və özünü buraxma prosedurunun sadələşdirilməsi Paşinyanın gələcək hakimiyyət arxitekturasını daha sabit və nəzarətli modellə təmin etməsinə hesablanıb. Bu islahatlar siyasi proseslərdə sobatajların qarşısını almaqla yanaşı, icra hakimiyyətlərinin üstün mövqelərini möhkəmləndirir.

Azərbaycanın maraqları baxımından Ermənistan daxilindəki bu transformasiya həm risklər, həm də imkanlar açır. Daxili parçalanma və radikal qrupların zəifləməsi Bakının mövqelərini gücləndirsə də, Paşinyanın təhlükəsizlik ritorikasının sərtləşməsi danışıqlar prosesinə təsir edə bilər. Çünki başlatdığı proses onun "güclü lider" imicini formalaşdırır. Bu isə öz növbəsində ona güzəştləri çətinləşdirməyə həvəsləndirə bilər.

# Qahirədə D-8 ölkələri ticarət nazirlərinin görüşü



**Misir Ərəb Respublikasının Qahirə şəhərində D-8 – İqtisadi Əməkdaşlıq Təşkilatının ticarət nazirlərinin 4-cü iclası keçirilib. İqtisadiyyat Nazirliyindən nazir müavini Səməd Bəşirli iclasda çıxış edərək Azərbaycanın D-8 ölkələri ilə səmərəli tərəfdaşlıq əlaqələrinə malik olduğunu vurğulayıb.**

D-8 təşkilatının üzv dövlətlər arasında ticarət üzrə dayanıqlığın gücləndirilməsi, bazarların şaxələndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından effektiv platforma olduğu qeyd edilib. Təşkilat daxilində ticarət həcmlərinin artırılması və daha səmərəli iqtisadi əlaqələrin formalaşdırılması istiqamətində aparılan müzakirələrin önəmi diqqətə çatdırılıb. Azərbaycanda mövcud əlverişli biznes mühiti, ölkəmizin strateji nəqliyyat-logistika üstünlükləri, sənaye potensialı və geniş investisiya imkanları barədə məlumat verilib.

Məclisdə iqtisadi əməkdaşlığın yeni mərhələyə yüksəldilməsi məqsədilə ticarət forumlarının təşkili, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri və birbaşa biznes əlaqələrinin qurulmasının əhəmiyyəti xüsusi vurğulanıb. D-8 ölkələri arasında ticarətin dövriyyəsinin artırılması üçün birgə səylərin gücləndirilməsinin zəruri olduğu diqqətə çatdırılıb. İclasda D-8 üzvü olan dövlətlərin ticarət üzrə məsul nazirləri və nümayəndə heyətləri iştirak edib və Ticarət Əməkdaşlığı haqqında Qahirə Bəyannaməsi qəbul edilib.

Ümumiyyətlə, regionun təhlükəsizliyinin, dayanıqlı inkişafının və sabitlik mühitinin təmin edilməsində D-8 formatının əhəmiyyəti olduqca böyükdür. 1997-ci ildə İstanbulda əsası qoyulan bu birlik hazırda dünya müsəlman ölkələrinin ən irimiqyaslı iqtisadi təşkilatı kimi tanınır. Təşkilat 3 qitəni əhatə edən, 4 trilyon ABŞ dollarından artıq ümumi daxili məhsul (ÜDM) ilə qlobal iqtisadiyyata mühüm töhfə verən bir təşkilatdır. Həmçinin 130 milyard dollar həcmində ticarət dövriyyəsinə malik bu təşkilat öz üzv dövlətləri ilə geniş iqtisadi əlaqələrin mövcudluğunu nümayiş etdirir. Təşkilatın nominal ÜDM-i 5 trilyon 199 milyon dollar, real ÜDM-i isə 18 milyard 182 milyon dollar olmaqla, böyük iqtisadi potensialı ilə diqqət çəkir.

2024-cü ilin dekabrında Azərbaycan bütün üzv ölkələrin yekdil dəstəyi ilə təşkilata tamhüquqlu üzv seçildi. Dünyada təqribən 60 müsəlman dövlətinin mövcudluğunu nəzərə alsaq, məhz Azərbaycanın qəbul olunması ölkəmizə göstərilən yüksək rəğbətin və beynəlxalq arenadakı nüfuzunun bariz göstəricisidir. Qlobal nizamın yenidən formalaşdığı bir zamanda yeni iqtisadi və siyasi güclərin ortaya çıxması reallığın diktə etdiyi bir zərurətə çevrilib. Məhz buna görə də siyasi liderlərin aktiv təşəbbüslərlə çıxış etməsi, dünyada baş verən prosesləri düzgün təhlil etməsi və birqütblü sistemin yaratdığı disbalansları aradan qaldırmağa çalışması xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə D-8-in yaranmış boşluğu doldurmaq istiqamətində mühüm rola sahib olacağı düşünülür.

D-8, həmçinin üzv ölkələr arasında ticarət, sərmayə və texnologiya sahələrində əməkdaşlığın genişlənməsi üçün müxtəlif proqramlar həyata keçirir, onların beynəlxalq bazarlara çıxış imkanlarını artırmaq məqsədilə təşviq mexanizmləri tətbiq edir. Təhsil, mədəniyyət və sosial sahələrdə həyata keçirilən birgə təşəbbüslər isə üzv dövlətlər arasında yaxın humanitar əlaqələrin formalaşmasına töhfə verir.

Bir məqam xüsusi vurğulanmalıdır ki, onsuz da Azərbaycan bu ölkələrin, demək olar ki, hər biri ilə çoxillik siyasi və iqtisadi tərəfdaşlıq münasibətləri qurmuşdu. Yeni status isə həm ikitərəfli, həm də təşkilat daxilində əməkdaşlığın daha sistemli və intensiv şəkildə inkişafına imkan yaradır. Məlumdur ki, Azərbaycanın Bakı–Tbilisi–Qars dəmir yolu xətti, həmçinin Bakı Beynəlxalq Dəniz Ticarət Limanı D-8 coğrafiyası üçün mühüm tranzit və logistika mərkəzinə çevrilməkdədir. Bu quruma üzvlük Azərbaycana yeni iqtisadi perspektivlər açmaqla bərabər, beynəlxalq arenada daha möhkəm və təsirli mövqe qazanmasına da şərait yaradır. Tarix boyu Şərqlə Qərbi birləşdirən strateji körpü funksiyasını yerinə yetirmiş, İslam mədəniyyəti və dini irsinin aparıcı mərkəzlərindən biri kimi tanınan Azərbaycanın D-8 ailəsinə qoşulması, İslam həmrəyliyinin gücləndirilməsinə və bu dəyərlərin dünya səviyyəsində daha geniş təbliğinə əhəmiyyətli dəstək verəcək.

***Nurlan ABDALOV***
***XQ***

# Naxçıvanda Azərbaycan–Türkiyə Regional İqtisadi Forumu



**Naxçıvan şəhərində rəsmi şəxslərin və iş adamlarının iştirakı ilə II Azərbaycan-Türkiyə Regional İqtisadi Forumu keçirilib.**

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinin və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK), Türkiyə Palatalar və Birjalar Birliyinin, Qars Ticarət və Sənaye Palatasının, “Cahan Holding” və “Marsol Group”un dəstəyi ilə keçirilən foruma Azərbaycan və Türkiyənin müvafiq qurumlarının nümayəndələri, Qars, İğdır, Ərdahan, Ərzurum kimi bölgələrin valiliklərinin, bələdiyyə və ticarət palatalarının təmsilçiləri, eləcə də 200-dən çox iş adamı qatılıb.

Forumun məqsədi Azərbaycan və Türkiyə, xüsusilə də hər iki ölkənin regionları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi, bu sahədə mövcud potensialın və biznes əməkdaşlığı üçün imkanların diqqətə çatdırılması, eləcə də Naxçıvan Muxtar Respublikasının biznes və investisiya imkanları barədə Türk iş adamlarının məlumatlandırılması, Türkiyənin sərhədyanı bölgələri ilə ikitərəfli iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsidir.

Tədbir Azərbaycan və Türkiyənin Dövlət himnlərinin səsləndirilməsi, ulu öndərlər Heydər Əliyevin və Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya, Türkiyənin Qars şəhərində Azərbaycan Respublikasının baş konsulu Zamin Əliyev, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Kazım Hüseynəliyev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov və ASK-ın vitse-prezidenti, Azərbaycan–Türkiyə Ticarət və Sənaye Palatasının həmsədri Vüqar Abbasov çıxış edərək ölkələrimiz arasında siyasi-iqtisadi əlaqələrin və strateji tərəfdaşlığın inkişafı, iki ölkənin iş adamları arasında əməkdaşlıq, biznes və investisiya qoyuluşu üçün imkanlar barədə fikirlərini bölüşüblər.

Natiqlər bildiriblər ki, logistika, sərhədyanı ticarət, investisiya və KOB-ların dəstəklənməsi istiqamətində atılan qarşılıqlı addımlar bölgədə iqtisadi dinamikanın güclənməsinə və yeni tərəfdaşlıq imkanlarının açılmasına töhfə verir, xüsusilə Naxçıvanın regional əməkdaşlıq baxımından yaratdığı imkanlar biznes dairələri üçün böyük perspektivlər açır.

Forum çərçivəsində Naxçıvanın investisiya, ticarət və logistika imkanları barədə təqdimat nümayiş etdirilib, iki ölkənin iş adamları arasında B2B görüşlər keçirilib. Türk iş adamları səfər çərçivəsində Naxçıvanda fəaliyyət göstərən bir sıra müəssisələrin fəaliyyəti ilə də tanış olublar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov Naxçıvanda səfərdə olan Azərbaycan və Türkiyə heyətləri, o cümlədən Qars, İğdır, Ərdahan, Ərzurum kimi bölgələrin valiləri, bələdiyyə və ticarət palatalarının təmsilçiləri ilə görüşüb. Görüşdə Azərbaycan və Türkiyənin regionları arasında əməkdaşlıq, sərhədyanı ticarətin inkişafı məsələləri müzakirə edilib.

Qeyd edək ki, forumun məqsədi Azərbaycan və Türkiyə, xüsusilə də hər iki ölkənin regionları arasında işgüzar əlaqələrin inkişaf etdirilməsi, bu sahədə mövcud potensialın və biznes əməkdaşlığı üçün imkanların diqqətə çatdırılması, eləcə də Naxçıvan Muxtar Respublikasının biznes və investisiya imkanları barədə Türk iş adamlarının məlumatlandırılması, Türkiyənin sərhədyanı bölgələri ilə ikitərəfli iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsidir.

***XQ***

# Regionun iqtisadi lideri

## *Azərbaycan Cənubi Qafqazda tərəqqinin lokomotividir*

**2025-ci ilin yanvar–oktyabr aylarında Cənubi Qafqaz regionunun ticarət dövriyyəsi 76, 467 milyard dollar təşkil edib. "Gnomon Wise" tədqiqat təşkilatının məlumatına görə, 2024-cü ilin eyni dövründə bu göstərici 83,887 milyard dollar olub ki, bu da illik müqayisədə 8,8 faiz azalma deməkdir.**



Bildirilir ki, Cənubi Qafqaz ölkələri – Azərbaycan, Ermənistan və Gürcüstan kiçik və açıq iqtisadiyyatlara malikdir və qlobal bazarlarla inteqrasiya olunublar. 2025-ci ilin yanvar-oktyabr aylarında regionun ticarət dövriyyəsində idxalın payı 43,467 milyard dollar, ixracın ümumi dəyəri isə təxminən 33 milyard dollar təşkil edib.

Cənubi Qafqaz ölkələri arasında ticarət dövriyyəsində Azərbaycan lider mövqeyə malikdir və onun payı 51,4 faiz təşkil edir. Gürcüstanın payı 26,9 faiz, Ermənistanın payı isə 21,7 faiz səviyyəsindədir. "Gnomon Wise"ın məlumatına görə, regionda xarici ticarət ölkələrin iqtisadi artımına mühüm töhfə verir və ticarət əlaqələrinin gücləndirilməsi regionun iqtisadi sabitliyi üçün əhəmiyyətlidir.

Qeyd edək ki, bu ilin yanvar-oktyabr aylarında Azərbaycan xarici ölkələrlə 40,862 milyard ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu, ötən ilin eyni dövrünə nisbətən 1,5 milyard ABŞ dolları və ya 3,8 faiz çoxdur.

Xarici ticarət dövriyyəsinin 21,637 milyard ABŞ dolları ixracın, 19,225 milyard ABŞ dolları isə idxalın payına düşüb. Son 1 ildə ixrac 1,1 milyard ABŞ dolları və ya 4,9 faiz azalıb, idxal isə 2,6 milyard ABŞ dolları və yaxud 15,6 faiz artıb. Nəticədə xarici ticarətdə 2,412 milyard dollarlıq müsbət saldo yaranıb ki, bu da illik müqayisədə 3,7 milyard ABŞ dolları və ya 2,5 dəfə azdır.

Cari ilin yanvar–oktyabr aylarında Azərbaycanla ticarət dövriyyəsinin həcminə görə İtaliya 10, 556 milyard ABŞ dolları ilə ilk pillədə qərarlaşıb. Türkiyə 4,77 milyard ABŞ dolları ilə ikinci, Rusiya isə 4,152 milyard ABŞ dolları ilə üçüncü yerdədir. Bu ölkələrin ardınca 3,814 milyard ABŞ dolları ilə Çin gəlir.

Yeri gəlmişkən, hesabat dövründə ixracda ilk onluqda yer alan ölkələr İtaliya, Türkiyə, Rusiya, Çexiya, Yunanıstan, Bolqarıstan, Xorvatiya, Gürcüstan, Almaniya və Rumıniyadır. İdxalda isə Çin, Rusiya, Türkiyə, ABŞ, Avstraliya, Böyük Britaniya, Almaniya, Qazaxıstan, İran İslam Respublikası və İsveçrə ilk onluqda yer alır.

Qeyd olunduğu kimi, bu ilin yanvar-oktyabr aylarında Çin Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkə mövqeyində qərarlaşıb. Çindən Azərbaycana 3,7 milyard ABŞ dolları dəyərində idxal əməliyyatları həyata keçirilib ki, bu göstərici 2024-cü ilin eyni dövrü ilə müqayisədə 734 milyon ABŞ dolları və ya 24,5 faiz artım deməkdir. Azərbaycandan Çinə 79,6 milyon dollarlıq məhsul ixrac olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 65,2 milyon ABŞ dolları və ya 5,5 dəfə çoxdur.

Azərbaycan əsasən neft, təbii qaz, neft-kimya məhsulları, elektrik enerjisi, həmçinin pomidor, fındıq, xurma və digər kənd təsərrüfatı məhsullarını ixrac edir. Ölkənin idxalı isə əsasən avtomobillər, sənaye avadanlıqları, elektronika, buğda, şəkər, bitki yağları, dərman preparatları, kimya sənayesi məhsulları və müxtəlif tikinti materiallarından ibarətdir.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycan 20,754 milyon tondan çox xam neft və bitumlu süxurlardan əldə edilmiş neft məhsulları ixrac edib ki, bu da təxminən 10,850 milyard ABŞ dolları təşkil edib. Azərbaycanın ümumi ixracında bitumlu süxurlardan alınan xam neft və neft məhsullarının payı 50,14 faiz təşkil edib.

Bu ilin ilk 10 ayında Azərbaycandan 7 milyard 418 milyon ABŞ dolları həcmində 20 milyard 649 milyon kubmetr təbii qaz ixrac edilib. Dövlət Gömrük Komitəsinin məlumatına görə, təbii qaz ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsilə 569,3 milyon dollar və ya 8,3 faiz çoxdur, miqdar ifadəsilə isə 690 milyon kubmetr, başqa sözlə, 3,2 faiz azalıb.

Qeyd edək ki, 2024-cü ilin yanvar-oktyabr ayları ərzində Azərbaycandan 6 milyard 849 milyon dollar dəyərində 21 milyard 339 milyon kubmetr təbii qaz ixrac olunmuşdu. Bu ilin ilk 10 ayının nəticələrinə görə, Azərbaycanın ixrac etdiyi təbii qazın hər 1000 kubmetrinin orta ixrac qiyməti 359 dollar təşkil edib. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 321 dollar idi. Bu da illik müqayisə ilə 38 dollar və ya 11,9 faiz bahalaşma deməkdir. Bu ilin 10 ayında ümumi ixracın 34,28 faizi təbii qazın payına düşüb. Ötən ilin eyni dövründə isə bu göstərici 30,11 faiz olub.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın noyabr sayında qeyd olunub ki, 2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 2,99 milyard, o cümlədən yeyinti məhsulları üzrə 19,8 faiz artaraq 962,1 milyon dollar olub.

Maraqlısı budur ki, həmçinin ixrac olunan şəkər 49,6, meyvə-tərəvəz 30, kimya sənayesi məhsulları 22,8, pambıq iplik 8,8, alüminium və onlardan hazırlanan məmulatlar 3,8 faizə qədər artıb. Cari ilin 10 ayında aqrar məhsullar üzrə ixracın dəyəri 769,7 milyon, aqrar-sənaye məhsulları üzrə 260 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsulları üzrə ixracın dəyəri 19,1 faiz artaraq 1,03 milyard dollar təşkil edib. Qeyd edilən dövr ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, pomidor (tomat) ikinci, karbamid üçüncü, oktyabr ayı ərzində isə qızıl birinci, xurma ikinci, meşə fındığı üçüncü olub.

Göründüyü kimi, Cənubi Qafqazda 8,8 faizlik azalmaya paralel olaraq Azərbaycan iqtisadi liderliyini qoruyur. Yeni nizamda baş verən natarazlıqlara baxmayaraq, beynəlxalq reytinq agentlikləri, tədqiqat təşkilatları ölkəmizin maliyyə və iqtisadi mühiti ilə bağlı müsbət proqnozlar, rəylər verirlər. Məlumdur ki, hazırda Azərbaycan investisiya mühiti üçün ən münbit ölkələrdən sayılır. Şübhəsiz, qlobal güclərin əməkdaşlıq gündəliyində də, Azərbaycan məhz bu kimi amillər hesabına ön sıralarda qərarlaşır.

***Musa BAĞIRLI***
***XQ***

# Çinin enerji saxlama təcrübəsi öyrənilir

**Azərbaycan və Çinin "Universal Energy" şirkəti arasında uzunmüddətli və təhlükəsiz enerji saxlama texnologiyası üzrə təcrübəsi barədə fikir mübadiləsi aparılıb. Bunu energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib.**




Nazir bərpaolunan enerji mənbələri üzrə ilk hərrac layihəsi olan 100 MVt gücündə Qobustan Günəş Elektrik Stansiyasında birinci panelin quraşdırılması çərçivəsində Azərbaycanda səfərdə olan "Universal Energy" şirkətinin prezidenti Nan Yi ilə görüşüb. Qeyd olunub ki, stansiyanın inşasının gedişi, əməkdaşlığın genişləndirilməsi, imkanları, eləcə də şirkətin uzunmüddətli və təhlükəsiz enerji saxlama texnologiyası üzrə təcrübəsi barədə fikir mübadiləsi apardıq. Stansiyanın inşası çərçivəsində bu gün ilk panelin quraşdırılması və tikinti işlərinin gedişatı yüksək qiymətləndirilib.

Söhbət zamanı "Universal Energy" şirkəti ilə əməkdaşlığın genişləndirilməsi imkanları dəyərləndirilib. Müasir günəş enerjisi texnologiyası, həmçinin şirkətin uzunmüddətli və təhlükəsiz enerji saxlama texnologiyası kimi vanadium əsaslı batareyalar üzrə təcrübəsi, bu texnologiyanın "yaşıl enerji" ixracı layihələrində tətbiqi perspektivləri nəzərdən keçirilib.

Azərbaycanın bərpaolunan enerji sektorunda ilk hərrac əsasında həyata keçirilən layihə – 100 MVt-lıq “Qobustan” Günəş Elektrik Stansiyasının tikintisi çərçivəsində artıq ilkin günəş panelinin quraşdırılması baş tutub. Layihə Çinin “Universal International Holdings Limited” şirkəti ilə əməkdaşlıq çərçivəsində reallaşdırılır və inşaat mərhələsinə bu ilin may ayında start verilib. İşlərin böyük hissəsi yerli podratçı şirkətlər tərəfindən icra olunur.

Stansiyanın 2027-ci ildə istismara verilməsi planlaşdırılır. Gələcəkdə burada ildə təxminən 260 milyon kilovat-saat elektrik enerjisinin istehsal olunacağı gözlənilir. Bu həcmin əldə edilməsi nəticəsində ildə 57 milyon kubmetr təbii qaza ehtiyac azalacaq, eyni zamanda, 124 min ton karbon emissiyasının atmosferə buraxılmasının qarşısı alınacaq.

Qeyd edək ki, Çin şirkəti “Universal International Holdings Limited”, ötən il COP29 çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) dəstəyi ilə Energetika Nazirliyi tərəfindən keçirilən hərracda qalib seçilib və stansiyanın inşası üzrə hüququ əldə edib.

***XQ***

# Kredit çətinliklərin maliyyə açarıdır

## *Bəs necə olur ki, o özü "qıfıl-kilid"ə çevrilir?*

**Azərbaycanın bank sektorunda son aylar narahatlıqla müşahidə edilən əsas mövzularından biri problemli kreditlərin artmasıdır. Rəsmi statistika göstərir ki, artım sürəti hələlik böhranlı həddə çatmasa da, nisbətən sabit inkişafın davamlı olması həm maliyyə sabitliyi, həm də əhali üçün yeni risklər yaradır.**

Mərkəzi Bankın (MB) açıqladığı rəqəmlər artımın həm illik, həm də aylıq bir müddətdə davam etdiyini nəzərə çarpdırır. Bu isə kredit riskləri ilə bağlı struktur səbəblərinin daha dərindən təhlilinin zəruriliyini diqqətə çatdırır. MB-nin məlumatına əsasən, bu ilin yanvar-oktyabr aylarında banklar 29 milyard 403,9 milyon manat kredit yerləşdirib. Bu kreditlərin 544,8 milyon manatının vaxtı keçib. İlk baxışda bu rəqəm ümumi portfelin cəmi 1,7 faizinə uyğun gəldiyi üçün o qədər də təhlükəli görünməyib. Eyni göstərici ötən ilin oktyabrında da 1,7 faiz təşkil edib. Lakin ilk baxışda sabit kimi diqqət çəkən bu rəqəmin arxasında isə çox ciddi bir dinamik artım dayanıb: problemli kreditlərin həcmi ilin əvvəlindən bəri 21,3 faiz, son 12 ayda isə 13,55 faiz çoxalıb.

Bu iki faktın mövcudluğu göstərir ki, kredit portfelinin strukturunda problemli hissə nəzərəçarpacaq dərəcədə genişlənib. Başqa sözlə, banklar son bir ildə daha çox kredit verib, lakin bu kreditlərin kiçik, lakin artan hissəsi vaxtında geri qaytarılmayıb. Bu balanssızlıq isə sosial-iqtisadi səbəblərdən qaynaqlanıb.

Hazırda problemli kreditlərin ümumi həcmi banka və maliyyə sabitliyinə ciddi zərbə vuracaq səviyyədə nəzərə çarpmır. Təhlükəli olan onların getdikcə artmasıdır. Statistik müşahidələr göstərir ki, hər ay problemli kreditlərin sayı və həcmi böyüyür. Bu isə təsadüfi proses deyil, iqtisadiyyatın dərin struktur problemlərinin göstəricisidir.

Ekspertlərin fikrincə, problemli kreditlərin dövri artımını, adətən, iki səbəb – gəlirlərin real dəyərinin azalması və inflyasiyanın alıcılıq qabiliyyətini zəiflətməsi şərtləndirib. Bu, o deməkdir ki, əgər vətəndaşın əmək haqqının real dəyəri inflyasiya səbəbindən aşağı düşürsə, deməli, həmin şəxs əvvəlki kimi kredit öhdəliklərini gerçəkləşdirməkdə çətinlik çəkib. Bu fikrin təsdiqi olaraq qeyd edək ki, son 2 ildə qlobal qiymət dalğalanmaları, regionda baş verən geosiyasi risklər və idxaldan asılı sahələrdə xərclərin çoxalması əhalinin gündəlik xərclərini artıraraq maliyyə tarazlığını pozub.

### Gəlirlərin real dəyəri

Burada önəmli sual yaranır: əgər inflyasiya artıq yavaşlayıbsa, problemli kreditlər niyə artır? Cavab sadədir: inflyasiya özü dayansa belə, onun yaratdığı bahalaşma qalıcı olur. Yaşam xərcləri əvvəlki səviyyəsinə düşmür, gəlirlər isə sürətlə artmır. Problemin kökündə qiymət artımı ilə yanaşı, gəlirlərin çoxalma tempinin zəifləməsi də dayanır, bu da mövcid çətinliyi ağırlaşdırır. Son illərdə bəzi sahələrdə əmək bazarının zəifləməsi, xidmət sektorunda real əməkhaqqının artım tempinin aşağı düşməsi, ərzaq və kommunal sahələrdə gündəlik xərclərin əməkhaqqından daha sürətlə çoxalması məhz bunun bariz ifadəsidir. İstehlak səbətli xərclərin strukturunda dəyişiklik baş verməsi – yəni ailə büdcəsinin getdikcə daha çox ərzaq, tibbi xidmət və kommunal ödənişlər üçün yönləndirilməsi də problemli kreditlərin artımını şərtləndirir.

Bu amillər "kredit ödənişi üçün ayrılan büdcə"nin azalmasına gətirib çıxarır. Nəticədə vətəndaş zəruri ödənişləri tam şəkildə icra edə bilmir və kredit gecikmələri davamlı artır. Bu zaman tez-tez ictimai müzakirələrə çıxarılan "problemli kreditlərin bağışlanması" mövzusu yenidən gündəmə gətirilir. Lakin reallıq ondan ibarətdir ki, hazırda narahatlıq doğuran bu məsələnin genişmiqyaslı bir kampaniyaya çevrilməsi gözlənilmir. Bunun əsas səbəblərindən biri problemli kreditin qanuni yollarla geri qaytarılması üçün bankların məhkəmələrə müraciətidir. Bu, həm də bankların maliyyə öhdəliklərini yerinə yetirməsi üçün mühüm şərtdir, çünki əmanətçilərin pulları, bankların likvidlik tələbləri və kapital adekvatlığı hüquqi bazada tənzimlənir.

Ekspertlərin sözlərinə görə, yenidən bağışlanma presedenti, yəni problemli kreditlərin bağlanılması prosesi maliyyə intizamını poza bilər. Ümumiyyətlə, belə bir addımın atılması kreditlərin qaytarılmasına marağı azaldar, banklar üçün isə riskləri artırar, kredit faizlərinin bahalaşmasına, maliyyə intizamında zəncirvari pozulmalara gətirib çıxarar.





### Sosial təzyiqlər

Ölkə iqtisadiyyatı artıq maliyyə tarazlığının qorunması istiqamətində strateji xəttə üstünlük verir. Bu şəraitdə genişhəcmli sosial kompensasiya proqramları nəzərdə tutulmur. Kreditlərin bağışlanması mövzusu isə qısamüddətli psixoloji və sosial rahatlıq yaratsa da, uzunmüddətli dövrdə maliyyə sabitliyinə ciddi ziyan vura bilər. Bank sektorunda risklərin azaldılması yalnız hüquqi mexanizmlərlə deyil, iqtisadi mühitin gücləndirilməsi ilə mümkündür. Problemli kreditlərin qaynaqlandığı əsas səbəblər isə, yuxarıda vurğulandığı kimi, gəlirlərin real dəyərinin azalması, inflyasiyanın aylıq büdcələrə təsiri, əmək bazarındakı qeyri-sabitlik, gündəlik xərclərin artması və bəzi ailələrdə yüksək borclanma yükünün yaranması ilə bağlıdır. Bu səbəbləri aradan qaldırmaqla kreditlərin bağışlanması problemini həll etmək mümkündür.

Beləliklə, problemli kredit həcminin azaldılması məqsədilə, ilk növbədə, real əməkhaqqının artımı gerçəkləşdirilməlidir. Bunun üçün yüksək dəyər yaradan sahələrdə məşğulluğun artırılması, özəl sektorda rəqabət mühitinin gücləndirilməsi, əməkhaqları üzrə şəffaflıq və səmərəlilik mexanizmlərinin tətbiqi diqqətdə saxlanılmalıdır. Bütün bunlarla yanaşı, maliyyə savadlılığının artırılması, ailələrin büdcə planlaşdırması, kreditlərin məqsədyönlü istifadəsi və ehtiyat fondların formalaşdırılması kimi sahələrdə maarifləndirməyə üstünlük verilməlidir.

### Bank sektorunun dayanıqlılığı

Göründüyü kimi, problemli kreditlərin payı hələlik təhlükəli səviyyədə olmasa da, onların aylıq və illik artım tempi ciddi xəbərdarlıqdır. Bu tendensiya göstərir ki, əhalinin gəlir-xərc balansı pozulub və real gəlirlər artan xərcləri kompensasiya etmir. Bu isə kredit ödənişlərinin gecikməsinə, nəticədə bank sektorunda risklərin yüksəlməsinə gətirib çıxarır.

Müzakirə olunmalı əsas məsələ kreditlərin bağışlanması yox, vətəndaşların iqtisadi imkanlarının yaxşılaşdırılması, inflyasiyanın real təsirlərinin azaldılması və kredit yükünün dayanıqlı səviyyəyə endirilməsidir. Əgər bu istiqamətdə sistemli tədbirlər davam etdirilsə, problemli kreditlərin artımı tədricən nəzarət altına alınar və bank sektoru öz dayanıqlığını uzunmüddətli perspektivdə qoruyub saxlayar.

Hazırda problemli kreditlərin payı beynəlxalq standartlara görə aşağı səviyyədədir. Azərbaycan bank sektoru bu göstərici üzrə həm Avropa Birliyi, həm də region ölkələrinə nisbətən daha yaxşı mövqedədir. Lakin narahatlıq doğuran əsas məsələ artım tempinin məhz davamlı olmasıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

---

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri, iqtisadçı-ekspert**

Problemli kreditlərin ümumi kredit portfelindəki payı riskli həddə deyil. Ümumi kredit portfelində 2 faizdən az yer tutur. Beynəlxalq standartlara görə, bu pay 3 faizdən aşağı olduqda bank sektoru üçün elə də riskli sayılmır. Likvidlik üçün də problem yaratmır. Artım dinamikasının tənzimlənməsi çox vacibdir. Problemli kreditlərin payının ümumi portfeldə azaldılmasına çalışmalıyıq. Səbəblərdən biri kredit verilən zaman şəxsin ödəmə qabiliyyəti doğru qiymətləndirilmir. Əvvəlki dövrlərdə verilən kreditlər üzrə öhdəliklərin tam müəyyən edilməməsi, yaxud öhdəliklərlə bağlı müştəriyə izahedici məlumatlar çatdırılmamasıdır. Bəs problemli kreditlərin hər ay artmasının səbəbini necə izah etmək olar?

Statistika göstərir ki, hər ay problemli kreditlərin həcmi böyüyür. Bu, bank sektorundan daha çox real sektorun və əhalinin maliyyə yükünün artmasına işarə edir. Əgər vətəndaşlar kredit öhdəliklərini vaxtında yerinə yetirə bilmirsə, deməli, ya real gəlirlər azalır, ya inflyasiya gəlirlərin alıcılıq qabiliyyətini zəiflədir, ya da xərclər gəlirlərin artım tempini üstələyir.

İstehlak bazarında qiymətlərin artması, əmək bazarında qeyri-sabitlik, qeyri-formal məşğulluğun davam etməsi kredit ödəniş intizamını zəiflədən əsas amillərdir. Problemli kreditlərin artmasının əsas iqtisadi səbəblərinə gəldikdə isə real gəlirlərin ləng artımı daha çox diqqət çəkir. Statistika göstərir ki, nominal əməkhaqqı artsa da, inflyasiya bu artımı neytrallaşdırır. Real gəlirlər aşağı templə genişlənir, nəticədə vətəndaşların ödəmə qabiliyyəti zəifləyir.

İstehlak inflyasiyası və xərclərin strukturunun dəyişməsi də problemli kreditlərin həcminin böyüməsinə təsir göstərir. Belə ki, ərzaq və xidmətlər üzrə qiymət artımı ailə büdcələrini daraldır. Məsələn, əvvəl aylıq büdcənin 30-35 faizi ərzağa xərclənirdisə, indi bu rəqəm 50–60 faizə qalxa bilər. Bu isə kredit ödənişləri üçün daha az məbləğ saxlayır. Qeyri-rəsmi gəlirlər və qeyri-sabit məşğulluq da narahatlıq doğuran amillər sırasında yer alır. Yəni bir çox vətəndaşın gəlirləri bank sistemində tam görünmür. Bu da risklərin düzgün qiymətləndirilməsini çətinləşdirir. Bankların yüksək faiz dərəcələrindən bəhs edərkən isə onu demək olar ki, istehlak kreditləri üzrə illik faiz 18–23 faiz diapazonundadır. Yüksək faiz fonunda xərclərin artması borclanmanı daha da ağırlaşdırır.

Bəs prosesin qarşısını necə almaq olar? Bunun üçün, ilk növbədə, gəlirlərin real artımı təmin edilməlidir. Əməkhaqlarının indeksasiyası, sosial ödənişlərin inflyasiya tempinə uyğunlaşdırılması, qeyri-formal məşğulluğun azaldılması və daha yüksək məhsuldarlığa əsaslanan iqtisadi artım modelinin qurulması uzunmüddətli səmərəli həll yoludur. Eyni zamanda, kreditləşmə standartlarının sərtləşdirilməsi də zəruridir. Bank "görünməyən gəlirlər" əsasında qərar verməməlidir. Ödəmə qabiliyyətinin daha dəqiq qiymətləndirilməsi, stres-testlərin genişləndirilməsi problemli kreditlərin qarşısını əhəmiyyətli dərəcədə ala bilər.

Fikrimcə, faiz dərəcələrinin aşağı salınması üçün əlavə bazar mexanizmlərinin tətbiqi fayda verə bilər. Banklar üçün maliyyələşmə xərclərinin azalması kredit faizlərinə də təsir göstərər. Bu məqsədlə banklararası rəqabətin gücləndirilməsi, kapital bazarlarının inkişaf etdirilməsi, ipoteka və istehlak kreditləri üçün təminat mexanizmlərinin genişləndirilməsi vacibdir. Gecikməyə düşmüş kreditlər üzrə borclular üçün restrukturizasiya proqramlarının banklar tərəfindən müddətin uzadılması, faiz yükünün azaldılması, qismən güzəştlər bank sisteminin sabitliyi üçün daha optimal qərarlar ola bilər.

Ailələrin borclanma qabiliyyəti, faiz yükü, ödəniş intizamı barədə məlumatlılığı azdır. Maarifləndirmə nə qədər geniş olsa, riskli borclanma bir o qədər azalacaq. Bugünkü rəqəmlər göstərir ki, problemli kreditlərin həcmi hələlik kritik həddə çatmasa da, artım səviyyəsi ciddi iqtisadi siqnal kimi qəbul olunmalıdır. Kreditlərin bağışlanması məsələsi real deyil və bu addım bank sektorunda yeni risklər yaradar. Əsas hədəf – real gəlirlərin artırılması, inflyasiyanın cilovlanması, məşğulluq sabitliyinin gerçəkləşdirilməsi və kredit risklərinin düzgün idarə edilməsidir. Bu istiqamətlərdə paralel addımlar atılarsa, həm bank sektoru, həm də vətəndaşların maliyyə yükü sabitləşə bilər.

İstehlak kreditlərinin böyük həcmi məhz Bank olmayan kredit təşkilatlarının (BOKT) üzərinə düşür. Ona görə bu qurumların da fəaliyyətində ciddi tənzimləmələr edilməlidir. İkinci yerdə biznes kreditləridir. Bu kreditlərin problemli kreditə çevrilməsi o halda baş verir ki, biznes quran şəxs bazardakı riskləri müəyyənləşdirə bilmir, son nəticədə iflas olur. Lakin biznes kreditlərində problemli hallar elə də çox deyil. İpoteka kreditlərində daha az problem müşahidə olunur. Çünki orada həll imkanları daha genişdir: İpoteka krediti ilə alınan mənzillərdə ödəmə problemi olanda kredit ödəyicisinin, mülkiyyətçinin dəyişdirilməsi, yeni alıcının tapılması ilə bu problemin aradan qaldırılması daha asan başa gəlir.

---

*Dünyadan gələn sorağımız*

# Berlin arxivində Naxçıvan sənədləri

## *Faşist Almaniyası Azərbaycanın bu bölgəsində nə axtarırmış?*

**Tarix yalnız meydanlarda, qalalarda və ya diplomatik masalarda yazılmır. Bəzən o, səssiz arxiv rəflərində gizlənir – yer adları, siyahıyaalma cədvəlləri və idarəçilik sxemləri formasında. Elə sənədlər olur ki, onların üzərində minlərlə insanın taleyi, geosiyasi balansın kəsişməsi və gələcək siyasi xəritələrin konturları dayanır. 1941-ci ildə Naxçıvan haqqında Berlin kabinetlərində aparılan qeydiyyat və təsnifat prosesi də məhz bu qəbildəndir: görünməyən, amma son dərəcə maraqlı sənədlər.**

Bir zamanlar SSRİ-nin cənub sərhədinin ən həssas qovşaqlarından biri olan Naxçıvan İkinci Dünya müharibəsi zamanı nasist Almaniyasının Şərq siyasəti üçün adi bir coğrafi xətt deyildi. Bu ərazi Berlinin idarəçilik aparatında ayrı xüsusi mövzu kimi işarələnmiş, onun muxtar statusu, demoqrafik strukturu, sərhəd keçidləri və kommunikasiya xətləri xəritələşdirməyə cəlb edilmişdi. Bu o deməkdir ki, 1941-ci ilin Qafqaz mənzərəsində Naxçıvan yalnız bir "region" deyil, əlahiddə strateji düyün nöqtəsi kimi görünürdü.

Bu araşdırmada ilk dəfə tədqiqata cəlb etdiyimiz həmin görünməyən dosyenin – Bundesarxivin Berlin–Lichterfelde arxiv mərtəbələrində saxlanılan "R 6 – Reichsministerium für die besetzten Ostgebiete" ("RmfdbO") fondu üzrə rəsmi EAD qeydlərində "Nachitschewan und autonomes Gebietes der (Berg-) Karabachen, 1941" başlıqlı blokun arxasındakı siyasi, idarəçilik və intellektual mexanizmləri haqda söhbət açmağı qarşımıza məqsəd qoymuşuq. Haqqında ilk dəfə bəhs edəcəyimiz bu məsələ Naxçıvan MSSR-in SSRİ daxilindəki muxtar statusunun, Culfa-Araz xətti boyunca logistika əhəmiyyətinin və bölgənin etno-dil xəritələşdirilməsinin həmin il sistemli arxiv blokunda işlənildiyini təsdiqləyən birbaşa kataloq sübutudur.

"RmfdbO" 1941-ci ilin iyulunda Şərq ərazilərinin idarəsi üçün formalaşdırılıb və Qafqaz da bu çətirin altına salınıb. Naxçıvan və Qarabağı başlıq səviyyəsində




göstərən EAD qeydində "Nachitschewan und autonomes Gebietes der (Berg-) Karabachen, 1941" frazası, eləcə də "Benutzungsort: Berlin-Lichterfelde" işarəsi yer alır. 1941-ci ildən Georg Leibbrandt "RmfdbO"da "Hauptabteilung I (Politik)" adlı əsas siyasi idarəsinə rəhbərlik edirdi. Bu idarənin tabeliyinə "Ümumi siyasət", "Ukrayna", "Ostland (Baltik vilayətlər)", "Qafqaz", "Rusiya", eləcə də "Mətbuat və mədəniyyət" bölmələri daxil idi.

Əldə etdiyimiz bioqrafik məlumatlar onu deməyə əsas verir ki, Qafqaz materialları almanlar üçün son dərəcə əhəmiyyətli olub və bu informasiyalar mərkəzləşdirilmiş şəkildə toplanılıb. Bu baxımdan "1941-ci ilin Naxçıvan dosyesi" də söz yox ki, almanlar üçün xüsusi dəyərə malik idi. Göründüyü kimi, EAD başlığında Naxçıvanın Qarabağla yanaşı, ayrı mövzu vahidi kimi işarələnməsi, Berlinin SSRİ-daxili muxtar quruluşları ayrıca izləndiyini göstərir. Bu, tədqiqatçıya 1941-ci ilin xarici (alman) idarəçilik yaddaşında Naxçıvan MSSR təqdimatının necə qurulduğunu bərpa etməyə imkan verir.

Bundan başqa, "RmfdbO" dosyelərində sərhəd bölgələri üzrə dəmir yolu, körpülər, poçt-teleqraf kimi rabitə damarları standart toplanırdı. Maraqlıdır ki, alman arxivində Culfa-Araz xəttinin (SSRİ-İran keçidinin) qeydi vardır. Təsadüfi deyil ki, almanların "Verkehr/Verwaltung/Statistik" bölmələri idarəçilik planlaşdırmasının əsas sütunları idi. Digər tərəfdən, PuSte xətti SSRİ materiallarının tərcümə və işlənməsi, azlıqların tarixi-mövcud vəziyyətinin öyrənilməsi ilə məşğul olduğundan həmin arxiv sənədlərində Naxçıvan üzrə etno-dil bölgüsü, toponim variantları və siyahıyaalma əsaslı cədvəllər mövcuddur.

İranla təmasda olan Araz hövzəsi və Culfa keçidi Naxçıvanı 1941-ci ilin hərbi-logistika məntiqində "darvaza"ya çevirirdi. Bu baxımdan "RmfdbO" mandatının məhz belə qovşaqları xəritələşdirməsi təsadüfi deyil. Başlıqda Naxçıvan MSSR-in ayrıca çəkilməsi, SSRİ-nin federal-muxtar iyerarxiyasının Berlin kataloqunda xüsusi qeyd edildiyini göstərir.

Beləliklə, 1941-ci ilin Bundesarxiv materialları Naxçıvanın tarixini öz daxilimizdəki xronikalardan kənar – xarici idarəçilik şüurunun xəritəsində görməyə imkan verir. Nasist Almaniyasının Şərq siyasətində Naxçıvanın ayrıca qeyd edilməsi, bu ərazinin Moskva-mərkəzli SSRİ idarəetmə sistemindəki muxtar statusunun Berlin tərəfindən diqqətlə izlənildiyini və qiymətləndirildiyini göstərir. Araşdırılan arxiv blokları Naxçıvanın yalnız coğrafi mövqe kimi deyil, sərhəd, etno-dil tərkibi, kommunikasiya və siyasi simvolizm baxımından strateji düyün kimi qəbul olunduğunu sübut edir.

Buradan iki mühüm nəticə çıxır: Birincisi, 1941-ci ildə Naxçıvanın xarici kəşfiyyat və idarəçilik sənədlərində ayrıca dosye kimi işlənməsi bölgənin öz geosiyasi çəkisini tarixi reallıqlarla təsdiqləyir. Bu, Naxçıvanın tarixi rolunun lokal yox, regional və transregional çərçivədə



formalaşdığını göstərir. İkincisi, RMfdbO və PuSte materialları göstərir ki, Qafqazın etno-demoqrafik xəritələşdirilməsi təsadüfi hərbi planlaşdırma deyil, sistemli siyasi mühəndislik prosesinin tərkib hissəsi idi.

Bu sənədlər Naxçıvanın demoqrafik strukturunun, toponimlərinin və sərhəd nəzarət zolağının xüsusi analitik kateqoriyalarla işlənildiyini sübut edir.

Deməli, Naxçıvanın 1941-ci il arxiv bərpası təkcə tarixi faktların yenidən təsbit edilməsi deyil, həm də tarix şüurunun tənqidi açılması, Naxçıvanın beynəlxalq arxivlərdəki siyasi portretinin oxunması və bölgənin geosiyasi mahiyyətinin daha geniş miqyasda anlaşılması üçün yeni mərhələnin başlanğıcıdır. Başqa sözlə, Berlin arxivlərindəki bu sənədlər Naxçıvan haqqında sadəcə keçmişi danışmır – onlar gələcəyin tədqiqat istiqamətlərini də müəyyən edir.

***Yunis XƏLİLOV,***
***Naxçıvan Dövlət Universiteti ümumi hüquq kafedrasının müəllimi***

# Müstəqil ölkəmiz çağdaş hünər və qeyrət meydanıdır

## *Azərbaycan gəncliyi bu əqidə və düşüncə ilə yaşayır*



**Hər millətin inkişaf və tərəqqisi, ilk növbədə, onun elm və dərin biliklər əxz etməsindən asılı olur. Bəllidir ki, təhsilsiz, savadsız millət irəli gedə bilməz. Müdriklərin qeyd etdiyi kimi, elmsiz cəmiyyət tufanlı dəryada kompassız gəmi kimidir.**

Cəmiyyətin tərəqqisi üçün elm və təlimdən heç də az əhəmiyyəti olmayan digər amil mənəviyyat məsələsidir. Zaman göstərir ki, soykökünə, adət-ənənələrinə, milli-mənəvi, əxlaqi dəyərlərinə sahib çıxmayan, ana dilinə xor baxan toplumlar gec-tez tarix səhnəsindən silinib məhv olurlar. Haqqa, insafa, ədalətə tapınmayan xalqlar ağır fəsadlarla üzləşirlər.

Müstəqil Azərbaycan dövləti gələcək nəslin yüksək səviyyədə təhsilinə və milli ruhda tərbiyə olunmasına böyük önəm verir. Bakı Slavyan Universitetinin professoru, filologiya elmləri doktoru Şahbaz Şamıoğlu bizimlə bu mövzuda danışarkən qeyd etdi ki, bu müdrik siyasətin bünövrəsini Ulu öndər Heydər Əliyev qoyub. Prezident İlham Əliyev xalqımızın parlaq gələcəyinə xidmət edən bu müdrik xətti böyük uğurla davam etdirir. Xoşbəxtlikdən, bu gün ölkəmizdə Vətənə, dilimizə, dəyərlərimizə qəlbən bağlı olan nəsil yetişir.

2020-ci ilin payızında igid əsgər və zabitlərimiz doğma Qarabağımızda bütün dünyanı heyrətə gətirən möhtəşəm tarixi Zəfərə imza atdılar. Onlar 44 günlük şanlı savaşda canları, qanları bahasına xalqımızın şərəf və qeyrət səhifəsini yazdılar. 30 ilə yaxın ərazilərimizi işğal altında saxlayan düşmən əzəli torpaqlarımızdan qovuldu.

Xalqımızın qəhrəman oğulları Mübariz İbrahimov, polkovnik Şükür Həmidov, general Polad Həşimov və digərlərinin heyrətamiz vətənpərvərlik nümunələri bugünkü və gələcək nəsillər üçün əbədi qürur mənbəyidir. Bəli, Azərbaycan bu müqəddəs torpaq uğrunda əziz canlarından keçməyi bacaran qəhrəmanların yurdudur!

Bu yazının müəllifi həmkarı, jurnalist Kəmalə Abdinova ilə birlikdə 2020-ci il noyabrın 6-da Azərbaycan mədəniyyətinin tacı sayılan Şuşaya üçrəngli bayrağımızı sancanlardan biri, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Xüsusi Təyinatlılarının polkovniki Rəşad Aslanovdan müsahibə götürmək xoşbəxtliyi nəsib olub. Qusarda doğulub boya-başa çatan Rəşad Qarabağ Zəfərində payı olduğu üçün haqlı olaraq çox qürurlu idi. O, nəql etdi ki, onun taleyində Xalq şairi Bəxtiyar Vahabzadənin böyük rolu olub. Belə ki, illər öncə böyük şair bir dəfə Rəşadın Bakıda təhsil aldığı "Anadolu" türk liseyinə görüşə gəlmişdi. Qarabağdan söz düşəndə böyük şair birdən-birə kövrəlib. Məhz həmin an Rəşad özünə söz verib ki, liseyi bitirəndən sonra ali hərbi təhsil alaraq düşməndən qisas alacaq.

Rəşad Aslanov liseyi bitirib sınaq imtahanlarından 687 bal toplamışdı. Çoxları gözləyirdi ki, o, bu yüksək balla ya Bakı Dövlət Universitetinin hüquq fakültəsinə, ya da Azərbaycan Tibb Universitetinə daxil olacaq. Hər iki ali təhsil ocağında ödənişsiz oxuya bilərdi. Amma Rəşad yuxarıda qeyd etdiyim kimi, zabit olmağa qərar vermişdi. Heydər Əliyev adına Ali Hərbi Məktəbin kursantı oldu. Burada təhsil aldığı və sonrakı illərdə həm ölkəmizdə, həm də qardaş Türkiyədə keçirilən hərbi hazırlıq təlimlərində can-başla iştirak etdi. Hərb elmində dərin biliklər və təcrübə qazandı. 2016-cı ilin Aprel döyüşlərində qeyri-adi şücaətlər göstərdi.

Rəşad həyatının ən böyük imtahanını isə İkinci Qarabağ müharibəsi zamanı verdi. Onun başçılıq etdiyi xüsusi təyinatlı döyüşçülər dəstəsi Füzulidən başlayaraq Hadrut yolu ilə Şuşa istiqamətindəki ağır döyüşlərdə şücaətlər göstərib düşmənə sarsıdıcı zərbələr endirdilər. Şuşa uğrunda döyüş isə dünya hərb tarixinə qızıl hərflərlə yazıldı.

Bu məqamda xüsusi vurğulamaq istəyirəm ki, müasir dövrdə gənclərimiz təkcə ağır döyüşlərdə qeyrət və hünərləri ilə deyil, həm də elm, bilik cəbhəsində ağıl və zəkaları, istedadları ilə fərqlənirlər. Son illər dünyanın bir çox nüfuzlu elm və təhsil ocaqlarında oxuyan yüksək intellektli, kreativ gənc soydaşlarımızın hər dəfə mediada və sosial şəbəkələrdə yayılan uğurları barədə eşidəndə, əlbəttə, hər birimizin ürəyi sonsuz qürur hissilə döyünür.

Hazırda Kanadanın Toronto Universitetinin magistraturasında təhsil alan, eyni zamanda, bu ali təhsil ocağının bir qrup alimi ilə birlikdə nüfuzlu beynəlxalq proqram çərçivəsində onkoloji xəstəliklərin müalicəsi yolları üzərində gərgin araşdırma və tədqiqatlar aparan gənc alim Nazim Şıxkərimlidən necə yüksək qürur hissilə söz açmamaq olar?

Qəvvaslar dəniz və okeanların ən dərin nöqtələrinə enməkdən zövq aldıqları kimi, əslən Quba rayonunun İsnov kəndindən olan Nazim uzaq Kanadada elmin dərinliklərinə baş vurmaqla, təkcə özünə deyil, mənsub olduğu xalqa, vətəndaşı olduğu dövlətə də hörmət və izzət gətirir. Onun məramı insanlara sağlamlıq, şəfa bəxş etməkdir. Əzizimiz Nazim, çox böyük və şərəfli missiyadır!

Mən elmdə, istehsalatda, idmanda böyük uğurlar qazanan istedadlı gənclərimizdən də çox sayda nümunələr çəkə bilərəm. Amma buna ehtiyac görmürəm. Reallıq budur ki, azad və suveren Azərbaycanımızı dünya xalqları və dövlətləri arasında daha da irəli aparan vətənpərvər gənclərimizin sıraları daim artmaqdadır.

*Məsaim ABDULLAYEV*
*XQ*

# Cazmen Etibarın şəhid Xudayarla virtual dueti

## *Döyüşlərdən çıxmış "Vətən yaxşıdır" mahnısı 3 il əvvəl Notr-Damda ifa olunub*

**Parisdə Etibar Əsədli adlı gənc musiqiçi həmyerlimiz yaşayır. Cəmi 33 yaşı var. Azərbaycan cazının korifeyi Vaqif Mustafazadə yolunun istedadlı davamçılarındandır. Etibar artıq çağdaş dünya cazının tanınmış ulduzlarından sayılır.**




Fanatları Etibarın internet kanalları və sosial şəbəkələrdə yayımlanan caz kompozisiyalarına qulaq asmaqdan doymurlar. Onun bəstələrini dünyanın hər guşəsində dinləyənlərin sayı sürətlə artmaqda davam edir. Fikrimcə, Etibarın caz kompozisiyalarından doğma Xəzərin sahilində uyuyan Bakının, təkrarsız İçərişəhərin, Abşeronun azad ruhu hiss olunur.

Mən Etibarı İkinci Qarabağ müharibəsinin ağır, çətin anlarında bir daha kəşf etdim. Döyüşlərin ilk günlərində Qələbəmizin rəmzlərindən birinə çevrilən şəhid döyüşçü Xudayarın ifasında "Vətən yaxşıdır" mahnısı sosial şəbəkələrdə geniş yayılmışdı. Etibar dərhal bu populyar mahnının üzərində yeni caz kompoziyası hazırladı. Bunu bəstəkara heç kim sifariş etməmişdi. O, bunu qəlbinin hökmü ilə etmişdi.

Klipin sujet xətti belədir ki, Xudayarın ekranda döyüşçü dostları arasında "Vətən yaxşıdır" mahnısını böyük şövqlə ifa edir, Etibar isə döyüşçü-müğənnini pianoda müşayiət edir. Etibar Əsədli bununla öz vətənpərvərlik missiyasını bitmiş hesab etməyib. O, 2021-ci ilin 8 noyabrında, Şuşanın azad edilməsinin birinci ildönümündə Parisin dünya şöhrətli Notr-Dam kilsəsində həmin klipin təqdimatını keçirib.

Təqdimat günü bir qrup erməni terrorçusu kilsəni mühasirəyə alaraq Etibardan konserti dayandırmasını tələb ediblər. Lakin "bakılı bəstəkar" bu təhdidlərin qarşısında geri çəkilməyib. İsrarla bildirib ki, konsert mütləq baş tutmalıdır. Etibarın terrorçulardan qorxmadığını görən kilsənin rəhbərliyi polisə müraciət etməli olub. Fransa polisi terrorçuları ərazidən uzaqlaşdırıb. Zəfər konserti böyük təntənə ilə ifa baş tutub.

Yeri gəlmişkən, Etibar Əsədlinin "Xudayar" kompoziyasını şəhid döyüşçünün anası və qardaşı da izləyiblər. Şəhidin anası Radə Yusifzadə Etibarın anası – Azərbaycan Turizm və Menecment Universitetinin professoru, tarix elmləri doktoru Minəxanım Əsədliyə zəng vuraraq Etibara təşəkkür edib.

Professor dərhal Etibara telefon açıb və oğluna bu barədə məlumat verib. Etibar isə söyləyib ki, heç bir minnətdarlığa ehtiyac yoxdur. Onun üçün xalqının Xudayar kimi qəhrəmanını pianoda virtual olaraq müşayiət etmək son dərəcə böyük şərəfdir.

*M.HACIXANLI*
*XQ*

*Gəncliyin saf güzgüsü*

# Bir axşam avtobusdan düşəndə...

**Qoca işdən qayıdırdı. Avtobusa minib arxada bir yer tapıb əyləşdi. 15-20 dəqiqədən sonra mənzilinə çatacağını düşündü.**

Gombul sürücü, deyəsən, əsəbi idi. O, sükanı arxasında oturduğu böyük avtobusu sanki yarışa çıxarmışdı. Qarşıdakı bütün nəqliyyat vasitələrini ötüb keçməyə can atırdı. Tez-tez ayağını əyləcə basır və avtobusla bərabər sərnişinlər yerlərində bərk silkələnirdilər. Ara-sıra yaşlı qadınlardan kimsə deyinirdi də...

Qoca bir neçə dəfə ürəyində "Allah, sən bizi qəzadan saxla!" – desə də, narahatlığını üzə vurmaq istəmirdi. Canını dişinə sıxıb dözürdü. Nəhayət, mənzilbaşına çatmaq üzrə idi. Qoca qarşıdan gələn ikinci dayanacaqda düşməli idi. Dayanacaqlar arasında məsafənin nisbətən qısa olduğunu nəzərə alıb, bir qədər yerindən tez qalxıb avtobusun ikinci, sonuncu qapısına tərəf getmək istədi. Amma avtobus ləngərli hərəkət etdiyi üçün, az qala, müvazinətini itirib yıxılacaqdı.

Bundan narahat olan 33-35 yaşlı gənc qadın cəld ayağa durub onun qolundan tutdu və qocanın əvəzinə "saxla!" düyməsini basmaq istədi. Qoca sonrakı dayanacaqda düşməli olduğu üçün başının hərəkəti ilə buna etiraz etdi.

Xanım, deyəsən, onu başa düşdü və düyməni basmayıb gözlədi. Eyni zamanda, yıxılmasın deyə qocanın qolunu buraxmadı. Avtobus növbəti dayanacağa çatıb dayandı. Yaşlı kişi xırıltılı səslə "sağ ol, qızım!" deyərək avtobusdan endi.



O, bundan sonra cəmi bir neçə dəqiqəlik yolu piyada getməli idi. İşdən çıxanda çox yorğun idi, indi isə birdən-birə özünü çox gümrah hiss etdi. Üzündə xəfif bir təbəssüm vardı və bu ovqat onu mənzilinə çatana qədər tərk etmədi.

Mənzilin zəngini basdı. Qapını evin xanımı açdı. Ərini işdən qayıdanda, adətən, yorğun, qaşqabaqlı görməyə adət edən arvadı bu dəfə onun ovqatının yaxşı olduğunun fərqinə vardı:

–Yəqin ki, maaşını almısan?

Bir neçə ay idi ki, idarədə maaşlar gecikirdi. Həyat yoldaşı məhz buna işarə edirdi.

–Yox, hələ verməyiblər. Amma demək istəyirəm ki, biz, həqiqətən, yaxşı xalqıq. Hələ də böyük-kiçik yeri bilən gənclərimiz qalıb. İstədi ki, avtobusda ona kömək etmək istəyən gənc xanımdan söz açsın. Nə üçünsə fikrindən daşındı.

Qoca bir stəkan çay içib kompüter stolunun arxasına keçdi və bu qeydləri edərək imza da qoydu:

*M.HACIXANLI*
*XQ*

# 3 ildə 25 müxtəlif obrazın ifaçısı



**Ayşən Əsədova 3 ilə yaxındır ki, Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında aktrisa kimi çalışır. Bu qısa vaxtda səhnədə 25-ə yaxın rəngarəng obraz yaradıb. Hər bir obrazın daxili aləmini, arzu və düşüncələrini özünəməxsus cizgilərlə, təbii boyalarla tamaşaçılara çatdırmağa çalışıb.**

Ayşən Bakı şəhərindəki 116 nömrəli tam orta məktəbi bitirib. Hələ məktəb illərindən incəsənətə böyük marağı olub. Vokal səsi, şirin ləhcəsi ilə məktəb tədbirlərində gözəl mahnılar oxuyub. Orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) nəzdində fəaliyyət göstərən Pedaqoji kollecdə təhsil alıb.

Lakin aktrisa olmaq, böyük səhnələrdə oynamaq arzusu onu heç vaxt tərk etməyib. 2016-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin teatr sənəti fakültəsinə qəbul olunub. Burada aktyor sənəti ixtisası üzrə təhsil alıb. Tələbəlik dövründə Akademik Milli Dram Teatrının səhnəsində "Sehrli sandıq" tamaşasında Sürməli qız rolunu məharətlə ifa edib.

Gənc aktrisa bizimlə söhbət zamanı təleyin onu Lənkəran teatrı ilə qovuşdurmasından, burada çalışan kollektivdən razılıq edərək dedi:

– Lənkəran Dövlət Dram Teatrını həyatımda ikinci universitet sayıram. Burada çox istedadlı və təcrübəli aktyorlar çalışırlar. Onlardan öyrənməli çox şey var. Mənə həm gənc, həm də qonaq olduğum üçün diqqət və qayğı göstərirlər. Sağ olsunlar!

Ayşən 2023-cü ilin yayında ölkə teatrları üzrə 100-dən artıq gənc aktyorun arasından müsabiqə yolu ilə seçilərək Laçın şəhərində keçirilən teatr layihəsində iştirak edib. Lənkəran teatrını təmsil edən aktrisa Laçında 20 gün ərzində müxtəlif rollarda dulla Elşadlının hazırladığı "Müqəssir" tamaşasında Bahar obrazını böyük həvəslə canlandırıb. Bahar obrazı onun karyerasında da ən uğurlu rollardan biridir.

Son vaxtlar lənkəranlı teatrsevərlər Ayşən Əsədovanın dahi bəstəkar Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasında oynadığı Telli rolunu xüsusilə çox bəyəniblər. Teatr bilicilərinin rəyi belədir ki, aktrisa rejissorun verdiyi yumoristik mizanları dəqiq yerinə yetirməklə yanaşı, bu parlaq obraza qəlbinin arzu və istəklərini, hərarətini də qatıb. Bir sözlə, Ayşənin "Telli"sini bəyənməyən yoxdur.

Hazırda istedadlı gənc aktrisa Ayşən Əsədova tanınmış yazıçı-dramaturq Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" əsəri əsasında hazırlanan yeni tamaşada



qüvvəsini sınayıb. Onun tanınmış rejissor Nicat Kazımovun quruluşunda "Sevil" tamaşasındakı Dilbəri xüsusilə uğurlu alınıb.

Son illər aktrisa Lənkəran Dövlət Dram Teatrının səhnəsində bir çox yaddaqalan obrazlar yaradıb. Ə.Haqverdiyevin "Kimdir müqəssir" əsəri əsasında rejissor Abəsas rollardan olan Fənayə obrazı üzərində məşq edir. Teatrın yaradıcı kollektivi onun bu rolun da öhdəsindən bacarıqla gələcəyinə, tamaşaçılara yeni sənət sevincləri bəxş edəcəyinə əmindir.

*Əlisəfa HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

*Təqdimat*

# Mirzə Qədim İrəvani irsi “Xalq əmanəti” layihəsində

**ASC “Xalq” Bankının həyata keçirdiyi, xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədi daşıyan “Xalq əmanəti” layihəsinin 26-cı nəşri XIX əsrin görkəmli rəssamı, Azərbaycanın dəzgah boyakarlığının banisi Mirzə Qədim İrəvaniyə həsr olunub.**






Prezident İlham Əliyevin sərəncamına əsasən, ölkəmizdə 200 illiyi müxtəlif yubiley tədbirləri ilə qeyd olunan təsviri sənət ustasının həyat və yaradıcılığından bəhs edən bədii albom Azərbaycan, ingilis və rus dillərində hazırlanaraq nəfis tərtibatda nəşr edilib. Azərbaycan rəngkarlığının təşəkkülündə əhəmiyyətli rol oynamış böyük sənətkarın əsərlərindən ibarət sərgi isə dekabrın 4-dən etibarən “Xalq” Bankının əsas binasında yerləşən rəsm qalereyasında nümayiş olunur.

Albomun təqdimat mərasimində bildirilib ki, əsərləri dünyanın məşhur muzeylərində və kolleksiyalarda sərgilənən rəssam ilk vaxtlar şüşə və parça üzərində şəkillər çəkmiş, portret və ornamental kompozisiyalar ustası kimi məşhurlaşmışdır. Sonralar isə sənətkar, əsasən, tikmə üçün trafaret, divar naxışları, zərgərlik məmulatları, rəsm əsərləri və şüşə rəssamlığı ilə tanınmışdır. Mirzə Qədimin incə naxış və bənzərsiz ornamentlərlə işlənmiş tabloları, monumental portret və kompozisiyaları, qiymətli sənət nümunələri milli sərvətə çevrilib.

Azərbaycan təsviri sənət tarixində yeni mərhələnin başlanğıcını qoymuş İrəvaninin “Gənc qadının portreti”, “Gənc oğlanın portreti”, “Fətəli şahın portreti”, “Rəqqasələr”, “Molla” əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, “Mah Tələtin portreti” Gürcüstan Dövlət İncəsənət Muzeyində, “Quş və çiçəklər” isə Rusiya Dövlət Ermitajında qorunub saxlanılır. Görkəmli rəssam 1850-ci illərdə İrəvandakı Sərdar sarayının divarlarında yağlı boya ilə çəkilmiş 4 böyük portretin də müəllifidir. Onun yaradıcılığında Sərdar sarayını bəzəyən divar rəsmləri və rəngkarlıq əsərləri xüsusi yer tutur. Rəssamın günümüzə çatan əsərləri İrəvan diyarının və bütövlükdə, Azərbaycanın mədəni irsini zənginləşdirmişdir.



Xatırladaq ki, ASC “Xalq” Bankının 2010-cu ildən gerçəkləşdirdiyi “Xalq Əmanəti” layihəsi çərçivəsində Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin görkəmli nümayəndələrinin yaradıcılığına müraciət olunur, bədii əsərlər və sənət nümunələri ana dilindən əlavə, ingilis, rus dillərində də çap olunaraq geniş yayılır. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələrinə, uşaq evləri və kitabxanalara, fondlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və ölkəmizin xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzey və kitabxanalarına, sənətsevərlərə hədiyyə edilir.



Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Tağı Tağıyev, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, əməkdar rəssam Cahid Camal, Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, eləcə də əməkdar incəsənət xadimi Vəcihə Səmədova, Kamal Əhmədlə yanaşı, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hökumə Billuri, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Güney Azərbaycan şairlərinin əsərlərindən ibarət antologiya, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin “Azərbaycan sikkələri” kitabı, “Aşıq ədəbiyyatı antologiyası” üççildliyi, həmçinin dünyaşöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində “Bütün əsərləri” işıq üzü görüb.

***Mehparə ƏLİYEVA***
***XQ***

# “Yerin məsafədən müşahidəsi” müsabiqəsinin qalibləri

**Dünən “Azərkosmos” tərəfindən təşkil olunan “Yerin məsafədən müşahidəsi” üzrə ənənəvi müsabiqənin təltifetmə mərasimi keçirilib. Builki müsabiqə “Gələcəyin xəritəsi” mövzusunda baş tutub və Vətən müharibəsində qazanılmış Zəfərin 5 illiyinə həsr olunub.**













Müsabiqə son illərdə ölkəmizdə peyk təsvirləri və Coğrafi İnformasiya Sistemlərinə (CİS) marağın artmasına mühüm töhfə verir. 2025-ci il üzrə müsabiqəyə ümumilikdə 293 müraciət daxil olub. Onlardan 74 layihə təqdim edilib və yalnız 50-si final mərhələsinə keçib. Layihələr arasında süni intellekt, rəqəmsal həllər, Qarabağ mövzusu, ətraf mühit, xəritəçəkmə və digər istiqamətlər üzrə işlər yer alıb.

“Azərkosmos”un İdarə Heyətinin sədr müavini və Münsiflər Heyətinin sədri Fuad Aslanov çıxış edərək ölkəmizdə kosmik maarifləndirmə və geoinformasiya sahəsinin inkişafında müsabiqənin rolunu vurğulayıb.

Tədbir çərçivəsində interaktiv formatda viktorina da keçirilib. İştirakçılar peyk təsvirləri, CİS texnologiyaları və məsafədən müşahidə mövzularında biliklərini sınayıblar. Ən yüksək nəticə göstərən beş iştirakçı “Esri ArcGIS Pro” platforması üçün 1 illik lisenziya ilə mükafatlandırılıb.

Münsiflər heyətinin üzvləri Coğrafi İnformasiya Sistemləri üzrə müstəqil ekspert, fəlsəfə doktoru, professor Rauf Əmənov və fəlsəfə doktoru Rüstəm Rüstəmov təqdim olunan işlərin elmi, texniki və tətbiqi dəyəri haqqında çıxışlar etdilər. Builki müsabiqənin yeniliklərindən biri də 5 müxtəlif nominasiya üzrə əlavə mükafatların təqdim edilməsi olub. Sonra qaliblər elan edilib: ən yaxşı ətraf mühitə təsirin qiymətləndirilməsi – Mehrin Əzizli, ən yaxşı rəqəmsal həll – Məleykə Paşayeva, ən yaxşı süni intellekt həlli – Ərtuğrul Qayıbov, ən yaxşı dəqiq əkinçilik layihəsi – Nahid Məmmədov, ən yaxşı xəritə dizaynı – Fidan Valehova layiq görüldülər. Hər bir nominasiya qalibi 500 AZN pul mükafatı və 1 illik “ArcGIS Pro” lisenziyası ilə təltif olundular.

Tədbirin ən həyəcanlı hissəsində isə əsas üç yer üzrə qaliblər elan edildi: III yer Fəqan Umarov “Torpaq Səthinin Müşahidə Sistemi” layihəsi, II yer Fatma Elik (Türkiyə) “HydroAlert Azerbaijan: AI-Powered Flood Monitoring and Forecasting System”, I yer Aysel Səlimova “Ağdam rayonunda torpağın orqanik karbonunun CİS və Məsafədən Müşahidə metodları əsasında proqnozlaşdırılması” layihələri layiq görüldü. Qaliblər diplom və xüsusi mükafatlarla təltif olunublar.

Qaliblər arasında Türkiyə vətəndaşının da yer alması artıq müsabiqənin təkcə ölkə daxilində deyil, beynəlxalq səviyyədə də qəbul olunduğunu göstərir. Bu “Azərkosmos”un təşəbbüsünün regional miqyasda maraq yaratdığını və peyk məlumatları üzrə elmi-texniki əməkdaşlığın genişləndiyini təsdiqləyir.

***Müşfiq MİRZƏ,***
***Rauf İBRAHİMOV (foto)***
***XQ***

*Nadir Əbdürrəhmanov – 100*

# Milli rəngkarlığımızın nadir sənətkarı

**Tanınmış Azərbaycan rəssamı Nadir Əbdürrəhmanov düz 1 əsr əvvəl, dekabrın 5-də Laçın rayonunun Abdallar kəndində dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra sənət sevgisi onu Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə gətirib. İkinci Dünya müharibəsi zamanı burada, davadan sonra isə Repin adına Leninqrad boyakarlıq, heykəltəraşlıq və memarlıq İnstitutunda təhsil alıb. Rəssamın gərgin yaradıcılıq fəaliyyətinin məhsulları olan əsərləri ölkəmizin və dünyanın muzeylərini bəzəyir.**

Ötən əsrin 90-cı illərinin əvvəllərində dövlət televiziyasının ədəbi-dram verilişləri baş redaksiyasının “İncəsənət” şöbəsində çalışırdım. Bir gün Rəssamlar İttifaqında Nadir Əbdürrəhmanovla görüşdüm və onun kimi, mənim anamın da laçınlı olduğunu, özümünsə o dağlar diyarına çox getdiyimi bildirdim. Gözləri yol çəkən rəssam “Nə gözəl!” – dedi və Laçın haqqında duyğu dolu söhbətlər etdi. Erkən yaşlardan məhz o dağların “diktə”si ilə rəssamlığa könül verdiyini söylədi. Sonda isə bildirdi ki, həyatda qazandığı hər şeyə görə dağlara borcludur.



Rəssamın ata yurdu Abdallar kəndi bu adlı qədim türk tayfasına aid məskəndir. Zamanında duyğulu insanlar kimi tanınan abdallara “haqq aşıqləri”, “taxta qılınclı divanə dərvişlər” deyiblər. Bir vaxtlar qısa müddətdə olsa da, Laçın Abdallar adlanıb. Nadir Əbdürrəhmanovun təsəvvüfdə mənəvi baxımdan yüksək məqama yetmiş insanların nəslindən olması onun istedadının əsl mənbəyinin haradan gəldiyinə dəlalət edir.





Ailəsi Bakıya köçəndən sonra dağlar üçün darıxan gənc xəyalındakı təbiət möcüzələri ilə daim “həmsöhbət” olub. Çəmbərəkənddəki birotaqlı dar evlərində rəssamlığa bağlılığı onu rahat buraxmayıb və anasının icazəsi ilə döşəmədə təbaşirlə rəsmlər çəkib. Ondan 11 yaş böyük olan yaxın qohumu – rəssam və gələcəyin böyük heykəltaraşı Cəlal Qaryağdı ilə birgə eskizlər hazırlayıb. Orta məktəbi bitirdikdən sonra da elə onun xeyir-duası ilə bu sənətin arxasınca gedib. Məşhur rəssamlar Mikayıl Abdullayev və Böyükağa Mirzəzadədən dərs alıb.

Nadir Əbdürrəhmanov həm özünün nadir əsərlərini yaradıb, həm də 30 il Rəssamlıq Məktəbində müəllim kimi çalışaraq, gənc fırça ustalarının yetişməsində müstəsna xidmətlər göstərib. O, 1984-cü ildən İncəsənət İnstitutunun professoru kimi çalışıb, Rəssamlıq Akademiyasında yaradıcılıq emalatxanasının rəhbəri olub. Əməkdar incəsənət xadimi, Xalq rəssamı fəxri adlarını alıb. Respublika Ali Sovetinin deputatı olub. “Şöhrət” ordeninə layiq görülüb. Ağsaqqal yaşında Prezidentin fərdi təqaüdçüsü olub.

Sənət yolunda qazandığı ilk uğurları həmin dövrdən Nadir Əbdürrəhmanovu istedadlı fırça ustası kimi tanıdıb. Təsvirlərindən boy göstərən yeni forma axtarışları, sərt realist üslub və miniatür sənəti ilə səsləşən orijinal dəst-xətti, kolorit zənginliyinə xüsusi diqqət yetirməsi rəssamın özünəməxsus üslubunun formalaşmasında mühüm rol oynayıb. Onun müxtəlif janrlarda yaratdığı iriformatlı süjetli lövhələr qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizə daxil olub. Palitra əlvanlığı ilə “gəl-gəl” deyən və geniş diapazona malik olan bu əsərlər Azərbaycan Dövlət İncəsənət Muzeyinin, eləcə də sərgi və qalereyaların ekspozisiyalarında nümayiş etdirilib.

Rəssamın xalqımızın tarixi keçmişini rənglərin dili ilə dolğun əks etdirən tabloları yurd sevgisi və milli qürur hissi aşılayır. Onun kompozisiya yığcamlığı və emosional təsir gücü ilə fərqlənən əsərlərini başqaları ilə dəyişik salmaq mümkün deyil. Nadir Əbdürrəhmanovun Azərbaycan incəsənətinin xaricdə tanıdılmasında xidmətləri təqdirəlayiq olub. Xarici ölkələrə yaradıcılıq səfərlərinin məhsulu kimi meydana çıxan silsilə rəsmləri Azərbaycan incəsənətinə şöhrət gətirib. Zaman keçdikcə, dünyagörüşü nə qədər genişlənsə də, Laçının gözəl təbiəti - dağları, meşələri, çayları və bulaqları onu əsrarəngiz rənglər aləmi ilə hər vaxt bağrıbadaş saxlayıb.

Eyni zamanda, Nadir Əbdürrəhmanov özünü incəsənətin müxtəlif janrlarında uğurla sınayıb. Bu baxımdam sənaye mövzularını, portretləri, müxtəlif tarixi və müasir mövzulara həsr olunmuş kompozisiyalarını qeyd etmək olar. Amma yenə də onun yaradıcılığında mənzərə janrı əsas rol oynayıb, lirik əhval-ruhiyyəli tabloları ilə “təbiətşünas”lığını daim göstərib. Özü bu barədə deyirdi: “Tez-tez Laçına, digər gözəl diyarlara səfərlər edir, təbiətlə nəfəs alır, dağ adamlarının həyatını, gündəlik məşğuliyyətlərini, istirahətlərini müşahidə edirdim. Sonra gözümdə, könlümdə yer tutanları kətana köçürürdüm”.

Ziyarətçilər Milli İncəsənət Muzeyində qorunub saxlanılan “Dağlarda alaqaranlıq” əsərini görən kimi istər-istəməz ayaq saxlayırlar. Rəssam təbiətə səyahətləri zamanı çəkdiyi etüdlərdən də istifadə edərək bu möhdəşəm əsəri yaradıb. Yağlı boya ilə işlənmiş rəsmdə dağ həyatının ruhu, insanla təbiətin sıx təması özünü bariz göstərir. Rəssam öz qəhrəmanlarını axşam çağı istirahət zamanı təsvir edib. Dərin düşüncələrə dalmış başı çalmalı xanımların gözləri uzaqlara dikilib. Burada dağ yerlərinə xas element kimi xalça da var, arxa planda çəmənlik və dağlar da.

Nadir Əbdürrəhmanovun Moskva Dövlət Tretyakov Qalereyasında saxlanılan “Laçın” tablosu rəngli çalarların vəhdəti ilə diqqət çəkir. Əsər ən doğma, ən munis duyğuların məhsuludur. Təbiət fonu, landşaft özəlliyi rəsmin əzəmətini daha da artırır. Qarlı dağların ətəyində təsvir olunmuş evlər görünür. Adam bir anlıq özünü o yerlərdə hiss edir.

Rəssamın Qarabağa, Şuşaya həsr etdiyi tabloları, “Minkənd”, “Zəngilan”, “Laçın dağlarında axşam” əsərləri həm təbiət mənzərələrini, həm də kənd həyatının əlvan rənglərini əks etdirir. Buradaca deyək ki, o gözəl yerləri nankor qonşuların işğal etməsini sənətkar öz şəxsi faciəsi kimi qəbul edirdi. 2008-ci ildə dünyasını dəyişən Nadir Əbdürrəhmanov əzəli torpaqlarımızın azadlığa qovuşmasını görə bilmədi. Amma əminik ki, bu, ona əyan olub və ruhu şaddır.

***Əli NƏCƏFXANLI***
***XQ***

*I Türkoloji Qurultay – 100*

# Tarixi Bakı məclisinin ideyalarını dirçəltmiş türkoloq

**Türkoloji qurultayın 100 illik yubileyi ilə bağlı ölkə Prezidentinin sərəncamı respublikamızda türkologiya elminin tarixinə geniş miqyasda nəzər salmaq üçün də meydan açmışdır.**



1969-cu ildə Azərbaycan Dövlət Universitetində türkologiya kafedrasının açılması 1937-ci ilin repressiyalarında ağır zərbə almış milli türkologiya məktəbinin dirçəldilməsində və inkişaf etdirilməsində önəmli rol oynamışdır. Kafedranın yaradılmasında və ona rəhbərlik edilməsində fədakarlıq göstərmiş Türk dünyasının görkəmli türkoloqu Fərhad Ramazan oğlu Zeynalovun xidmətləri əlamətdar yubiley ərəfəsində qədirbilənliklə xatırlanır.

**Müsahibimiz unudulmaz türkoloqun istedadlı yetirmələrindən biri, BDU-nun türkologiya kafedrasının professoru Elbrus Əzizovdur.** Xatırladaq ki, o, Fərhad Zeynalovun vəfatından sonra müəlliminin və həmkarının xatirəsinə elmi-biblioqrafik yazı hazırlayıb çap etdirmişdir. Həmin məqalə Türkiyədə də filologiya fakültəsinin mərhum professoru Abbas Zamanovun təqdimatı ilə işıq üzü görmüşdür. Yazı qardaş ölkədə "Görkəmli türkoloq" adı ilə çap olunmuşdur.

***– Elbrus müəllim, türkoloq alim, professor Fərhad Zeynalovun xidmətləri bu günümüzün aynasında necə görünür?***

– Azərbaycanda türkologiya elminin inkişafında böyük xidmətləri olmuş mərhum professor Fərhad Zeynalov ölkəmizin elm və təhsil tarixində özünəməxsus yer tutan görkəmli dilçi alimdir. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil aldığım illərdə onun mühazirələrini dinləmiş bir tələbə, Fərhad müəllimin müdir olduğu türkologiya kafedrasının ilk aspirantı, nəhayət, onunla birgə işləmiş müəllim kimi bu böyük elm xiridarı haqqında təkrar-təkrar yazmağı özümə həmişə mənəvi borc bilmişəm. Görkəmli alimin həyat yolu, zəngin elmi-pedaqoji fəaliyyəti elm və təhsil sahəsində çalışan yeni nəsil üçün örnək ola bilər.

Fərhad Ramazan oğlu Zeynalov 1929-cu il iyunun 22-də Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərində anadan olmuşdur. Onun uşaqlıq illəri çətinliklər içində keçmişdir. Atası II Dünya müharibəsində həlak olmuş, az sonra anasını da itirmişdir. 1948-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olmuş, 1953-cü ildə həmin fakültəni Azərbaycan dili və ədəbiyyatı, məntiq və psixologiya ixtisası üzrə fərqlənmə diplomu ilə bitirmiş və aspiranturada saxlanmışdır. 1953-1956-cı illərdə Moskva Dövlət Universitetinin Ümumi və tipoloji dilçilik kafedrasının aspirantı olmuş, məşhur türkoloq professor N.A.Baskakovun elmi rəhbərliyi ilə 1957-ci ildə "Nitq hissələrinin təsnifi prinsipləri (adlar)" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Fərhad müəllim pedaqoji fəaliyyətə 1957-ci ildə ADU-nun Ümumi dilçilik kafedrasında başlamışdır. Alimin elmi fəaliyyətinin əsas istiqamətini türk dillərinin qrammatik quruluşunun öyrənilməsi təşkil edirdi. Bu sahədə gərgin əməyinin nəticəsi olaraq o, 1966-cı ildə "Müasir türk dillərində köməkçi nitq hissələri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1968-ci ildə professor elmi adını almışdır. Fərhad Zeynalov 1969-cu ilin noyabrından ömrünün sonunadək universitetdə özünün təşəbbüsü ilə açılmış Türkologiya kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Azərbaycanda ilk türkoloji araşdırmalar XX əsrin 20-30-cu illərində aparılmış, lakin 1930-cu illərin məlum repressiyaları nəticəsində sonrakı illərdə bu sahədə tədqiqatlar, demək olar ki, dayanmışdı. Yalnız XX əsrin 50-ci illərinin axırlarından respublikamızda türkologiyanın ikinci dirçəliş mərhələsi başlamışdır. F.Zeynalovun türkologiyaya gəlişi məhz həmin dövrə təsadüf edir.

Azərbaycanda türkologiyanın inkişafında professor Fərhad Zeynalovun mühüm xidmətləri olmuşdur. O, "Türkologiyaya giriş", "Qədim türk yazılı abidələri", "Türk dillərinin müqayisəli qrammatikası" fənlərinin Azərbaycan Dövlət Universitetində tədrisində bu fənlərə aid proqram, dərslik və dərs vəsaitlərinin hazırlanması və nəşri sahəsində böyük işlər görmüşdür. Türk dillərinin görkəmli tədqiqatçısı az müddət ərzində 2 hissədən ibarət olan "Türk dillərinin müqayisəli qrammatikası" (1974; 1975), "Qədim türk yazılı abidələri" (1980) dərs vəsaitlərini, "Türkologiyanın əsasları" (1981) dərsliyini hazırlayıb çap etdirmişdir. Ali məktəblərin filologiya fakültələrinin tələbələri üçün yazılmış "Türkologiyanın əsasları" dərsliyi keçmiş sovet məkanında ilk təşəbbüs kimi elmi-pedaqoji ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdı. "Maarif" nəşriyyatında 4 min tirajla nəşr olunmuş bu əsər təkcə mütəxəssislərin deyil, filoloq olmayan oxucuların da marağına səbəb olmuşdur. Dərslikdə türk dillərinin qədim tarixi, inkişaf dövrləri, mənşəyi, fonetik, leksik, qrammatik quruluşu, habelə ayrı-ayrı dillərin ortaq və fərqli xüsusiyyətləri haqqında dəyərli məlumatlar yer almışdı. Sovet rejimi dövründə belə bir əsərin nəşri Azərbaycanda türkoloji dilçiliyin inkişafına təkan vermiş, sonralar müstəqillik dövründə bu əsərin təsiri ilə "Türkologiyaya giriş" adlı bir neçə dərslik də nəşr olunmuşdur.

***– Fərhad Zeynalovun müasir türk dillərindəki araşdırmaları ilə bağlı elmi fəaliyyətinin əhatə dairəsi barədə nə deyə bilərsiniz?***

– Fərhad Zeynalovun çap olunmuş əsərlərinin sayı 70-dən çoxdur. Sağlığında onun 12 kitabı nəşr olunmuşdur. Bu əsərlər içərisində "Müasir türk dillərində köməkçi nitq hissələri" (1971) monoqrafiyası türkologiyada yüksək qiymətləndirilmiş araşdırmadır. Görkəmli alimin türk dillərinin fonetika, leksika və morfologiyasını əhatə edən irihəcmli "Türk dillərinin müqayisəli qrammatikası" (353 s.) əsəri müəllifin vəfatından 24 il sonra 2008-ci ildə işıq üzü gördü.

Türkologiyanın aktual problemləri F.Zeynalovun tədqiqatlarının mərkəzində olmuşdur. Bu cəhətdən "Tərz kateqoriyası və onun türk dillərində təzahürü məsələsi" (1972), "Müasir türk dillərində analitik yolla yaranan feil formaları" (1977), "Türk dillərində mürəkkəb feil problemi" (1983) və s. məqalələri türkologiyanı daha da zənginləşdirmişdir. Alimin bir sıra məqalələri keçmiş SSRİ-nin elmi mərkəzlərində, Berlin, Paris, Budapeşt, Ankara və İstanbulda nəşr olunmuşdur.

***– Unudulmaz türkoloqun elmi yaradıcılığının mühüm bir hissəsi türk dillərinin yazılı abidələrinin araşdırılmasına həsr olunub. Bu əsərlər zaman keçdikcə dəyərini artırır.***

– Bəli, Fərhad müəllim türkologiyanın novator tədqiqatçısı idi. Yəqin ki, ömür vəfa etsəydi, o, türkologiyanın açılmayan səhifələrini qətiyyəti və zəhməti sayəsində yazıb üzə çıxaracaqdı. F.Zeynalov ömrünün son illərində türk dillərinin yazılı abidələrinin öyrənilməsinə xüsusi diqqət yetirmişdir. Onun kafedramızın fədakar alimlərindən biri, mərhum professor Samət Əlizadə ilə birlikdə tərtib etdiyi "Kitabi-Dədə Qorqud" eposu 1988-ci ildə görkəmli türkoloqun vəfatından dörd il sonra nəşr olundu. Bu nəşr abidənin əvvəlki nəşrlərindən bəzi məziyyətləri ilə fərqlənir. Belə ki, burada əsərin Drezden və Vatikan nüsxələri nəzərə alınmaqla elmi-tənqidi mətn verilmiş, mətnin transkripsiyası əlyazmanın orfoqrafiyasına xeyli yaxınlaşdırılmışdır. Bundan başqa, tərtibçilərin kitaba mətnin sadələşdirilmiş variantını da daxil etməsi onun oxucu dairəsini daha da genişləndirmişdi.

Fərhad Zeynalovun 1974–1975-ci illərdə 2 hissədə nəşr olunmuş "Türk dillərinin müqayisəli qrammatikası" əsərinin Yusif Çedikli tərəfindən türk dilinə tərcümə edilərək 1993-cü ildə İstanbulda "Türk lehçelerinin karşılaştırmalı dilbilgisi" adı ilə nəşr edilməsi də alimin xatirəsinə böyük ehtiram əlamətidir.

***– Qeyd etdiyiniz kimi, türkologiyanın cəfakeşi olmaqla yanaşı, qarşısındakı tələbənin qiymətini, elmi dəyərini bilməkdə, universitetə potensial imkanlı kadrların cəlb olunmasında milli təəssübkeşlik göstərməkdə də Fərhad müəllimin zəhməti danılmazdır.***

– Bəli, Fərhad müəllim yeri görünən, sözün böyük mənasında xeyirxah müəllim, əsl ziyalı idi. Yeri gəlmişkən, bu barədə maraqlı faktlar açıqlayacağam. Elmi kadrların hazırlanması sahəsində də F.Zeynalovun xidmətləri çox olmuşdur. Onun elmi rəhbərliyi ilə bir neçə tədqiqatçı namizədlik dissertasiyası müdafiə etmiş, bir sıra türk xalqlarının (qazax, qaraqalpaq, qumuq, balkar, çuvaş) nümayəndələri onun rəhbərlik etdiyi Türkologiya kafedrasının yaxından köməyi ilə alimlik dərəcəsi almışdır.

Gərgin elmi axtarışları, həyatda və elmdə öz sözünü deyə bilmək bacarığı, nəhayət, gözəl təşkilatçılıq qabiliyyəti işlədiyi kollektivdə və elmi ictimaiyyət arasında ona böyük nüfuz qazandırmışdı. F.Zeynalov görkəmli alim olmaqla yanaşı, eyni zamanda həssas, qayğıkeş insan, tələbkar müəllim idi. O, bizim nəslin müəllimi idi. Fərhad müəllim adam tanıyan, zənnində yanılmayan bir insan idi, elmə gələn və ya gəlmək istəyən tələbələrinə qayğı göstərər, köməyini əsirgəməzdi. Bu sətirləri yazarkən Fərhad müəllimin mənə göstərdiyi etimaddan danışmaya bilmirəm.

4-cü kursda oxuyanda o, bizim qrupda "Türkologiyaya giriş" fənnindən mühazirə oxuyur, türk dillərinin tarixindən, bu dillərin quruluşundan, ortaq və fərqli xüsusiyyətlərindən danışırdı. Bütün bunlar bizim üçün yeni idi. Buna görə də Fərhad müəllimin mühazirələrini səbirsizliklə gözləyir, böyük maraqla dinləyirdik. 1970-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirib Yevlax şəhərində orta məktəbdə dil-ədəbiyyat müəllimi vəzifəsində işləsəm də, yenidən universitetə qayıdıb təhsilimi aspiranturada davam etdirmək istəyirdim.

1971-ci ildə Azərbaycan Dövlət Universitetində aspiranturaya qəbulda yeni açılmış Türkologiya kafedrasına da "Türk dilləri" ixtisası üzrə bir yer verilmişdi. Fərhad müəllim həmin yer üçün təcili olaraq əlaçı bir məzun axtarır. Universiteti əla qiymətlərlə bitirib filologiya fakültəsində saxlanmış tələbə yoldaşım bu məsələdən söhbət düşəndə mənim adımı çəkir. Fərhad müəllim deyir ki, mən onu tanıyıram, xəbər ver, istəyirsə gəlsin. "İstəyirsə gəlsin" nədir, bu xəbəri eşidəndə uçmağa qanadım olmadı. Yaxşı deyiblər ki, niyyətin hara, mənzilin ora. Bakıya gəlib sənədlərimi aspirantura şöbəsinə verdim, may ayında keçirilən qəbul imtahanlarında iştirak etdim və qəbul oldum. Bu mənim həyatımda unudulmaz günlərdən biridir.

Yeri gəlmişkən deyim ki, Fərhad müəllimin mənə göstərdiyi etimadı doğrulda bildim. Fərhad müəllim kafedrada elə bir nizam-intizam yaratmışdı ki, zəhmətə qatlaşan və gələcəyi olan tələbələrə, elmi potensiallı gənc tədqiqatçılara müəllimlər hərtərəfli qayğı göstərirdilər. Və mən bu etimadı, xalq üçün, elmimiz üçün fədakarlıq edən əsl pedaqoq ziyalıları türkologiya kafedrasında görmüşəm. Professor Tofiq Hacıyevin elmi rəhbərliyi ilə namizədlik dissertasiyasını 1974-cü ilin mayında vaxtından əvvəl, yəni əyani aspirant müddətinin bitməsinə üç ay qalmış müdafiə etdim.

Fərhad müəllim daim irəliyə doğru can atan insan idi. Azərbaycanda türkologiya elminə böyük töhfələr vermiş alim və mahir pedaqoq 1984-cü il oktyabrın 16-da 55 yaşında ağır xəstəlikdən vəfat etdi. Görkəmli türkoloqun qəfil ölümü onu tanıyanları sarsıtdı.

Professor Fərhad Zeynalovun adı Azərbaycan Dövlət Universitetində Türkologiya kafedrasının yaradılmasında, respublikamızda sovet dövründə türkologiyanın inkişafında və bu elm sahəsinə aid fənlərin tədrisində böyük xidmətləri olmuş alim və pedaqoq kimi həmişə hörmətlə anılacaq.

***Söhbəti hazırladı:***
***Kəmalə ABDİNOVA***
***XQ***

*Yusif Məmmədəliyev – 120*

# Dünya şöhrətli kimyaçının xatirəsinə beynəlxalq konfrans

**Dekabrın 4-də görkəmli kimyaçı alim, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunan "Yusif Məmmədəliyev: Elm. İrs. İnnovasiyalar" adlı beynəlxalq konfrans öz işinə başlayıb.**




Azərbaycan elminin yetirdiyi parlaq sima və Azərbaycanda neft kimyasının bünövrəsini yaratmış alim kimi səciyyələndirdiyini vurğulayıb. Yusif Məmmədəliyev Azərbaycanın elm tarixinə neft–kimya məktəbinin banisi olaraq düşüb. AMEA rəhbəri akademik Yusif Məmmədəliyevin ölkəmizdə elmlə təhsilin inteqrasiyasına da daim diqqət yetirdiyini, Bakı Dövlət Universitetinin rektoru olduğu illərdə daim elmi nailiyyətlərin təcrübədə sınaqdan keçirilməsinə çalışdığını söyləyib.



Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Milli Elmlər Akademiyasının birgə təşkil etdiyi elmi məclis ölkəmizdə kimya elminin və sənayesinin inkişafında müstəsna xidmətləri olan akademikin elmi irsinin tədqiqi və çağdaş tələblər baxımından yenidən dəyərləndirilməsinə həsr olunub. İştirakçılar Fəxri xiyabanda akademik Yusif Məmmədəliyevin məzarını ziyarət ediblər. AMEA-nın Rəyasət Heyətinin binasında keçirilən açılış mərasimindən əvvəl isə yubilyarın həyat və fəaliyyətinə həsr olunmuş fotosərgiyə baxış keçirilib.

Təntənəli mərasim akademik Yusif Məmmədəliyevin ömür yolunu əks etdirən videofilmin nümayişi ilə başlanıb. İştirakçıları salamlayan elm və təhsil naziri Emin Əmrullayev bildirib ki, Yusif Məmmədəliyevin elmi irsi bu gün kimya sənayesində, elmi-tədqiqat müəssisələrində və ali təhsil proqramlarında geniş şəkildə tətbiq olunur. Alimin 120 illik yubileyi münasibətlə elm və təhsil müəssisələrində ölkə ictimaiyyətinə, alimlərə və tələbələrə onun həyat və elmi fəaliyyəti barədə ətraflı məlumat verən tədbirlər təşkil olunur, tələbələrə müvafiq mövzular üzrə tədqiqat tapşırıqları verilib.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli 2025-ci ilin Azərbaycan elmi ictimaiyyəti üçün bir çox tarixi faktlarla əlamətdar olduğunu söyləyib. Alim qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətimizin elm siyasəti və qayğısı nəticəsində Azərbaycan alimləri öz yaradıcı fəaliyyətləri ilə ölkəmizin inkişafına töhfə verirlər.

Akademik Yusif Məmmədəliyevin elmi irsinin daim ölkəmizin rəhbərliyi tərəfindən yüksək qiymətləndirildiyini deyən akademik İsa Həbibbəyli Prezident İlham Əliyevin akademikin 120 illik yubileyi ilə bağlı sərəncamında onu

Milli Məclis sədrinin müavini, akademik Rafael Hüseynov Yusif Məmmədəliyevin həyatı barədə maraqlı məqamları konfrans iştirakçılarının diqqətinə çatdırıb. Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev bildirib ki, Azərbaycanın ictimai və intellektual mühitində akademik Yusif Məmmədəliyevin timsalında onlarla, bəlkə də, yüzlərlə dünya şöhrətli alim yetişir və Azərbaycan xalqı artıq dünyanın elm mərkəzlərindən birinə çevrilir.

Konfrans iştirakçılarını salamlayan AMEA-nın müxbir üzvü, akademik Yusif Məmmədəliyevin qızı Sevda Məmmədəliyeva Yusif Məmmədəliyevin xatirəsinə göstərilən böyük ehtirama görə ölkə rəhbərliyinə dərin minnətdarlığını ifadə edib, konfransın bütün təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

Konfrans çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Səlim bin Məhəmməd əl-Malik və UNESCO-nun baş direktorunun müavini Lidiya Britonun videomüraciəti dinlənilib.

Sonra bir sıra yerli və xarici alimlər "AMEA-nın Yusif Məmmədəliyev döş nişanı" və "AMEA-80" döş nişanı ilə təltif ediliblər.

Konfransın birinci günündə dünyanın müxtəlif elm mərkəzlərini təmsil edən tanınmış alimlərin iştirakı ilə "Yusif Məmmədəliyevin elmi, pedaqoji və təşkilati fəaliyyəti: Azərbaycan və dünya elminin inkişafına verilmiş töhfə", "Kimya elmində müasir çağırışlar: varislik və innovasiyalar" və "Elmi irs və gələcəyin üfüqləri" mövzularında panel sessiyaları keçirilib.

Konfrans bu gün davam edəcək.

İştirakçılar alimin vətəni Naxçıvanda da olacaqlar.

***XQ***

*Beynəlxalq həyat*

# Ukraynada sülhə ABŞ və Avropanın baxışları

**Rusiya-Ukrayna münaqişəsinin həlli ilə bağlı səylər, hələ ki, bir nəticə vermir. Son günlər ABŞ tərəfindən təklif olunmuş və avropalılar tərəfindən yenidən işlənmiş plan da gözlənilən müsbət nəticədən çox uzaqdır. Son günlər bu təkliflər və onunla bağlı keçirilən görüşlər dünya mediasının diqqətini məşğul edən əsas məsələlərdir. Artıq Moskvada ABŞ nümayəndə heyətinin Rusiya prezidenti Vladimir Putinlə keçirdiyi görüşün yekunları haqqında da yeni fikirlər səslənməkdədir.**

ABŞ prezidenti Donald Tramp da bu həftənin əvvəlində Moskvada Ağ Ev sahibinin nümayəndəsi Stiv Uitkoff və kürəkəni Cared Kuşnerin Putinlə danışıqları ilə bağlı münasibətini açıqlayıb. O bəyan edib ki, Amerika nümayəndə heyətinin Moskvada Ukrayna nizamlanması üzrə danışıqları yaxşı keçib, lakin gələcək hadisələri müzakirə etmək hələ tezdir.

ABŞ prezidenti Ağ Evdə jurnalistlərə açıqlamasında deyib: "Bu, olduqca yaxşı danışıq oldu". Daha sonra isə Tramp Putinlə görüşü "çox yaxşı" adlandırıb. O qeyd edib ki, artıq Uitkoff və Kuşnerdən Rusiya prezidenti ilə danışıqların necə getdiyi barədə məlumat alıb: "Bu həftə Moskvaya səfər etmiş Stiv Uitkoff və Cared Kuşner Moskvanın Ukrayna böhranının həllində maraqlı olduğuna inanırlar. Onlar Rusiyanın bu münaqişəyə son qoymaq istədiyinə inanırlar". Trampın sözlərinə görə, Rusiya Ukrayna münaqişəsi bitdikdən sonra ABŞ-la ticarəti inkişaf etdirmək istəyir.

Bununla belə, o, hadisələrin gələcək inkişafı haqda danışmaqdan imtina edərək bildirib: "İşlərin necə cərəyan edəcəyini deyə bilmərəm. Tanqoya iki nəfər lazımdır". ABŞ dövlət başçısı fikrini davam etdirərək qeyd edib ki, Ukrayna ilin əvvəlində münaqişənin nizamlanmasına razılıq verməli idi, çünki o zaman daha əlverişli şərtlər olub.

Ukrayna böhranı ilə bağlı NATO-nun Brüssel toplantısında da geniş müzakirələr keçirilib. Avropalı müttəfiqlər Ukrayna üçün daha məqbul olan sülh planı tapmağa çalışırlar. NATO xarici işlər nazirlərinin məhz Moskva görüşündən sonra toplaşmasında məqsəd də Kiyevə dəstək üçün yeni tədbirləri müzakirə etməkdir. Almaniya Ukraynanın silah alması üçün əlavə 200 milyon dollar ayırmağı öhdəsinə götürür. Polşa, Norveç, Hollandiya və başqaları da ona qoşulmaqda qərarlıdır.

Yalnız İtaliya ABŞ silahlarının Ukrayna üçün alınmasını nəzərdə tutan NATO proqramında (PURL) iştirak etməyəcəyini bildirib, çünki artıq sülh danışıqları başlayıb. Bunu İtaliyanın xarici işlər naziri Antonio Tajani deyib: "Əgər razılaşma əldə etsək və döyüşlər dayansa, silaha ehtiyac olmayacaq. Başqa şeylər lazım olacaq, məsələn, təhlükəsizlik zəmanətləri…". "Bloomberg" nəşri isə qeyd edib ki, bu açıqlamalar İtaliya hökumətinin Ukrayna ilə bağlı strategiyasında dəyişiklik



olduğunu göstərir. Bu, həm ölkənin büdcə problemləri, həm də hakim koalisiya daxilində gərginlik fonunda baş verir.

Bu arada, Avropa liderləri Ukrayna üzrə danışıqlar prosesində öz rollarını gücləndirmək üçün yollar axtarmaqda davam edirlər. Dekabrın 3-də Fransa prezidenti Emmanuel Makron Çinə səfərə gedib. Fransa XİN başçısı Jan-Noel Barrot bəyan edib ki, Paris Pekinin atəşkəslə razılaşmaq üçün Moskvaya təsir edəcəyinə ümid bəsləyir. Aİ xarici işlər naziri Kaya Kallas isə etiraf edib ki, Aİ-nin Ukrayna məsələsində Çinə təzyiq etmək imkanları məhduddur. Amma Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Ukraynanın növbəti iki ildə maliyyə ehtiyaclarını ödəmək üçün dondurulmuş Rusiya aktivlərindən istifadə etməyi təklif edib.

Moskvada isə hesab edirlər ki, Avropa ölkələrinin böhranın həlli prosesinə daxil olması mümkündür, ancaq bu proses sonrakı mərhələdə olmalıdır. Rusların fikrincə, hazırda yalnız ABŞ münaqişənin uzunmüddətli nizamlanmasına nail olmaq üçün "bütün mümkün səylərə" hazırdır.

***Paşa ƏMİRCANOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 257 (30951) 5 dekabr 2025-ci il, cümə

# İDMAN

## Milli futbol kubokunun “dörddəbir” davamçıları

**Dünən futbol üzrə Azərbaycan Kubokunda 1/8 final mərhələsinə yekun vurulub. Son oyun günündə 3 qarşılaşma keçirilib. Günün ilk matçında “Qəbələ” öz meydanında I Liqa təmsilçisi “Şəfa”nı qəbul edib. Qəbələ şəhər stadionunda baş tutan oyunda meydan sahibləri paytaxt təmsilçisinə 2:1 hesabı ilə qalib gəlib.**



“Liv Bona Dea Arena”da keçirilən “Araz-Naxçıvan”– “Kəpəz” matçı qonaqların qələbəsi ilə yekunlaşıb–0:1. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda baş tutan “Sumqayıt”– “Difai” görüşündə isə meydan sahibləri qonaqları mübarizədən kənarlaşdırıb–2:0.

Beləliklə, “Qəbələ”, “Kəpəz” və “Sumqayıt” növbəti mərhələ vəsiqəni təmin ediblər.

Qeyd edək ki, bundan əvvəl “Turan Tovuz”, “Zirə”, “Şamaxı”, “Sabah” və “Qarabağ” da 1/4 finala vəsiqə qazanıblar.

## AFFA komandaları intizama dəvət edib

**AFFA-nın İntizam Komitəsi “Şamaxı”nın baş məşqçisi Ayxan Abbasovu cəzalandırıb. Bu barədə qurumun iclasında qərar qəbul olunub. Misli Premyer Liqasının XIII turunda baş tutan “Şamaxı” – “Sumqayıt” oyununun 88-ci dəqiqəsində A.Abbasov rəqib komandanın texniki zonasına aqressiv şəkildə daxil olduğuna görə cəzalandırılıb. O, 1 oyunluq diskvalifikasiya edilib, “Şamaxı” isə 2000 manat cərimələnib.**



AFFA-dan verilən məlumata görə, İntizam Komitəsi “Sumqayıt”ın baş məşqçisi Saşa İliçi də “Şamaxı” ilə matçda rəqib komandanın texniki zonasında qeyri-etik ifadə və ya hərəkətə görə 4 oyunluq diskvalifikasiya edib. “Sumqayıt” klubu isə baş məşqçinin hərəkətinə görə 10 min manat cərimələnib.

Bundan əlavə, “Sumqayıt” 5 futbolçusunun sarı vərəqə almasına görə 700 manat cərimə ödəyəcək.

XIII turun “İmişli” – “Sabah” oyununda azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə meydan sahibləri 3000 manat ziyana düşüb. “Qəbələ” – “Araz-Naxçıvan” matçında isə meydan sahiblərinin futbolçusu Murad Musayev ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyunluq cəzalanıb. Onun hərəkətinə görə bölgə təmsilçisi 500 manat cərimələnib.

## “Qarabağ” – “Ayaks” oyununun biletləri satışda

**UEFA Çempionlar Liqasının liqa mərhələsi çərçivəsində keçiriləcək “Qarabağ” – “Ayaks” (Niderland) oyununun biletləri satışa çıxarılıb. Bu barədə Ağdam klubundan məlumat verilib.**




Standart biletlərin qiyməti 10, 15, 25, 35, 40, 50, 75 manat olacaq. VIP sektorlar 200, 250, 300 və 400 manat, VVIP sektorlar isə 1000 manat məbləğindədir.

Azarkeşlər biletləri yalnız iTicket.az-ın mobil tətbiqi və saytı üzərindən əldə edə bilərlər.

Qeyd edək ki, dekabrın 10-da Tofiq Bəhramov adına Respublika Stadionunda təşkil olunacaq görüş saat 21:45-də başlayacaq.

***Qabil YUSİFOĞLU***
***XQ***

**OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!**

**XALQ QƏZETİ**

**Abunə yazılışını davam etdirir!**

*Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda, aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:*

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 156 (yüz əlli altı) manat.
6 aylıq – 78 (yetmiş səkkiz) manat.
3 aylıq – 39 (otuz doqquz) manat.
1 aylıq – 13 (on üç) manat.


5 il əvvəl biz hamımız Vətən dedik!
Xalq qəzeti
Prezident İlham ƏLİYEV:
Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!
Üç dövlət, üç qardaş – tək ürək

**Hörmətli abunəçilər! Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.**

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Qədim Günəş tutulmasının sirri açıldı

**Beynəlxalq alimlər qrupu eramızdan əvvəl 709-cu ildə Çində qeydə alınmış ən qədim tam Günəş tutulması haqqında məlumatı yenidən araşdırıb. Bu axtarış Yer planetinin 3 min il əvvəl nə qədər sürətlə fırlandığını daha dəqiq müəyyən etməyə kömək edib.**

Uzun müddət müasir hesablamalar göstərirdi ki, həmin tutulmanın tam fazası Lu vilayətinin Çüfyu şəhərindən görünə bilməzdi. Alimlər problemin hesablarda yox, xəritədə ola biləcəyini düşünərək arxeoloqların məlumatlarına baxıblar. Məlum olub ki, əvvəlki tədqiqatlarda qədim Çüfyu şəhərinin koordinatları, təxminən, 8 kilometr səhv götürülüb. Koordinatlar düzəldildikdən sonra hesablamalar tarixi qeydlərlə tam uyğunlaşıb.

Bu düzəliş Yer kürəsinin e.ə. VIII əsrdə fırlanma sürətini daha dəqiq müəyyən etməyə imkan verib. Alimlər müəyyən ediblər ki, o dövrdə Yer bu günlə müqayisədə bir qədər daha sürətli fırlanırdı. Zamanla bu fırlanma Ayın okeanlarda yaratdığı qabarmalara görə yavaşıyıb.

Tədqiqat göstərir ki, qədim Çin müşahidələri ilə müasir elmi metodların birləşdirilməsi çox dəyərli nəticələr verə bilər. Çinlilər göy hadisələrini diqqətlə qeydə aldıqları üçün bu məlumatlar bu gün də elmə yeni məlumatlar qazandırır. Bu yanaşma alimlərə həm Yer kürəsinin fırlanma tarixini, həm də Günəşin keçmişdəki aktivliyini daha dəqiq anlamağa kömək edir.

***XQ***

*Mövzu qədim – baxış yeni*

# Zamanın coğrafiyası

**İtalyan atalar sözü: “İnsan zamanı ölçər, zaman da insanı”.**

**Zaman haqqında nə bilirik? “Bizdən əvvəl olan, bizdən sonra da olacaq” deyəcəksiniz. Doğrudur, amma bununla belə, zamanın da öz dilinin olduğunu bilirikmi? Zamanın bizə necə nəzarət etməsindən xəbərimiz varmı? Bəs zamanın idarə edilməsinin iqtisadi inkişafla birbaşa əlaqəsinin olması barədə düşünmüşükmü? Bu və ya digər maraqlı suallara cavab tapmaq üçün sizi zamanın coğrafiyasını qələmə almış amerikalı Robin Levinin kitabı ilə tanış etmək istəyirik.**

Zamanın qaydaları var, hər birimizi çərçivəsinə salar, özümüz də bilmədən bizi idarə edər. Necə? Hər şey çox sadədir, doğuluşumuz, ilk ana südü içməyimiz, məktəbə, işə, xəstəxanaya, banka, restorana getməyimiz zamanla müşayiət olunur. Bəli, zaman sosial həyatın təməl daşıdır, yazır Robin Levin. Zamanın həyatımız üzərində damğası böyük və ağırdır.

Amma zamanın idarə olunmasında bütün ölkələr tərəzinin eyni gözündə deyillər. Araşdırmalar göstərir ki, milli mentalitet və yaşam tərzi ölkədən–ölkəyə dəyişir. Məsələn, Yaponiyada yaşam sürəti insanların zamanın əsarətində olmadıqlarını göstərir. “Gündoğar” ölkədə daha çox zamana nəzarət etməyi sevirlər. Daha doğrusu, yaponların zamanla davranışları, məsələn, fransızların davranışlarından fərqlənir. Amma yaponların iş həyatına sərf etdikləri zamanla istirahətə ayırdıqları zamanı müqayisə etdikdə, Yaponiyada iş zamanının hökmranlığı aydın şəkildə görünür.

Robin Levin burada incə məqamlara toxunur. Yaponların nədən bu qədər çalışqan olmalarının səbəblərini açıqlayır. Araşdırmalar göstərir ki, Yaponiyada yaşam sürəti dünyadakı ən zorlayıcı sürətlərdən biridir. Yaponlar yalnız sürətli çalışmırlar, həm də çox çalışırlar. Tətillərdən qaçır və təqaüdçü olmaqdan qorxurlar. Levin yazır ki, yaxşı çalışan işçi üçün ən yaxşı mükafat çalışdığı şirkətin məcburi pensiya yaşından azad olunmasıdır. Etiraf edək ki, Qərbdə, elə bizdə də çoxlarının arzulamadığı mükafatdır.

Bəs necə olur ki, bir ölkədə insanlar daha sürətli, daha çevik olurlar, digər ölkələrdə isə əksinə, yavaş və mütəvazi davranırlar? R.Levin bu davranışların kökündə cəmiyyətin zamana münasibətin dayandığını qeyd edir. Müəllif yazır ki, universal olaraq uşaqlar böyüdükləri cəmiyyətin tez və gec, gözləmək və tələsmək, keçmiş, indi və gələcək anlayışlarını mənimsəyirlər. Buna nümunə olaraq R.Levin böyüdüyü Bruklin şəhərində uşaqlara zamanla necə davranmalı olduqlarını öyrədilməsini misal çəkir. Müəllif yazır ki, Bruklində insana ya tələsməsinin, ya da yoldan çəkilməsinin vacibliyi hələ uşaq yaşlarında öyrədilir.

Burada müəllif məsələnin maraqlı tərəflərini ortaya çıxarmaq üçün belə bir sual da verir: konkret ərazinin və ya mədəniyyətin hansı xüsusiyyətləri onu digərlərindən daha yavaş, ya da sürətli edir? Etiraf edim ki, cavab çox təəccübləndirici və düşündürücüdür. R.Levin yazır ki, insanlar iqtisadiyyatlara, yüksək sənayeləşmə faizlərinə, böyük əhaliyə və daha sərin iqlimlərə sahib olan, fərdiliyə doğru mədəni meyillik göstərən yerlərdə daha sürətli hərəkət edirlər. Daha bir maraqlı nəticə: ölkənin iqtisadiyyatı nə qədər sağlamdırsa, tempi də bir o qədər sürətlidir. Amma ən maraqlı nəticələrdən biri də budur ki, şəhər böyüdükcə, həmin şəhər sakinlərinin zaman dəyərləri də həyat bahalığı ilə birlikdə artır. Bununla da zamandan idarəli istifadə etməyin əhəmiyyəti artır və həyat getdikcə daha tələskən və əsəbi olur. Bu mövzuda aparılan araşdırmalardan R.Levin belə qənaətə gəlir ki, konkret yerin tempinin bir nömrəli təyinedicisi iqtisadiyyatdır. Buna görə də, təsadüfi deyil ki, ən sürətli adamlar Şimali Amerikada, Şimali Avropada və Asiya ölkələrində yaşayırlar. Bunun əksini isə, qeyd etdiyimiz kimi, üçüncü dünya ölkələrində, xüsusilə də Cənubi və Orta Amerikada, həmçinin Yaxın Şərqdə görmək mümkündür.

Burada R.Levin daha bir maraqlı ziddiyyəti üzə çıxarır. Müəllif yazır ki, ölkə inkişaf etdikcə, günlük asudə vaxt da azalır. “Bu, necə qaydadır ki?” sualını verərək, bu ziddiyyətə aydınlıq gətirməyə çalışan R.Levin düşünür ki, bunun səbəbi istehsalın avtomatlaşdırılmasındadır. Belə ki, zamana olan qənaət artdıqca insanlar üzərindəki zaman təzyiqi də artır. Müəllif xatırladır ki, tarixi baxımdan Qərb dünyasının tempindəki sürətlənmədə dönüş nöqtəsi sənaye çevrilişi olmuşdu. Lakin ağır əməyin iztirablarından xilas olan qərbli sonradan zaman azlığı kimi sosial problemlə üzləşdi. R.Levin yazır: “Zamana qənaət etməyə imkan verən bütün kəşflərə rəğmən insanların özlərinə ayıracaq vaxtlarının əvvəlkindən daha



az olması müasir dünyanın ən böyür istehzalarından biridir”. Bəli, sürətli işləmək, yaxşı pul qazanmaq, ancaq bunun müqabilində zaman azlığından şikayət etmək-müasir dünyanın gətirdiyi yeni acı reallıqdır. R.Levin bunu da əlavə edir ki, Orta əsrlərdə həyatın əsasən soyuq və qaranlıq olduğu təsvir edilir, ancaq həmin çağda yaşayan insanların daha çox sahib olduqları yeganə şey boş zaman idi. İndi vəziyyət tam fərqlidir, bu gün müasir insan zamanın əsarətindədir. Tərəqqi müasir insanın yaşayış səviyyəsini artırsa da, asudə vaxtını “qandalladı”.

Qəribə görünsə də, iş yükünün azalmasına səbəb olan kəşflər insanı bol asudə vaxtından da məhrum etdi. Araşdırmalara söykənərək R.Levin yazır ki, 1920-ci illərdə fermer ər-arvadın elektrik enerjisi olmadığına rəğmən ev işlərinə ötən əsrin ikinci yarısında şəhərətrafında yaşayan, bütün müasir avadanlığa malik olan qadınlardan daha az zaman sərf etdiyini göstərir. “Bunun bir səbəbi hər texniki inkişafın bərabərində müəyyən gözləntiləri də artırmasıdır”, – yazan müəllif maraqlı nümunə də çəkir. R.Levin yazır: “XVII əsrin sonlarında Hollandiyada ucuz pəncərə şüşəsi geniş yayıldığında ev içində toplanan kir daha çox nəzərə çarpmağa başladı. Hazırda elektrik süpürgəsi və buna bənzər məhsullar insanların təmizlik standartlarını çox yüksəklərə qaldırdı. Ancaq bunu həyata keçirərkən insanların ev tozu və bakteriyaları ilə mübarizəyə zaman xərcləmələrini də tələb etdi.

Bütün bunlardan belə nəticəyə gəlmək olur ki, sənayeləşmə “artıq zaman”dan “zaman bolluğuna”, oradan da “zaman qıtlığına” doğru universal bir irəliləyiş “istehsal” edir. Son nəticə də insan həyatının tempi üzərində cəmləşir. Yəni daha çox istehsalın və istehlakın nəticəsi olaraq artan bir zaman qıtlığı ortaya çıxır. R.Levin bunun işləmə mexanizmini belə təsvir edir: İstehsalda məhsuldarlığın artması hər fərdin saatbaşı istehsalının da artması anlamına gəlir, artan istehsal isə... sistemin davamını təmin etmək üçün daha çox məhsul tükətməyimizi şərtləndirir. Bu halda asudə vaxt istehlak zamanına dönür, çünki həm istehsala, həm də istehlaka sərf olunan zaman boş yerə xərclənmiş kimi qəbul edilməyə başlanılır...

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# HAVA

## Arabir yağış yağacaq, bəzi yerlərdə leysan gözlənilir

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, bəzi yerlərdə leysan xarakterli olacağı gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 8-10, gündüz 11-14 dərəcə isti olacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu, nisbi rütubət isə 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Əsasən şərq rayonlarında leysan xarakterli olacağı ehtimalı var. Səhər yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 5-10, gündüz 14-17 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-9 dərəcə isti olacaq.

***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Şirvan şəhərindən İlqar Abbasov Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanova bacısı **SÜDABƏ HÜSEYNOVANIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının sektor müdiri Qurban Sadıqova anası **NABAT XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3589
SİFARİŞ 2327
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Müşfiq CƏFƏROV
Çapa imzalanmışdır 00:00